RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 281 (9736) 20 dekabr 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Heç zaman unutmayacağıq!

## Şanlı qələbəmizi əbədiləşdirən möhtəşəm abidə

44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbədən dörd il keçir.

Düz dörd ildir ki, qalib xalq, qalib dövlət kimi yaşayırıq!

Dörd il bundan qabaq 44 gün ərzində otuz il erməni işğalında olan torpaqlarımızı azad etdik!

Murdar ləpirliləri müqəddəs torpaqlarımızdan iti qovan kimi qovduq!

Şəhidlərimizin, itkinlərimizin qisasını döyüş meydanında aldıq!

Düşməni zəlil günə qoyduq, qarşımızda diz çökdürdük, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün şərtlərini özündə əks etdirən kapitulyasiya aktını imzalatdırdıq!

İndi isə müharibədən sonrakı zəruri işlərlə məşğuluq:

*- Ərazi bütövlüyümüzü, dövlət suverenliyimizi tam bərpa etmişik!*

*- Separatçıların, terrorçuların rəhbərlərini, terroru maliyyələşdirənləri Bakıya gətirərək onlara həbsxanada "çay qonaqlığı" veririk.*

*- Viran qoyulmuş əraziləri bərpa edərək, müasir tipli yaşayış məntəqələri yaradırıq.*

*- Otuz il Vətən həsrəti çəkən keçmiş məcburi köçkünləri doğma yurd-yuvalarına qaytararaq işlə, normal yaşayışla təmin edirik.*

*- Yeni su ambarları yaradır, suvarılan torpaqların ərazisini genişləndirir, elektrik stansiyaları tikərək "yaşıl enerji" istehsalını artırırıq.*

*- Dünyada mövqeyimizi daha da möhkəmləndirərək siyasi nüfuzumuzu, iqtisadi imkanlarımızı yüksəldirik.*

*- COP29 kimi nəhəng tədbirə uğurla evsahibliyi etdik.*

Zəfərin dördüncü ildönümü günü Prezident İlham Əliyevin 3 dekabr 2020-ci ildə imzaladığı Sərəncam əsasında inşası başa çatan Zəfər parkının açılışı oldu.

On hektar ərazini əhatə edən bu parkda Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər muzeyi də fəaliyyət göstərir.

Hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı möhtəşəmliyi və qeyri-adiliyi ilə insanı heyran qoyur.

Müzəffər Ali Baş Komandanın açılışını etdiyi Zəfər tağını və Zəfər muzeyini muzeylər muzeyi də adlandırmaq olar.

Otuz il ərzində yağı düşmən barbar simasını bütün çirkinliyi ilə göstərdi, Qarabağı, Şərqi Zəngəzuru xarabalıqlara çevirdi, daş üstə daş qoymadı.

Bu vəhşilikllləri dünyaya, gələcək nəsillərə və sonrakı illərdə ölkəmizə gələnlərə göstərmək vacib məsələlərdən biridir.

Odur ki, dövlət başçısı İlham Əliyevin tapşırığına əsasən bütün işğaldan azad edilmiş rayonlarda Zəfər və İşğal muzeyləri yaradılır.

→ 5



# Azərbaycanın qətiyyətli iradəsi

## Azərbaycanın namizədliyinə dəstək bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir

### Prezident İlham Əliyev Azərbaycanın D-8 təşkilatına üzv qəbul edilməsi ilə bağlı paylaşım edib



Bu gün Qahirədə İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) Zirvə toplantısı zamanı Azərbaycanın təşkilata üzv qəbul edilməsinə görə Türkiyə, Pakistan, Misir, İran, İndoneziya, Malayziya, Nigeriya və Banqladeşin dövlət və hökumət başçılarına təşəkkürümü bildirirəm.

Azərbaycanın namizədliyinə dəstək bu ölkələr ilə səmimi dostluğumuzun və əməkdaşlığımızın göstəricisidir.

Türkiyənin təşəbbüsü ilə yaradılmış D-8 təşkilatı 30 ilə yaxındır ki fəaliyyət göstərir və ilk dəfə olaraq genişlənmə ilə əlaqədar qərar qəbul olunmuşdur. Bu, bizim üçün qürur mənbəyidir.

Öz həmkarlarımı əmin edirəm ki, Azərbaycan digər ölkələrlə birlikdə təşkilatın daha da inkişafı, İslam həmrəyliyinin gücləndirilməsi üçün öz səylərini əsirgəməyəcəkdir.

İLHAM ƏLİYEV

## Prezident İlham Əliyev "Rossiya Seqodnya" İnformasiya Agentliyinə verdiyi müsahibəsində qlobal əhəmiyyətli problemlərə toxundu

Azərbaycanın beynəlxalq müstəvidə artan nüfuzu dünya birliyinin ölkəmizə marağını şərtləndirən başlıca amildir. Prezident İlham Əliyevin liderliyi ilə siyasi və iqtisadi sferalarda əldə edilən nailiyyətlər, ikitərəfli və dövlətlərarası platformalarla yanaşı, nüfuzlu xarici media orqanlarının da Azərbaycanın uğurlarını təqdir etməsinin əsas səbəbi rolunda çıxış edir.

Bu gün rəsmi Bakı təkcə tarazlaşdırılmış uğurlu xarici siyasət, dünyada çoxlarını təəccübləndirən iqtisadi yüksəliş, 2020-ci ilin Vətən müharibəsindən sonra isə hərbi qüdrət ünvanı deyil, həm də qlobal geosiyasi proseslərin fəal iştirakçısı və həmin proseslərə təsir etmək iqtidarında olan tərəfdaş qismində qəbul edilir.

Azərbaycan qlobal dünyamızın reallıqlarına ən adekvat şəkildə davranan dövlətlərdəndir. Eyni zamanda respublikamızın uzun illər ərzində beynəlxalq aləmdə qazandığı etibarlı tərəfdaş imici, başqa dövlətlərin Azərbaycana və şəxsən ölkəmizin rəhbərinə yüksək inamı xarici əlaqələrdə mövqelərimizi gücləndirir, yeni-yeni nailiyyətlərə yol açır. Rusiyanın nüfuzlu "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Azərbaycan Prezidenti ilə müsahibəsi də məhz bu marağın növbəti təzahürüdür.

Prezident İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova verdiyi müsahibədə beynəlxalq siyasət və qlobal əhəmiyyətli problemlər, onların həlli yolları, dövlətlərarası münasibətlər öz əksini tapmışdır. Suallara ətraflı cavablar Rusiyada Azərbaycan liderinin bu kimi mövzulara dair görüşlərinə verilən önəmin göstəricisidir. Son bir neçə ildə ölkəmizin "orta güc" kimi klassifikasiya edilən təsir imkanlarına malik dövlətlərin sırasına qoşulması, Prezident İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq aktora çevrilməsini şərtləndirən danılmaz faktdır. Dövlətimizin başçısının Rusiya ilə Ukrayna arasında davam edən gərginlik, qonşu ölkələrdə baş verən siyasi proseslər, neokolonializm təzahürləri və qlobal iqlim problemləri kimi mövzulara münasibət bildirməsi Azərbaycanın beynəlxalq əhəmiyyətinin yerləşdiyimiz region və bir qədər geniş coğrafiya - postsovet məkanının çərçivələrini aşdığını nümayiş etdirir.

→ 7




## Azərbaycan D-8 təşkilatının üzvü seçilib

Dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) 11-ci Sammiti zamanı Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsi olan D-8-ə üzvlüyümüz təşkilat yarandığı gündən ilk genişlənmə kimi əlamətdardır.

Ölkəmiz ilk dəfə Prezident İlham Əliyevin xüsusi qonaq qismində iştirak etdiyi 2017-ci ildə İstanbulda keçirilmiş 9-cu Zirvə görüşündə təmsil olunub.

Qahirə şəhərində keçirilən 11-ci Sammitdə ölkəmizi Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Üzvlərinin əhalisinin sayının ümumilikdə dünya müsəlmanlarının 60 faizini təşkil edən və böyük iqtisadi potensiala malik "İslam Səkkizliyi" adlanan D-8-ə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir.

→ 3

## 2025-ci ilin dövlət büdcəsi dayanıqlı maliyyə təminatı yaradacaq

İlkin variantla müqayisədə dövlət büdcəsinin gəlir və xərcləri büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların və ona müvafiq olaraq büdcədənkənar xərclərin artırılması hesabına 40 milyon manat çoxalıb. Nəticədə 2025-ci ildə büdcə gəlirlərinin 38 milyard 356 milyon manat, xərclərinin 41 milyard 407,6 milyon manat, büdcə kəsirinin isə 3 milyard 51,6 milyon manat olacağı gözlənilir. 2025-ci ildə büdcə xərclərinin təxminən 41 faizinin sosialyönümlü sahələrə yönəldilməsi nəzərdə tutulur ki, bu da hökumətin növbəti ildə də əhalinin sosial rifahını diqqətdə saxladığını deməyə əsas verir.

Növbəti il və ortamüddətli dövr üçün büdcə siyasətində Qarabağ və Şərqi Zəngəzurun bərpası, yenidənqurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası və Böyük qayıdışın təmin edilməsi əsas məqsədlərdən biri olaraq müəyyən edilib. Hazırda işğaldan azad olunmuş ərazilərimizin bərpası Azərbaycan dövlətinin vəsaiti hesabına həyata keçirilməkdədir. Bu ərazilərə Böyük qayıdışın təmin edilməsi, şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədilə növbəti ilin dövlət büdcəsindən 4 milyard manat vəsait ayrılması planlaşdırılır.

→ 8

## Mən yəhudiyəm, mən qarabağlıyam, mən azərbaycanlıyam

### *Milix YEVDAYEV:* "Bizi Azərbaycandan ayırmaq mümkün deyil, biz nəinki dostuq, qardaşıq, biz Azərbaycanın ayrılmaz hissəsiyik"

Sinaqoqa gəlmisiniz və gördünüz ki, qapılarımız taybatay açıqdır, amma Avropada, Fransada gedib bir sinaqoqa sərbəst şəkildə girə bilməzsən. Hər 10 addımdan bir bu məkanları avtomatlı, silahlı əsgərlər qoruyur. Biz isə bütün dini ayinlərimizi sərbəst yerinə yetiririk. Azərbaycan Prezidenti İlham Əliyev hər bir vətəndaşın prezidenti olduğunu təsdiqləyir. Biz bunun əməldə icrasının tam mənası ilə şahidi oluruq. Yəhudiəsilli vətəndaşlar Azərbaycan xalqının istifadə etdiyi bütün imtiyazlardan sərbəst yararlanırlar.

Bu sinaqoqu dövlət tikib bizə hədiyyə verib. Möhtərəm Prezident İlham Əliyev hər il icmamıza maliyyə yardımı ayırır, bayramlarımızda bizi təbrik edir. Dövlət tərəfindən Bakıda sinaqoqun yanında bizə torpaq sahəsi ayrılıb və hazırda orada 4 mərtəbəli dini-mədəni mərkəz tikilir.

Paytaxtımızda mühüm küçələrdən biri Milli Qəhrəman Albert Aqarunovun adını daşıyır. Həmin küçədə Albertin şərəfinə möhtəşəm heykəl ucaldılıb. Belə bir nümunə heç bir ölkədə yoxdur.

→ 9



## Günəş indi həm də təmiz enerji mənbəyidir

Azərbaycanın təbii iqlim şəraiti Günəş enerjisindən istifadə etməklə elektrik və istilik enerjisinin istehsalını artırmağa geniş imkanlar açır. Belə ki, Azərbaycanda günəş şüalanmasının davamlılığı 2400-3200 saata qədər müşahidə olunur. Alternativ və bərpaolunan enerji mənbələri hesabına quraşdırılacaq yeni generasiya güclərində günəş enerjisinin xüsusi çəkisi 73 faiz (günəş-istilik 58, günəş-elektrik 15 faiz) təşkil edir. Bir sözlə, ölkəmizdə Günəş enerjisinin iqtisadi potensialı yüksək qiymətləndirilir.

2022-ci il martın 15-də təməli qoyulan "Qaradağ" Günəş-Elektrik Stansiyası MDB məkanında ən böyük analoji qurğudur. Bu böyüklüyündə stansiyanın inşası dövlət siyasətinin artıq bərpaolunan enerjiyə istiqamət götürməsinin təsdiqidir. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin inşa etdiyi stansiya 230 MVt gücündədir. Ölkəmizdə xarici investisiya cəlb edilməklə tikilən sənaye miqyaslı bu GES 550 hektar ərazini əhatə edir. Stansiyada 570 min Günəş paneli quraşdırılıb. GES-in şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib.

→ 11

# "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında", "Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 12 (Cild I); 2024, № 6 (I kitab), maddə 636, № 8, maddə 934) ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 17-ci maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Sınaq müddəti müəyyən edilmiş şəxslər müvafiq vəzifəyə xüsusi rütbə verilmədən təyin olunur və onlar həmin müddət ərzində yalnız vəzifə maaşı alırlar.";

1.2. 20-ci maddənin birinci hissəsinə "müəyyən edilmir" sözlərindən sonra "və həmin şəxslər müvafiq vəzifəyə təyin olunmaqla, gömrük orqanlarında daimi qulluğa qəbul edilirlər" sözləri əlavə edilsin;

1.3. 32-ci maddənin ikinci hissəsi aşağıdakı redaksiyada verilsin:

"Gömrük orqanlarının sərəncamında olan, yaxud intizam tənbehi verilmiş, həmçinin barələrində cinayət işi başlanmış və ya xidməti intizamın pozulması ilə əlaqədar xidməti araşdırma aparılan işçilər vəzifəyə təyin olunana, intizam tənbehi götürülənə, ibtidai istintaqda cinayət işinin icraatına bəraətverici əsaslarla xitam verilənə və ya məhkəmənin hökmü ilə bəraət alanadək, yaxud xidməti araşdırma qurtaranadək növbəti xüsusi rütbələrə təqdim edilmirlər.";

1.4. aşağıdakı məzmunda 33-1-ci maddə əlavə edilsin:

"33-1. Gömrük orqanlarının sərəncamında olan (intizam tənbehi qaydasında vəzifədən azad edilərək sərəncamda olan işçilər istisna olmaqla), həmçinin barəsində cinayət işi başlanmış və ya xidməti intizamın pozulması ilə əlaqədar xidməti araşdırma aparılan işçi vəzifəyə təyin olunduqda, ibtidai istintaqda cinayət işinin icraatına bəraətverici əsaslarla xitam verildikdə və ya məhkəmənin hökmü ilə bəraət aldıqda, yaxud xidməti araşdırma nəticəsində müsbət rəy aldıqda onun növbəti xüsusi rütbə alması üçün xidmət müddəti əvvəlki xüsusi rütbədə xidmət müddətinin bitdiyi vaxtdan başlanaraq hesablanır.";

1.5. 58-ci maddə aşağıdakı redaksiyada verilsin:

"58. Gömrük orqanlarında xidmət keçən və ya əvvəllər xidmət keçmiş şəxslər dövlət qulluğuna və ya digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növünə işə qəbul edilərkən, onların gömrük orqanlarındakı xidmət illəri həmin orqanlarda qulluq (xidmət) illərinə daxil edilir və həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasına əsasən müvafiq ixtisas dərəcəsi, xüsusi, hərbi və ya diplomatik rütbə verilir. Dövlət qulluğunda və ya digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə işləyən və ya əvvəllər işləmiş şəxslər gömrük orqanlarına xidmətə qəbul edildikdə, onların qulluq (xidmət) illəri gömrük orqanlarında xidmət illərinə daxil edilir və həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasına və bu Əsasnaməyə əsasən müvafiq xüsusi rütbə verilir.".

**Maddə 2.** "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 452 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. aşağıdakı məzmunda 5.4-2-ci maddə əlavə edilsin:

"5.4-2. Prokurorluğa qulluğa qəbul zamanı elmlər doktoru elmi dərəcəsi olan şəxslər üçün stajorluq və sınaq müddəti müəyyən edilmir və həmin şəxslər müvafiq vəzifəyə təyin olunmaqla, prokurorluq orqanlarında daimi qulluğa qəbul edilirlər.";

2.2. 18.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"18.9. Prokurorluq orqanlarında qulluq keçən və ya əvvəllər qulluq keçmiş şəxslər dövlət qulluğuna və ya digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növünə qulluğa (xidmətə) qəbul edilərkən, onların prokurorluq orqanlarındakı qulluq illəri həmin orqanlarda qulluq (xidmət) illərinə daxil edilir və həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasına əsasən müvafiq ixtisas dərəcəsi, xüsusi, hərbi və ya diplomatik rütbə verilir. Dövlət qulluğunda və ya digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxslər prokurorluq orqanlarına qulluğa qəbul edildikdə, onların qulluq (xidmət) illəri prokurorluq orqanlarında qulluq illərinə daxil edilir və həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasına və bu Qanuna əsasən müvafiq rütbə verilir.";

2.3. 32.5-ci maddə ləğv edilsin.

**Maddə 3.** Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 453 (Cild I); 2024, № 8, maddə 934) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

3.1. 26-cı maddəyə "müəyyən edilmir" sözlərindən sonra "və həmin şəxslər daxili işlər orqanlarında daimi xidmətə qəbul edilirlər" sözləri əlavə edilsin;

3.2. 40-cı maddənin birinci cümləsinə "əlaqədar" sözündən sonra "və ya attestasiyanın nəticələrinə görə" sözləri əlavə edilsin;

3.3. 59-1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"59-1. Daxili işlər orqanlarında xidmət keçən və ya əvvəllər xidmət keçmiş şəxslər dövlət qulluğuna və ya digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növünə qulluğa (xidmətə) qəbul edilərkən, onların daxili işlər orqanlarındakı xidmət illəri həmin orqanlarda qulluq (xidmət) illərinə daxil edilir və həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasına əsasən müvafiq ixtisas dərəcəsi, xüsusi, hərbi və ya diplomatik rütbə verilir. Dövlət qulluğunda və ya digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxslər daxili işlər orqanlarına xidmətə qəbul edildikdə, onların qulluq (xidmət) illəri daxili işlər orqanlarında xidmət illərinə daxil edilir və həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasına və bu Əsasnaməyə əsasən müvafiq xüsusi rütbə verilir.";

3.4. aşağıdakı məzmunda 71-1-ci maddə əlavə edilsin:

"71-1. Daxili işlər orqanlarının sərəncamında olan, həmçinin barəsində cinayət işi başlanmış və ya xidməti yoxlama keçirilən əməkdaş vəzifəyə təyin olunduqda, ibtidai istintaqda cinayət işinin icraatına bəraətverici əsaslarla xitam verildikdə və ya məhkəmənin hökmü ilə bəraət aldıqda, yaxud xidməti yoxlama nəticəsində müsbət rəy aldıqda onun növbəti xüsusi rütbə alması üçün xidmət müddəti əvvəlki xüsusi rütbədə xidmət müddətinin bitdiyi vaxtdan başlanaraq hesablanır.";

3.5. 135-ci maddənin birinci hissəsinin 6-cı bəndində "4" rəqəmi "6" rəqəmi ilə əvəz edilsin.

**Maddə 4.** Azərbaycan Respublikasının 2002-ci il 29 mart tarixli 283-IIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 5, maddə 217 (Cild I); 2024, № 7 maddə 749) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında Əsasnamə"nin 3.1.7-ci maddəsində "və diplomatik rütbələrin ixtisas dərəcələri ilə" sözləri ", diplomatik rütbələrin və ixtisas dərəcələrinin" sözləri ilə əvəz edilsin.

**Maddə 5.** "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 586 (Cild I); 2024, № 5 (I kitab) maddə 502) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 4.1-ci maddədə "milliyyətindən" sözü "etnik mənsubiyyətindən" sözləri ilə əvəz edilsin;

5.2. 6.5-ci maddədə "üçün habelə qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda" sözləri ", dövlət notariusu vəzifəsinə təyin olunan, habelə dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında xüsusi, hərbi və diplomatik rütbə nəzərdə tutulan vəzifələrdə daimi qulluğa (xidmətə) qəbul edilməklə xidmət (qulluq) keçən və ya əvvəllər xidmət (qulluq) keçmiş şəxslər üçün" sözləri ilə əvəz edilsin və həmin maddəyə "müəyyən edilmir" sözlərindən sonra "və həmin şəxslər müvafiq vəzifəyə təyin olunmaqla, ədliyyə orqanlarında daimi qulluğa qəbul edilirlər" sözləri əlavə edilsin;

5.3. 12.2-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Növbəli işdə - gündüz, axşam və gecə növbələri üçün eyni müddətli iş vaxtı müəyyən edilir.";

5.4. 18.5-ci və 20.3-cü maddələr ləğv edilsin;

5.5. 21.13-cü maddə aşağıdakı redaksiyada verilsin:

"21.13. Ədliyyə orqanlarında qulluq keçən və ya əvvəllər qulluq keçmiş şəxslər dövlət qulluğuna və ya digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növünə qulluğa (xidmətə) qəbul edilərkən, onların ədliyyə orqanlarındakı qulluq illəri həmin orqanlarda qulluq (xidmət) illərinə daxil edilir və həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasına əsasən müvafiq ixtisas dərəcəsi, xüsusi, hərbi və ya diplomatik rütbə verilir. Dövlət qulluğunda və ya digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxslər ədliyyə orqanlarına qulluğa qəbul edildikdə onların qulluq (xidmət) illəri ədliyyə orqanlarında qulluq illərinə daxil edilir və həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasına və bu Qanuna əsasən müvafiq xüsusi rütbə verilir.";

5.6. aşağıdakı məzmunda 21.23-1-ci maddə əlavə edilsin:

"21.23-1. Ədliyyə orqanlarının sərəncamında olan (intizam tənbehi qaydasında vəzifədən azad edilərək sərəncamda olan işçilər istisna olmaqla), həmçinin barəsində cinayət işi başlanmış və ya xidməti yoxlama keçirilən işçi vəzifəyə təyin olunduqda, ibtidai istintaqda cinayət işinin icraatına bəraətverici əsaslarla xitam verildikdə və ya məhkəmənin hökmü ilə bəraət aldıqda, yaxud xidməti yoxlama nəticəsində müsbət rəy aldıqda onun növbəti xüsusi rütbə alması üçün qulluq müddəti əvvəlki xüsusi rütbədə qulluq müddətinin bitdiyi vaxtdan başlanaraq hesablanır.";

5.7. 23.9-cu maddə aşağıdakı redaksiyada verilsin:

"23.9. Bu Qanunun 23.5-ci maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, bu Qanunun 40.1.4-cü, 40.1.5-ci, 40.1.7-ci və ya 40.1.10-cu maddələrinə əsasən, yaxud pensiyaya çıxması ilə bağlı öz arzusu ilə işdən çıxma barədə yazılı ərizə verdiyinə görə ədliyyə orqanlarında qulluq keçməsinə xitam verilmiş ədliyyə orqanı işçisinə vəzifə maaşının 6 misli məbləğində birdəfəlik müavinət verilir.";

5.8. 36.8-ci maddənin üçüncü cümləsində və 40.1.5-ci maddədə "dörd" sözü "altı" sözü ilə əvəz edilsin;

5.9. aşağıdakı məzmunda 40.1.2-1-ci maddə əlavə edilsin:

"40.1.2-1. stajorluq və ya sınaq müddətini müvəffəqiyyətlə keçə bilmədikdə;".

**Maddə 6.** Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 972 (Cild I) ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə"nin 21-ci maddəsində "üçün, habelə qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda" sözləri ", dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında xüsusi, hərbi və diplomatik rütbə nəzərdə tutulan vəzifələrdə daimi qulluğa (xidmətə) qəbul edilməklə xidmət (qulluq) keçən və ya əvvəllər xidmət (qulluq) keçmiş şəxslər üçün" sözləri ilə əvəz edilsin.

**Maddə 7.** "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 714 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

7.1. 4.1-ci maddədə "milliyyətindən" sözü "etnik mənsubiyyətindən" sözləri ilə əvəz edilsin;

7.2. 6.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Sınaq müddətini müvəffəqiyyətlə keçməmiş işçinin qulluq keçməsinə bu Qanuna uyğun olaraq xitam verilir.";

7.3. 6.5-ci maddədə "üçün, habelə qanunvericiliklə nəzərdə tutulmuş digər hallarda" sözləri ", dövlət qulluğunun xüsusi növünə aid dövlət orqanlarında xüsusi, hərbi və diplomatik rütbə nəzərdə tutulan vəzifələrdə daimi qulluğa (xidmətə) qəbul edilməklə xidmət (qulluq) keçən və ya əvvəllər xidmət (qulluq) keçmiş şəxslər üçün" sözləri ilə əvəz edilsin və həmin maddəyə "müəyyən edilmir" sözlərindən sonra "və həmin şəxslər müvafiq vəzifəyə təyin olunmaqla, fövqəladə hallar orqanlarında daimi qulluğa qəbul edilirlər" sözləri əlavə edilsin;

7.4. 12.2-ci maddəyə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Növbəli işdə - gündüz, axşam və gecə növbələri üçün eyni müddətli iş vaxtı müəyyən edilir.";

7.5. 13.9-cu maddənin ikinci hissəsinin ikinci cümləsində və 33.1.5-ci maddədə "dörd" sözü "altı" sözü ilə əvəz edilsin;

7.6. 19.1-ci maddə üzrə:

7.6.1. birinci cümlə çıxarılsın;

7.6.2. ikinci cümlədən "Həmin orqanlardan və" sözləri çıxarılsın və həmin cümlədə "xüsusi (hərbi)" sözləri "hərbi" sözü ilə əvəz edilsin;

7.7. 20.2-ci maddə ləğv edilsin;

7.8. 21.15-ci maddə aşağıdakı redaksiyada verilsin:

"21.15. Fövqəladə hallar orqanlarında xidmət keçən və ya əvvəllər xidmət keçmiş şəxslər dövlət qulluğuna və ya digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növünə qulluğa (xidmətə) qəbul edilərkən, onların fövqəladə hallar orqanlarındakı xidmət illəri həmin orqanlarda qulluq (xidmət) illərinə daxil edilir və həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasına əsasən müvafiq ixtisas dərəcəsi, xüsusi, hərbi və ya diplomatik rütbə verilir. Dövlət qulluğunda və ya digər dövlət orqanlarında dövlət qulluğunun xüsusi növündə qulluq (xidmət) keçən və ya əvvəllər qulluq (xidmət) keçmiş şəxslər fövqəladə hallar orqanlarına qulluğa qəbul edildikdə, onların qulluq (xidmət) illəri fövqəladə hallar orqanlarında xidmət illərinə daxil edilir və həmin şəxslərə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi xüsusi, hərbi, diplomatik rütbələrin və ixtisas dərəcələrinin qarşılıqlı olaraq uyğunlaşdırılması qaydasına və bu Qanuna əsasən müvafiq xüsusi rütbə verilir.";

7.9. aşağıdakı məzmunda 21.25-1-ci və 33.1.2-1-ci maddələr əlavə edilsin:

"21.25-1. Fövqəladə hallar orqanlarının sərəncamında olan (intizam tənbehi qaydasında vəzifədən azad edilərək sərəncamda olan işçilər istisna olmaqla), həmçinin barəsində cinayət işi başlanmış və ya xidməti yoxlama keçirilən işçi vəzifəyə təyin olunduqda, ibtidai istintaqda cinayət işinin icraatına bəraətverici əsaslarla xitam verildikdə və ya məhkəmənin hökmü ilə bəraət aldıqda, yaxud xidməti yoxlama nəticəsində müsbət rəy aldıqda onun növbəti xüsusi rütbə alması üçün xidmət müddəti əvvəlki xüsusi rütbədə xidmət müddətinin bitdiyi vaxtdan başlanaraq hesablanır.";

"33.1.2-1. sınaq müddətini müvəffəqiyyətlə keçə bilmədikdə;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 noyabr 2024-cü il*

# "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Ümumdünya Gömrük Təşkilatı arasında Gömrük Əməkdaşlıq Fonduna dair Qrant Müqaviləsi"nin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2024-cü il iyunun 29-da Brüssel şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Ümumdünya Gömrük Təşkilatı arasında Gömrük Əməkdaşlıq Fonduna dair Qrant Müqaviləsi" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Qrant Müqaviləsi qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Qrant Müqaviləsinin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Ümumdünya Gömrük Təşkilatına bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2024-cü il*

# "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında", "Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 80-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında", "Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" **Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 80-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin 58-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 58-ci maddəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.3. "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun 18.9-cu maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.4. həmin Qanunun 18.9-cu maddəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.5. Azərbaycan Respublikasının 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin 59-1-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.6. "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun 21.13-cü maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.7. həmin Qanunun 21.13-cü maddəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

1.8. "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun 21.15-ci maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir.

2. "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 243 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 22 (Cild I); 2024, № 6 (I kitab), maddə 677) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. ikinci abzasda "və 39-cu maddəsində" sözləri ", 39-cu maddəsində və 58-ci maddəsinin birinci və ikinci cümlələrində" sözləri ilə əvəz edilsin;

2.2. üçüncü-beşinci abzaslar müvafiq olaraq dördüncü-altıncı abzaslar hesab olunsun və aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"həmin Əsasnamənin 58-ci maddəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;".

3. "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 534 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 471 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. ikinci abzasa "Qanununun" sözündən sonra "18.9-cu maddəsinin birinci və ikinci cümlələrində və" sözləri əlavə edilsin;

3.2. üçüncü-beşinci abzaslar müvafiq olaraq dördüncü-altıncı abzaslar hesab olunsun və aşağıdakı məzmunda üçüncü abzas əlavə edilsin:

"həmin Qanunun 18.9-cu maddəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;".

4. "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 18 iyul tarixli 535 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №7, maddə 472 (Cild I) 3-cü hissəsinin birinci abzasına "116-cı" sözlərindən əvvəl "59-1-ci maddəsinin birinci və ikinci cümlələrində," sözləri əlavə edilsin.

5. "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 25 iyul tarixli 430 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 7, maddə 594 (Cild I); 2024, № 5 (I kitab), maddə 523) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndə "23.4-1-ci" sözlərindən əvvəl "21.13-cü maddəsinin birinci və ikinci cümlələrində," sözləri əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. həmin Qanunun 21.13-cü maddəsinin birinci və ikinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;";

5.3. 2.7-ci bənd ləğv edilsin.

6. "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 13 avqust tarixli 314 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 8, maddə 719 (Cild I) 2.1-ci bəndinə "26.1-ci" sözlərindən əvvəl "21.15-ci maddəsinin birinci və ikinci cümlələrində," sözləri əlavə edilsin.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında", "Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 80-VIIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2024-cü il*

# Baş nazir Əli Əsədov Qahirədə D-8 təşkilatının 11-ci Zirvə görüşündə iştirak edib

**Dekabrın 19-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının 11-ci Zirvə görüşündə iştirak edib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Misir Prezidenti Əbdülfəttah əs-Sisi Baş nazir Əli Əsədovu və Zirvə görüşündə iştirak edən D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçılarını qarşıladıqdan sonra birgə foto çəkdirilib.








Zirvə görüşündə D-8 İqtisadi Əməkdaşlıq Təşkilatına üzv ölkələrin yekdil qərarı ilə Azərbaycan Respublikasının təşkilata üzv seçildiyi elan edilib.

Zirvə görüşündə çıxış edən Ə.Əsədov diqqətə çatdırıb ki, Azərbaycan Prezidenti İlham Əliyev ilk dəfə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə D-8-in 2017-ci ildə İstanbulda keçirilmiş 9-cu Zirvə görüşündə iştirak edib.

Bugünkü Zirvə toplantısında Azərbaycan nümayəndə heyətinin iştirakının xüsusi tarixi əhəmiyyət daşıdığı bildirilərək, ölkəmizin D-8-ə üzvlüyü ilə bağlı qəbul edilən qərara görə təşkilatın üzv dövlətlərinə minnətdarlıq ifadə edildi.

Bildirildi ki, Azərbaycan təşkilatın təməl prinsiplərinin qorunmasına, D-8 çərçivəsində əməkdaşlığın daha da dərinləşməsinə yaxından töhfə verəcək.

Müasir toqquşmalar və siyasi gərginlik fonunda geniş regionumuzda təhlükəsizliyin və sabitliyin təmin edilməsinin, qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyi qeyd edilib. Bu xüsusda geosiyasi mövqeyi, geniş iqtisadi potensialı və müasir nəqliyyat infrastrukturu ilə Azərbaycanın özünü etibarlı regional mərkəzlərdən biri kimi təsdiq etdiyi vurğulanıb.

"Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycan mühüm enerji layihələrinin həyata keçirilməsində və beynəlxalq nəqliyyat dəhlizlərinin inkişaf etdirilməsində əhəmiyyətli rola malikdir", - deyə Baş nazir bildirib.

O qeyd edib ki, Azərbaycan bir sıra beynəlxalq təşkilatlara uğurlu sədrliklə yanaşı, qlobal problemlərin həllinə öz töhfəsini verir.

"Ölkəmizin BMT-dən sonra dünyanın ən böyük təsisatı olan Qoşulmama Hərəkatına 4 illik sədrliyi, eləcə də dünyada ən mötəbər tədbirlərdən biri hesab edilən COP29 üzrə sədrliyi Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun bariz göstəricisidir", - deyə Ə.Əsədov əlavə edib.

Dövlət və hökumət başçılarının diqqətinə çatdırılıb ki, Azərbaycan 30 ilə yaxın davam edən erməni işğalına son qoyaraq, öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa edib. İşğal zamanı azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə, bir milyondan artıq azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi, ərazilərimizdə urbisid, kultursid və ekosidin törədilməsi, Azərbaycan xalqının mədəni və dini irsinin məhv edilməsi barədə sammit iştirakçılarına məlumat verilib. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə hazırda genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı, kənd və şəhərlərin tamamilə yenidən qurulduğu bildirilib.

Qeyd edilib ki, yeni reallıqlar regionda davamlı sülh və sabitlik, həmçinin qarşılıqlı faydalı əməkdaşlıq üçün unikal imkanlar açır. Azərbaycan regional sülh gündəliyinə sadiqdir və bu istiqamətdə qəti addımlarını davam etdirəcək.

Dünyada islamofobiya, ekstremizm və radikalizmin artdığı dövrdə, üzv dövlətlərin əhalisinin ümumilikdə dünya müsəlmanlarının 60 faizini təşkil edən D-8 çərçivəsində islam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində səylərin birləşdirilməsinin vacibliyi vurğulanıb. Tarixən Şərq ilə Qərb arasında körpü rolunu oynamış və islam dünyasının mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olmuş Azərbaycanın multikulturalizm, tolerantlıq mühitinin formalaşmasına, mədəniyyətlərarası dialoqun qurulmasına, islam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr verdiyi diqqətə çatdırılıb.

Suriyada baş verən son hadisələrə toxunan baş nazir Əsəd rejiminin süqutundan sonra ölkədə sülhün və sabitliyin bərpa olunmasının və vətəndaş qarşıdurmasına son qoyulmasının mütləq dərəcədə vacib olduğunu qeyd edib. Azərbaycanın Suriyanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyi bildirilərək bütün məsələlərin Suriya xalqının iradəsinə uyğun şəkildə və ölkədaxili siyasi dialoq vasitəsilə həll olunacağına ümidvarlıq ifadə edilib. Vurğulanıb ki, Azərbaycan Suriya xalqının üzləşdiyi humanitar problemlərin aradan qaldırılmasında öz dəstəyini əsirgəməyəcək, bu məsələdə praktiki addımların atılması istiqamətində qardaş Türkiyə ilə yaxın təmaslar davam etdirilməkdədir.

Bildirilib ki, müsəlman ölkələri ilə dostluq və qardaşlıq əlaqələrinə malik Azərbaycan bundan sonra da islam həmrəyliyinin möhkəmlənməsinə öz dəyərli töhfəsini verəcək.

Zirvə görüşündə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Misirdəki səfirimiz Elxan Poluxov iştirak ediblər.

# Baş nazir Əli Əsədov Misirdə Ümummilli Lider Heydər Əliyevin xatirəsini yad edib





Misir Ərəb Respublikasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti dekabrın 19-da Qalyubiyyə vilayətinin əl-Qanatır əl-Xeyriyyə şəhərində yerləşən Misir-Azərbaycan Dostluq Parkında olub.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, Ə.Əsədov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin parkdakı abidəsi önünə əklil qoyub.

Baş nazir Əli Əsədov, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Azərbaycan Respublikasının Misir Ərəb Respublikasında fövqəladə və səlahiyyətli səfiri Elxan Poluxov Ulu Öndər Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.



# Baş nazir Əli Əsədov Qahirədə Yaxın Şərqdəki böhrana həsr olunmuş xüsusi sessiyada iştirak edib

**Dekabrın 19-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının 11-ci Zirvə görüşü çərçivəsində Yaxın Şərqdəki böhrana həsr olunmuş xüsusi sessiyada iştirak edib.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, sessiyada çıxış edən Ə.Əsədov Yaxın Şərqdə davam edən böhranın dərin narahatlıq doğurduğunu bildirib.

Qeyd edilib ki, Qəzza və digər Fələstin ərazilərində on minlərlə günahsız insanın həyatını itirməsi, mülki infrastrukturun dağıdılması ilə müşayiət olunan böhranın humanitar nəticələri kritik səviyyəyə çatıb. Bu baxımdan daha çox qan tökülməsinin qarşısının alınması üçün təcili tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

Bildirilib ki, islam dünyasının ayrılmaz parçası olan Azərbaycan bu ağır dövrdə Qəzzanın sakinləri ilə həmrəyliyini ifadə edir, zorakılığın artmasını, qeyri-bərabər gücdən istifadəni və mülki şəxslərin həyatlarını itirmələrini qətiyyətlə pisləyir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Fələstinə maddi yardım etmək üçün hər zaman səy göstərib. Ölkəmiz bu böhrandan təsirlənən Fələstin xalqına humanitar yardım göstərmək məqsədilə 2 milyon ABŞ dolları ayırıb. Bundan əlavə, Azərbaycan Fələstində 600 şagird yerlik məktəbin inşasına da vəsait ayırıb.

Qeyd edilib ki, humanitar yardımdan əlavə, Azərbaycan Fələstinə beynəlxalq dəstək əldə etmək üçün də öncül rol oynamaqdadır.

"Bu xüsusda, biz bir neçə yüksəksəviyyəli tədbirə evsahibliyi etmişik. Bunların arasında İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin yaradılması və Qüdsün inkişafını dəstəkləmək məqsədilə Donor Konfransını xüsusi qeyd etmək istərdim", - deyə Ə.Əsədov bildirib.

Gərginliyin bölgəyə yayılma risklərinin böyük narahatlıq doğurduğunu deyən Baş nazir Azərbaycanın bütün tərəfləri təmkinli davranmağa və vəziyyətin daha da gərginləşməsinə səbəb ola biləcək hər hansı bir hərəkətdən çəkinməyə çağırdığını qeyd edib.

O vurğulayıb: "Biz atəşkəsin əldə olunması, zəruri humanitar yardımın təmin edilməsi və münaqişənin səbəblərinin aradan qaldırılması üçün beynəlxalq ictimaiyyəti birgə çalışmağa çağırırıq. Böhrandan diplomatik çıxış yollarının tapılması üçün dinc siyasi proses təşviq edilməlidir".

Diqqətə çatdırılıb ki, Azərbaycan münaqişənin Şərqi Qüdsün Fələstinin paytaxtı olmaqla, iki dövlət prinsipi əsasında həllini birmənalı şəkildə və qətiyyətlə dəstəkləyir.

Azərbaycanın bundan sonra da dialoq və barışığı təşviq edən, İsrail-Fələstin münaqişəsinin ədalətli, davamlı həllinə dəstək verən səylərə sadiq qalacağı bildirilib.

Sessiyada Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və ölkəmizin Misirdəki səfiri Elxan Poluxov da iştirak ediblər

# Baş nazir Əli Əsədov Qahirədə D-8-in 11-ci Zirvə görüşü çərçivəsində bir sıra görüşlər keçirib









**Dekabrın 19-da Misir Ərəb Respublikasının paytaxtı Qahirə şəhərində D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının 11-ci Zirvə görüşündə iştirak edən Azərbaycanın Baş naziri Əli Əsədov tədbir çərçivəsində bir sıra görüşlər keçirib.**

AZƏRTAC xəbər verir ki, Baş nazir Əli Əsədov Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian, Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi, Pakistan İslam Respublikasının Baş naziri Şahbaz Şərif və Nigeriya Federativ Respublikasının xarici işlər naziri Yusuf Tuqqar ilə görüşüb.

# Azərbaycan D-8 təşkilatının üzvü seçilib

*Əvvəli 1-ci səh.*

Ədaləti və beynəlxalq hüququn norma və prinsiplərini özünün prioritet məqsədi kimi qarşıya qoyan ölkəmiz D-8-in təməl prinsiplərinin qorunmasında, təşkilat çərçivəsində əməkdaşlığın daha da dərinləşməsində mühüm rol oynayacaq.

Bu çərçivədə, həmçinin geniş regionumuzda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticari, nəqliyyat, kommunikasiya və bir sıra digər vacib istiqamətlərdə əlaqələrin inkişafı mühüm əhəmiyyət kəsb edir.

Tarix boyu Şərq ilə Qərb arasında körpü rolu oynamış, islam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanın D-8 üzvlüyü, eyni zamanda islam həmrəyliyinin möhkəmlənməsində, islam dəyərlərinin dünyada təbliğində və islamofobiya ilə mübarizə sahəsində böyük töhfə olacaq.

D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı səkkiz müsəlman ölkəni birləşdirir. Təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında atılıb. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. Təşkilatın katibliyi İstanbul şəhərində yerləşir.

# Milli Məclisin Sədri Sahibə Qafarova Ankarada Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Ankara şəhərindəki Heydər Əliyev Parkında Ulu Öndərin abidəsini ziyarət edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, spiker Sahibə Qafarova Ümummilli Lider Heydər Əliyevin parkda ucaldılan abidəsi önünə güllər düzərək xatirəsini ehtiramla yad edib.

Qeyd edək ki, Ankaradakı Heydər Əliyev Parkı 2004-cü ildə salınıb. 2012-ci ildə parkda əsaslı yenidənqurma işləri aparılıb və bu park Türkiyə paytaxtının ən gözəl istirahət məkanlarından birinə çevrilib.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Anıtqəbirdə Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını ziyarət edib

**Türkiyə Respublikasında rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Ankarada Anıtqəbirə gəlib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, spiker Sahibə Qafarova və nümayəndə heyətinin üzvləri burada Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarını ziyarət edərək, xatirəsini ehtiramla yad ediblər.

Sahibə Qafarova məzarın önünə əklil qoyub.

Sonra Milli Məclisin Sədri Xatirə kitabına ürək sözlərini yazıb.

*"Azərbaycan"*

# Münasibətlərin bütün sahələrdə inkişafı məmnunluq doğurur

**Xəbər verdiyimiz kimi, spiker Sahibə Qafarovanın başçılığı ilə Milli Məclisin nümayəndə heyəti Türkiyəyə rəsmi səfər edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, səfər çərçivəsində Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Türkiyə Böyük Millət Məclisinin Azərbaycanla dostluq qrupunun üzvləri ilə görüşüblər.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım Azərbaycan nümayəndə heyətini salamlayaraq, dost və qardaş ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə uğurlu inkişafının məmnunluq doğurduğunu bildirib. O, Milli Məclisin Sədri Sahibə Qafarovanın yenidən bu vəzifəyə seçildikdən sonra ilk rəsmi səfərini Türkiyəyə etdiyini xatırladaraq, bildirib ki, ölkələrimiz arasında mövcud olan bu gözəl ənənə parlament müstəvisində də davam etdirilir. Şamil Ayrım Milli Məclisin Sədrinin bu səfərinin də münasibətlərimizin daha da inkişafına töhfə verəcəyinə inamını ifadə edib.

Görüşdə Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov ölkələrimiz arasında münasibətlərin Prezident İlham Əliyevin ifadə etdiyi kimi, dünyada oxşarı olmadığını, əlaqələrimizin Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamına söykəndiyini bildirib. Qeyd edib ki, bu gün Azərbaycan və Türkiyə bütün sahələrdə uğurlu əməkdaşlıq əlaqələrinə malikdirlər və münasibətlərimiz günbəgün daha da möhkəmlənir.

Söhbət zamanı parlamentlərimizin də iki qardaş və dost ölkələrimiz arasında əlaqələrin dərinləşməsinə özünəməxsus töhfələr verdiyi, həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatlarında uğurlu əməkdaşlığın mövcud olduğu xüsusi vurğulanıb. Tərəflər dostluq qrupları arasında təmasların qanunverici orqanlarımızın daha sıx əməkdaşlığına töhfə verdiyini söyləyiblər, qarşılıqlı səfərlərin, mütəmadi təmasların əhəmiyyəti ilə bağlı fikirlər səsləndiriblər.

Görüşdə çıxış edən Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Eldar Quliyev, Musa Quliyev, Elşən Musayev, Ağalar Vəliyev, Heydər Əsədov, Elnarə Akimova, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri Orhan Erdem, Derya Ayaydın, Veysal Tipioğlu, Cüneyt Yüksel, Uğur Bayraktutan, Yusuf Beyazit, Vedat Bilgin, Cantürk Alagöz, Ahmet Erbaş qardaş və dost ölkələrimiz arasında münasibətlərin hazırkı yüksək səviyyəsindən, parlamentlərarası münasibətlərin daha da dərinləşməsindən danışıblar, qarşılıqlı maraq doğuran digər məsələlər haqqında fikirlərini ifadə ediblər.

*"Azərbaycan"*

# Milli Məclisdə hakimliyə namizədlərlə görüş keçirilib



Dekabrın 19-da Milli Məclisdə hakimliyə namizədlərlə görüş keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbir iştirakçılarını salamlayan Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatlarından söz açaraq hakim kadrların yüksək nəzəri bilik və peşə hazırlığı, onların fəaliyyətində qanunçuluğa, insan hüquqlarının qorunmasına, qərəzsizliyə və insani keyfiyyətlərə dönmədən əməl olunması ilə bağlı fikirlərini bölüşüb.

Azərbaycan Respublikasının Milli Məclisi ilə məhkəmə hakimiyyəti arasında səmərəli və sıx əməkdaşlığı qeyd edən komitə sədri beynəlxalq hüququn milli qanunvericiliyə implementasiyası istiqamətində parlamentin gördüyü işlərdən danışıb.

Sonra Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının üzvü Nizami Səfərov müasir beynəlxalq hüquqda mövcud olan beynəlxalq cinayətlərin təhlilini verərək onların nəzəri və tətbiqi aspektləri, beynəlxalq cinayətləri təqibetmə rejimləri barədə fikirlərini bildirib.

Görüşdə ədalət mühakiməsinin səmərəliliyinin artırılması məsələlərinə toxunulub.

Tədbir çərçivəsində hakimliyə namizədlər parlamentin inzibati binası ilə tanış olublar. Parlamentin plenar iclas zalı ilə tanışlıq zamanı onlara Milli Məclisin fəaliyyəti, deputatlar üçün yaradılmış iş şəraiti, parlamentin plenar iclasının keçirilməsi prosedurları haqqında məlumat verilib.

Sonra Heydər Əliyevin adını daşıyan xatirə zalını ziyarət edən qonaqlar burada Azərbaycan xalqının Ümummilli Liderin gələcək nəsillərə örnək olan həyat yolunu, siyasi, dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıblar.

Milli Məclisin foyesində spiker Sahibə Qafarovanın müvafiq sərəncamı ilə yaradılmış Zəfər guşəsi ilə tanışlıqda bildirilib ki, guşədə Vətən müharibəsində canlarından keçərək şəhidlik zirvəsinə ucalan əsgər və zabitlərimizin adları həkk olunub.

*"Azərbaycan"*

# "Diplomatiya Könüllüləri" ilə görüş

**Dekabrın 19-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və komitə üzvləri Xarici İşlər Nazirliyinin "Diplomatiya Könüllüləri" qrupu ilə görüşüblər.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə görüşü açan komitə sədri Səməd Seyidov Azərbaycanın əldə etdiyi uğurlardan və bu nailiyyətlərin qorunub inkişaf etdirilməsində diplomatların üzərinə düşən vəzifələrdən və gənclərin rolundan danışıb. O, ərazi bütövlüyümüzün təmin edilməsi ilə ölkəmizin yeni mərhələyə qədəm qoyduğunu vurğulayaraq deyib ki, bu, böyük nemətdir və bunu qorumaq, inkişaf etdirmək yeni nəslin üzərinə düşür.

Səməd Seyidov gəncləri daha fəal olmağa, ölkənin inkişafı üçün verilən imkanlardan maksimum yararlanmağa çağırıb.

Komitə sədri Prezident İlham Əliyevin ölkənin qarşısında dayanan məsələlərlə bağlı verdiyi mesajların əhəmiyyətini vurğulayaraq, gənclərin bu işdə fəal iştirakı üçün geniş imkanların yaradıldığını qeyd edib.



Görüşdə çıxış edən Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəis müavini Vasif Əliyev bildirib ki, "Diplomatiya Könüllüləri" proqramı 2019-cu ildən fəaliyyət göstərir və artıq beş ildir uğurla davam edir. Bu proqram çərçivəsində nazirlikdə 250-dən çox gənc təcrübə keçib. Proqramın seçim prosesi kifayət qədər rəqabətli şəraitdə keçir və hər il böyük maraq doğurur.

Görüşdə çıxış edən Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Nigar Arpadarai, deputatlar Sevinc Fətəliyeva, Asim Mollazadə, Rizvan Nəbiyev, Qaya Məmmədov, Zaur Şükürov və Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin sektor müdiri Sarvan Sadıqov gənc diplomatlarla bu cür görüşlərin, könüllülük hərəkatının əhəmiyyətindən danışıblar. Diqqətə çatdırılıb ki, Azərbaycan üçün son illər diplomatiya sahəsində parlaq bir dövr olub. Ölkəmiz COP29-a evsahibliyi etməklə yanaşı, beynəlxalq arenada öz mövqeyini gücləndirib. Eyni zamanda bildirilib ki, 44 günlük Vətən müharibəsində ölkəmiz ədaləti bərpa etdi və hazırda regionda mövqelərimiz daha da güclənib. Lakin mübarizə hələ də davam edir və Azərbaycanın ədalətli mövqeyinin dünyaya çatdırılması istiqamətində parlamentin, həmçinin diplomatların üzərinə böyük yük düşür.

Görüş sual-cavab formatında davam etdirilib.

*"Azərbaycan"*

# Avropa Parlamentinin 2024-cü il 19 dekabr tarixli qətnaməsinə Azərbaycan Respublikası Milli Məclisinin münasibəti

**Avropa Parlamentinin 2024-cü il 19 dekabr tarixli plenar iclası ölkəmizə qarşı növbəti qətnamənin qəbulu ilə yadda qaldı. Qətnamədə adəti üzrə saxta məlumatlara və rəqəmlərə istinad edilir, reallıqlar təhrif olunur, qanunların pozulmasına gətirib çıxarmış cinayət əməllərinin təhqiqatına siyasi don geyindirilməyə cəhd göstərilir.**



Azərbaycanda bütün əsas hüquq və azadlıqların tam şəkildə təmin edildiyi, o cümlədən qanunvericiliyin tələblərinə riayət edilməsinin zərurət olduğu bir gerçəklikdir. Belə olan halda, Avropa Parlamentinin ölkəmizin daxili işlərinə müdaxilə edən bu sənədi başqa məqsədləri ön plana çıxarır.

Bu qətnamənin Azərbaycana qarşı xeyli müddətdir davam edən iftira və böhtan kampaniyasının tərkib hissəsi olduğu şübhə doğurmur. Xüsusən süni şəkildə yaradılmış bütün əngəlləri dəf edərək, iqlim dəyişmələri ilə mübarizədə dünya ictimaiyyətinin səylərini birləşdirməyə nail olan ölkəmizin əldə etdiyi uğurlar fonunda bu kampaniyanın müxtəlif "elementlər"lə zənginləşdirilərək daha da genişləndiriləcəyi gözlənilən idi.

Bu mənada, azərbaycanofob, türkofob və islamofob qüvvələrin cəmləşdiyi Avropa Parlamenti də bu kampaniyaya mütləq öz "töhfəsini" verməli idi. Qəbul edilmiş qətnamənin nə dərəcədə qərəzli olduğunu anlamaq üçün təkcə belə bir faktı qeyd etmək lazımdır ki, ölkəmizin ərazisində insanlıq əleyhinə cinayət törətməkdə təqsirləndirilən keçmiş separatçı rejimin nümayəndələri və terrorçular bu sənəddə "erməni hərbi əsirlər" kimi təqdim olunur.

Müşahidələr onu göstərir ki, Fransa, Ermənistan və erməni lobbisinin sifarişlərinin dərhal icrası bu gün Avropa Parlamentinin siyasi simasının xarakterik cizgisidir. Nəticə etibarilə, bu cür qətnamələr ölkəmizə qarşı irəli sürülən gizli gündəliklərin, reallaşdırılmağa çalışan siyasi maraqların əsl mahiyyətini tam şəkildə ortaya qoyur.

Avropa Parlamentində aparılan müzakirələr və qəbul olunan sənədlər digər ölkələrin daxili işlərinə kobud müdaxilə alətinə çevrilibdir. Lakin bu qurum özünün qeyri-obyektiv mövqeyinin və saxta məlumatları rəsmiləşdirən qətnamələrinin artıq heç bir maraq doğurmadığını yaxşıca dərk etməlidir.

Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin qeyri-obyektiv və qərəzli qətnaməsini qəti şəkildə rədd edir. Hesab edirik ki, ciddi problemlərlə üzləşmiş Avropa qitəsinin bu gün öz qanunvericilərinin həmin problemlərin həllinə diqqət yönəltməsinə daha çox ehtiyacı var.

# Azərbaycana qarşı hibrid hücumları kimlər təşkil edir?

## Milli Məclisdə COP29-a qarşı kampaniya barədə hesabat hazırlanıb

**Məlum olduğu kimi 2023-cü il dekabrın 11-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP29) Azərbaycanda keçirilməsi qərarı verildiyi gündən ölkəmizə qarşı informasiya əməliyyatları kəskin hal aldı.**

Bununla bağlı Azərbaycan Respublikası Milli Məclisinin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyasının məlumatında bildirilir ki, kampaniyanın getdikcə əlaqələndirilmiş formada aparılaraq kütləviləşməsi səbəbindən Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın tapşırığı ilə Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyası öz səlahiyyətləri çərçivəsində araşdırmalara başladı.

Araşdırmaların nəticəsi olaraq, oktyabrın 21-də "COP29-a qarşı hibrid təhdidlər" mövzusunda Milli Məclisin deputatlarının, vətəndaş cəmiyyəti nümayəndələrinin, beyin mərkəzləri təmsilçilərinin, hibrid təhdidlər və kibertəhlükəsizlik üzrə ekspertlərin iştirakı ilə ictimai müzakirə keçirildi və məsələ ətrafında geniş fikir mübadiləsi aparıldı.



Qısa müddət sonra isə həmin müzakirənin yekunları və açıq mənbələrdən əldə edilən məlumatların təhlili əsasında 2024-cü ilin noyabrında Azərbaycan və ingilis dillərində "COP29-a qarşı hibrid hücumlar: Cəmiyyətimiz hibrid təhdidlərin qurbanı olmamalıdır!" adlı xüsusi hesabat hazırlandı.

Burada Azərbaycana qarşı istifadə olunan hibrid təhdidlərin dezinformasiya, habelə hüquq və müharibə terminlərinin kombinasiyasından yaranmış "Lawfare" növləri barədə söz açılır, onların haradan və kimlər vasitəsilə təşkil olunduğu sübuta yetirilir. Həmçinin bəzi ölkələrin bu hibrid hücumları təşkil edərkən beynəlxalq hüququn norma və prinsiplərindən yayınmaq məqsədilə istifadə etdikləri mexanizmlər göstərilir.

Hesabatda hibrid hücum alətləri kimi istifadə olunan parlamentlər və müəyyən dövlətlərin maliyyə və siyasi dəstəyi əsasında konkret sifarişlər yerinə yetirən bir sıra beynəlxalq insan hüquqları təşkilatları barədə də söz açılır.

Eyni zamanda onların maliyyələşmə mexanizmləri və idarəçiliyindəki şəxslərin tərəfsiz olmadıqları, müəyyən qrupları, habelə Ermənistanın və dünya erməniliyinin maraqlarını təmsil etdikləri müəyyən edilir. Bununla yanaşı bir sıra parlamentarilərin, iri media qurumlarının qeyd edilən "insan hüquqları" təşkilatları və erməni lobbisi ilə koordinasiya edilmiş fəaliyyətinə nəzər salınır, kampaniyaların aparılma forması ilə bağlı nümunələr göstərilir.

Hesabatda ölkəmizə qarşı ənənəvi düşmənçilik edən və anti-COP29 kampaniyasında fəal iştirak edən erməni lobbi təşkilatlarının, zəngin diaspor ermənilərinin və Ermənistan Respublikası rəsmilərinin fəaliyyətlərinə də geniş yer ayrılır.

Yekunda son aylarda COP29-a qarşı istifadə olunan sosial media kampaniyaları, həştəqlər təhlil edilir və ümumilikdə dünya mediasının tədbirə marağı ilə bağlı statistik rəqəmlər təqdim olunur.

Beynəlxalq ictimaiyyətin məlumatlandırılması baxımından, qeyd olunan xüsusi hesabatın dost və tərəfdaş ölkələrin parlamentlərinə göndərilməsi də nəzərdə tutulur.

*"Azərbaycan"*







# Heç zaman unutmayacağıq!

## Şanlı qələbəmizi əbədiləşdirən möhtəşəm abidə

44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbədən dörd il keçdi.

**Düz dörd ildir ki, qalib xalq, qalib dövlət kimi yaşayırıq!**

Dörd il bundan qabaq 44 gün ərzində otuz il erməni işğalında olan torpaqlarımızı azad etdik!

*Murdar ləpirliləri müqəddəs torpaqlarımızdan iti qovan kimi qovduq!*

*Şəhidlərimizin, itkinlərimizin qisasını döyüş meydanında aldıq!*

**Düşməni zəlil günə qoyduq, qarşımızda diz çökdürdük, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün şərtlərini özündə əks etdirən kapitulyasiya aktını imzalatdırdıq!**

İndi isə müharibədən sonrakı zəruri işlərlə məşğuluq:

* Ərazi bütövlüyümüzü, dövlət suverenliyimizi tam bərpa etmişik!

* Separatçıların, terrorçuların rəhbərlərini, terroru maliyyələşdirənləri Bakıya gətirərək onlara həbsxanada "çay qonaqlığı" veririk.

* Viran qoyulmuş əraziləri bərpa edərək, müasir tipli yaşayış məntəqələri yaradırıq.

* Otuz il Vətən həsrəti çəkən keçmiş məcburi köçkünləri doğma yurd-yuvalarına qaytararaq işlə, normal yaşayışla təmin edirik.

* Yeni su anbarları yaradır, suvarılan torpaqların ərazisini genişləndirir, elektrik stansiyaları tikərək "yaşıl enerji" istehsalını artırırıq.

* Dünyada mövqeyimizi daha da möhkəmləndirərək siyasi nüfuzumuzu, iqtisadi imkanlarımızı yüksəldirik.

* COP29 kimi nəhəng tədbirə uğurla evsahibliyi etdik.

❖ ❖ ❖

**Zəfərin dördüncü ildönümü günü Prezident İlham Əliyevin 3 dekabr 2020-ci ildə imzaladığı Sərəncam əsasında inşası başa çatan Zəfər parkının açılışı oldu.**

On hektar ərazini əhatə edən bu parkda Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər muzeyi də fəaliyyət göstərir.

*Hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı möhtəşəmliyi və qeyri-adiliyi ilə insanı heyran qoyur.*

*Müzəffər Ali Baş Komandanın açılışını etdiyi Zəfər tağını və Zəfər muzeyini muzeylər muzeyi də adlandırmaq olar.*

Otuz il ərzində yağı düşmən barbar simasını bütün çirkinliyi ilə göstərdi, Qarabağı, Şərqi Zəngəzuru xarabalıqlara çevirdi, daş üstə daş qoymadı.

Bu vəhşilikləri dünyaya, gələcək nəsillərə və sonrakı illərdə ölkəmizə gələnlərə göstərmək vacib məsələlərdən biridir.

Odur ki, dövlət başçısı İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş bütün rayonlarda Zəfər və İşğal muzeyləri yaradılır.

**Zəfər parkının açılışından sonrakı xalqa müraciətində Azərbaycan Prezidenti İlham Əliyev bu vacib məqama toxunaraq dedi:**

*"İndi Ermənistanın bəzi Qərb havadarları Ermənistandan "sülh göyərçini" düzəltmək istəyirlər. Sanki bu otuzillik işğal olmayıb, dağıntılar olmayıb, vəhşilik olmayıb, Xocalı soyqırımı olmayıb. Məscidlərimizin, qəbirlərimizin dağıdılması, bütün Qarabağın, Şərqi Zəngəzurun viran edilməsi sanki olmayıb. Yəni bunu unutdurmaq, dünya ictimaiyyətinə unutdurmaq istəyirlər. Amma biz heç vaxt bunu unutmayacağıq və Azərbaycan xalqı heç vaxt bunu unutmamalıdır, bizdən sonra gələn nəsillər bu tarixi bilməlidirlər və heç vaxt unutmamalıdırlar. Necə ki biz Qarabağı 30 il ərzində unutmamışdıq, necə ki 30 il ərzində xalqımız bir nöqtəyə vuraraq bu Qələbəni yaxınlaşdırırdı. Bundan sonra da bu tarixi yaddaş heç vaxt yadımızdan çıxmamalıdır".*

❖ ❖ ❖

Düşmən qırmızı imperiyanın parçalanması zamanı əldə etdiyi imkanlardan, müdafiəçilərinin hərtərəfli dəstəyindən və köməyindən istifadə edərək bizə qarşı xəyanət və nankorluq etdi.

**Bir vaxtlar onlara qucaq açan, çörək verən, ərazisində yaşamasına şərait yaradan Azərbaycandan yenə də torpaq qoparmaq xəyalına düşdü.**

*Bizim mərhəmətimizə dinc əhaliyə, girovlara göstərdiyi xüsusi qəddarlıqla cavab verdi, torpağın əsl sahiblərini zorla doğma yurd-yuvalarından qovub çıxardı!*

Bəli, bizə edilənləri yaddan çıxarmayacağıq və unutmağa da haqqımız yoxdur!

Biz, yaxşıları da, pisləri və pislikləri də unutmayacağıq!

**Həm xalqımızın dəyanətini, torpağa, Vətənə olan məhəbbətini, hər iki müharibədə göstərilən qəhrəmanlıqları və verilən qurbanları, həm də düşmənin qeyri-insani hərəkətlərini, murdarlıqlarını heç zaman unutmayacağıq!**

Unudulması mümkün olmayan hadisələr və faktlar çoxdur.

*Heç zaman unutmayacağıq...*

* Vətən müharibəsinin başladığı ilk gündən Azərbaycan ərənləri rayonların səfərbərlik xidmətləri qarşısında uzun növbələrə duraraq, torpaqların işğaldan azad olunmasında canları və qanları ilə iştirak etmək istədiklərini bildirərək döyüşən ordu sıralarına yazılmaq niyyətlərini bəyan edirdilər.

* Yaralı əsgər və zabitlər yenidən döyüş meydanına qayıtmaq üçün həkimlərdən onları tez sağaltmalarını tələb edirdilər.

* Övladları şəhid olan valideynlər nə qədər itki ağrısı keçirsələr də, "Təki Vətən sağ olsun!" söyləyirdilər!

* Azərbaycan vətəndaşları, dünya azərbaycanlıları daim ordu ilə nəfəs alır, itkilərə birgə kədərlənir, qələbələri birlikdə bayram edirdilər.

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin hər çıxışı, xalqa ünvanlanan hər müraciəti səbirsizliklə gözlənilir, diqqətlə dinlənilir, bütün dünyada əks-səda doğurur, insanlara yeni ümid, yeni inam, yeni qələbə sevinci və fərəhi bəxş edirdi.**

*Azərbaycan xalqı heç zaman İkinci Qarabağ müharibəsi dövründə və sonrakı müddətdə bu qədər mehriban, əlbir, dilbir və əməlbir olmamışdı, milli birliyimiz belə möhkəmlənməmişdi.*

❖ ❖ ❖

*Heç zaman unutmayacağıq...*

* Qardaş Türkiyə hərbi əməliyyatlar başlanan andan sonadək daim yanımızda oldu. Türkiyə rəhbərliyi, ordu generalları və siyasətçilər daim bəyanatlar və açıqlamalar verərək hər cür köməyə hazır olduqlarını söylədilər.

* Ermənidən betər ermənilik edənlər, hava məkanlarını Ermənistanın üzünə açaraq gecə-gündüz onlara silah-sursat daşınmasına şərait yaradanlar oldu.

* Ermənistan orduya qarşı deyil, döyüş meydanından yüzlərlə kilometr aralıda yerləşən Gəncə, Tərtər, Goranboy, Bərdə rayonlarını ballistik raketlərlə atəşə tutdu, qadağan olunmuş fosforlu və kassetli bombalardan dinc əhalimizə qarşı istifadə etdi, mülki insanlar arasında xeyli tələfata səbəb oldu.

* Tarixi, mədəni, dini abidələrimiz dağıdıldı, qəbiristanlıqlarımız yerlə yeksan edildi, məscidlərimizdə qaramal, donuz saxlanıldı.

* Mülki vətəndaşlarımız girov götürülərək onlara işgəncələr verildi, qeyri-insani rəftar olundu, vəhşiliklə öldürülərək gizli şəkildə kütləvi məzarlıqlarda basdırıldı.

* Ermənistan mina xəritələrini vermədi, təqdim etdiyi xəritələr saxta çıxdı, nəticədə müharibədən sonra yüzlərlə Azərbaycan vətəndaşı həlak oldu, ömürlük əlilə çevrildi.

* Makron Fransası müharibə və sonrakı dövrlərdə daim Azərbaycana qarşı düşmən mövqe tutdu, hayları silahlandırdı, dəfələrlə BMT-yə müraciət edərək əleyhimizə qərar və qətnamə çıxarılması, sanksiya tətbiq olunması üçün dəridən-qabıqdan çıxdı.

**Ermənistan revanşizm niyyətindədir, Azərbaycana qarşı ərazi iddialarından əl çəkmir, üçtərəfli Bəyanatın bütün tələblərini yerinə yetirmək istəmir, qisas almağa fürsət gəzir.**

Amma...

❖ ❖ ❖

Qırmızı imperiyadan qoparaq müstəqillik yoluna qədəm qoymaq Azərbaycan üçün ağrılı-acılı oldu!

* Çünki xalqı düzgün yolla aparanı yox idi!

* Çünki xalq həqiqi rəhbərindən ayrı düşmüşdü!

* Çünki həmin dövrdə ölkəyə manqurtlar, qorxaqlar, səriştəsizlər başçılıq edirdi!

* Çünki nə ordu vardı, nə də silah-sursat!

*Xain düşmən bu məqamdan istifadə etdi, torpaqlarımızı ələ keçirdi.*

*Sonra isə ikili standartlar oyunu başladı.*

**ATƏT-in Minsk qrupu sülh danışıqları ilə vaxt apardı, əməldə isə erməninin müdafiəçisinə çevrildi.**

**Həmsədr dövlətlər beynəlxalq hüquqa, ədalətə arxa çevirərək torpaqlarımızın əbədi işğalda qalması üçün əllərindən gələni etdilər: hayları silahlandırdılar, maliyyələşdirdilər, beynəlxalq qurumlarda müdafiə etdilər və sair.**

Bu gün də bəd əməllərindən qalmaq istəmirlər.

**İlham Əliyev xalqa müraciətində açıq şəkildə bildirdi:**

*"Onu da biz unutmamalıyıq ki, bu gün bu vəziyyətlə barışmaq istəməyən anti-Azərbaycan qüvvələr, bəzi Qərb paytaxtlarında oturan islamofoblar, azərbaycanofoblar Ermənistanı yeni müharibəyə təhrik edirlər. Bu, Ermənistan dövləti üçün tam faciə ola bilər və mən dəfələrlə həm rəsmi çıxışlarımda, həm təmaslar əsnasında Ermənistan tərəfinə izah etməyə çalışırdım ki, bundan uzaq dursunlar, o fitnəyə getməsinlər. Öz maraqlarını təmin etmək üçün, onların dostları sayılan bəzi Qərb dövlətləri onları qurban verməyə hazırdırlar ki, yenə də Cənubi Qafqazda ara qarışsın, yenə də qan tökülsün, yenə də onlar bulanıq suda balıq tuta bilsinlər. Hələ ki, gec deyil, ona görə Ermənistan bu silahlandırma siyasətindən əl çəkməlidir, buna son qoyulmalıdır".*

**Bizə edilənləri heç zaman unutmayacağıq!**

**Unuda da bilmərik!**

*Bizə edilənlər həm də:*

* Tarixin yaddaşında yaşayır!

* İnsanların, nəsillərin xatirində yaşayır!

* İtkin düşənlərin kütləvi məzarlıqlarında yaşayır!

* Hər il qeyd etdiyimiz soyqırımı günlərində yaşayır!

* BMT TŞ-nin icra olunmamış dörd qətnaməsində yaşayır!

* Hər il sevinc və şadlıqla keçirdiyimiz Zəfər günündə yaşayır!

* Şəhidlərin şərəfinə qoyulan abidələrdə yaşayır!

Biz olanları unutmuruq və heç zaman unutmayacağıq.

Sülhdən yayınmaq istəyən Ermənistan və onların məkrli havadarları da heç zaman unutmasınlar:

Qarabağ Azərbaycandır!



❖ ❖ ❖

**Dedik - eşitmədilər!**

**Etdik - gördülər!**

**Yenə deyirik - özlərini karlığa qoyurlar!**

**Yenə edəcəyik - nəticəsi karlar və korlar üçün daha ağır və acınacaqlı olacaqdır!**

Erməniyə silah verənlər hərbi əməliyyatlar başlayanda olanları kənardan seyr edirlər.

*Bəyanat, mətbuata açıqlamalar, telefon zəngləri kara gəlmir!*

Meydanda ordular qalır, 12 min fərarisi olan Ermənistanla 44 gündə möhtəşəm Zəfər qazanan Azərbaycan Ordusu!

**Nə Fransa, nə ABŞ, nə də Aİ-dən ordu gələrək erməninin işğal niyyətini gerçəkləşdirmək üçün canından keçir!**

Müharibə başlayanda heç biz tərəfə binoklla da baxan olmayacaqdır.

İlk PUA-mız havada görünən kimi hamısı dabanlarına tüpürərək gəldikləri yerədək qaçacaqlar!

**Əhalisi üç milyona çatmayan məğlub Ermənistan, əhalisi on milyonu keçən qalib Azərbaycana heç zaman üstün gələ bilməz!**

*Daha onların nə "keçilməz" "Ohanyan səddləri" var, nə də yeraltı beton bunkerləri.*

**Azərbaycanın isə Şuşanı yalın əllə almış xüsusi təyinatlıları, komando hərbi birləşmələri, döyüş meydanında qələbə təcrübəsi qazanmış əsgər və zabitləri vardır!**

Üçüncü müharibə Ermənistan üçün tam faciə olacaqdır!

*Yoxlamaq istəyirlərsə, buyursunlar.*

*"Dəmir yumruq" hazır vəziyyətdədir.*

Müzəffər Ali Baş Komandan İlham Əliyev isə dediyini edəndir:

*"Azərbaycan Silahlı Qüvvələri hər an təxribatı dəf etmək üçün hazır vəziyyətdədir. Əgər kimsə yenidən bizim gücümüzü sınamaq istəyirsə, yenidən məğlub olacaq, yenidən biabır olacaq. Çünki 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatı, bizim Zəfərimiz təkcə Ermənistanın məğlubiyyəti deyil, onların arxasında duranların acı və alçaldıcı məğlubiyyətidir".*

❖ ❖ ❖

Ötən ay dünya yenə Azərbaycana yığışmışdı.

Dünya Azərbaycanın qələbəsini də, inkişafını da, xalqın yaşayış səviyyəsini də indi daha aydın görür, bəyənir, qiymətləndirir.

Ermənistanın isə onu yeni müharibəyə təhrik edənlərdən başqa nə qapısını döyəni, nə də saya salanı var.

Çünki heç bir dövlətin marağını təmin edəcək sərvəti, infrastrukturu, təklif edəcəyi faydalı layihəsi yoxdur!

Heç utandığından, paxıllığından Azərbaycana gəlməyə üzü də olmadı!

Əgər olanlardan nəticə çıxararaq ağıllanmasa, "dəmir yumruq" növbəti dəfə də bu "xeyirxahlığ"ı öz üzərinə götürməli olacaqdır!

**Bəxtiyar SADIQOV**



# Prezident İlham Əliyevin "Rossiya Seqodnya"nın baş direktoruna müsahibəsində səsləndirdiyi fikirlər dünya mediasının diqqət mərkəzindədir

**Azərbaycan Prezidenti İlham Əliyevin dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyi üçün "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru, "Rossiya-1" televiziya kanalında "Vesti nedeli" proqramının müəllifi və aparıcısı Dmitri Kiselyova verdiyi müsahibədə səsləndirdiyi fikirlər dünya mətbuatı tərəfindən geniş işıqlandırılıb.**

Rusiyanın TASS agentliyi Prezident İlham Əliyevin rəsmi Bakının Qarabağın bərpasında Rusiya şirkətlərinin iştirakını və Rusiyadan investisiyaların yatırılmasını alqışlaması barədə dediklərini oxucularına çatdırıb. Qeyd olunub ki, Azərbaycan Prezidenti xarici investisiyalar üzrə birinci layihənin Rusiyaya məxsus olduğunu vurğulayıb.

"News.ru" nəşri Azərbaycan liderinin Avropa İttifaqının xarici məsələlər üzrə nümayəndəsi Borel barədə söylədiklərini önə çəkib. Bildirilib ki, Prezident İlham Əliyev COP-da çıxışlarının birində Boreldən sitat gətirərək, onun Avropanı çiçəklənən bağa, qalanlarını isə cəngəlliyə oxşatdığını deyib. Materialda, həmçinin dövlətimizin başçısının "Borelə gəldikdə, düşünürəm ki, o, bir neçə onillik əvvəl yaşasaydı, diktator Frankonun yaxşı xarici işlər naziri olardı. Onun, sadəcə, başqa zamanda yaşamaqla bəxti gətirməyib" fikirləri yer alıb.

"RBK" nəşri Prezident İlham Əliyevin Gürcüstanda son günlər baş verən hadisələrə münasibətindən yazıb. Qeyd edilib ki, Azərbaycanın dövlət başçısı Gürcüstanda baş verən iğtişaşlarda Fransa Prezidenti Emmanuel Makronun əli olduğunu, öz ölkəsində rahat durmadığı və Gürcüstana da əl atdığını vurğulayıb.

"Tatarstan-online" qəzeti isə dövlətimizin başçısının Qarabağın bərpasına ilk investisiya layihəsinin Tatarıstan tərəfindən həyata keçirilməsi barədə fikirlərinə diqqət çəkib. Qeyd olunub ki, Azərbaycan Prezidenti Cəbrayıl rayonunda "KamAZ" xidmət mərkəzinin açılışını xatırladıb. O vurğulayıb ki, bu, xarici investisiyalar üzrə birinci layihədir.

"İnterfaks" agentliyi Prezident İlham Əliyevin Ermənistandakı Avropa İttifaqı müşahidəçilərinin NATO missiyasına çevrilməsi barədə fikirlərini sitat gətirib. Bildirilir ki, Azərbaycan lideri "Avropa müşahidəçiləri" pərdəsi altında Ermənistan sərhədində NATO tərəfindən infrastruktur yaradıldığını diqqətə çatdırıb. Bundan əlavə, agentlik Azərbaycan Prezidentinin Ermənistanın Fransa, Hindistan və ABŞ tərəfindən silahlandırılması məsələsinə də münasibət bildirdiyini yazıb.

"Qazeta.ru" nəşri qeyd edir ki, Prezident İlham Əliyevin rusiyalı həmkarının komandasına sanksiya siyasətinin mənfi nəticələrini minimuma endirmək üçün gələcəkdə də bütün tədbirləri görməyi, öz gücünə, qətiyyətinə inam diləyib. Rusiya cəmiyyətinin hər hansı bir cəmiyyət kimi ağır dövrdə birləşdiyini xatırladan Azərbaycan lideri bu konsolidasiyanın gələcəkdə də davam etməsini arzulayıb.

Türkiyənin Anadolu Agentliyinin, "Cumhuriyet" qəzetinin, "BengüTürk" telekanalının xəbərlərində vurğulanır ki, Prezident İlham Əliyev müsahibəsində Türkiyə ilə Azərbaycan arasında təhlükəsizlik sahəsində müttəfiqlik münasibətlərindən bəhs edərək, hər il ölkələrimizin 10-dan çox birgə təlim keçirdiyini, bunun Qafqazda sabitlik üçün mühüm amil olduğunu bildirib.

"HaberGlobal" telekanalının saytında yayımlanan yazıda dövlətimizin başçısının Ermənistanla sülh danışıqlarında razılaşdırılmayan iki bəndin qaldığını, bunların "tərəflərin bir-birinə qarşı beynəlxalq iddialar irəli sürməməsi" və "sərhədlərdə başqa dövlətlərin nümayəndələrinin yerləşdirməməsi" olduğunu bəyan etdiyi diqqətə çatdırılıb.

"Star" qəzeti isə Prezident İlham Əliyevin jurnalistin Türkiyənin Azərbaycanda hərbi bazasına ehtiyacın olub-olmaması ilə bağlı sualına cavabını dərc edib: "Müttəfiqlik haqqında Bəyannamədə təhlükə və ya təcavüz zamanı qarşılıqlı hərbi yardımı nəzərdə tutan bənd var. Yəni bu, həm Azərbaycanın, həm də Türkiyənin bir öhdəliyidir ki, əgər bu və ya digər ölkə xarici təhlükə və xarici təcavüzlə üzləşsə, köməyə gəlməlidir".

"Başka" qəzeti və "CUMHA" xəbər agentliyi isə dövlətimizin başçısının Fransanın və digər ölkələrin Ermənistanı silahlandırması ilə bağlı fikirlərini oxuculara çatdırıb. Qəzet dövlətimizin başçısına istinadla yazıb: "Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır və Azərbaycan üçün təhlükə yaradır. ...Biz dəfələrlə Ermənistana və onun ABŞ Dövlət Departamentindəki himayədarlarına çatdırmışıq ki, buna son qoyulmalıdır. Amma təəssüf ki, bizim səsimiz eşidilmir, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir. Biz bacardığımız qədər orada baş verənləri izləyirik".

"Artı Gerçek" portalı isə bildirib ki, Azərbaycan Prezidenti ölkədə Türkiyənin hərbi bazasının yaradılması planı ilə bağlı yayılan xəbərləri "siyasi spekulyasiya" adlandırıb və belə bir bazanın yaradılmasına ehtiyacın olmadığını vurğulayıb.

"Gazete Kritik" nəşri isə dövlətimizin başçısının Rusiya ilə Qərb arasında davam edən qarşıdurmaya münasibət bildirdiyini yazıb. Prezident İlham Əliyevin bu fikirləri sitat gətirilib: "NATO-nun və Rusiyanın müharibəyə başlayacağı ssenarini təsəvvür etmək qlobal apokalipsisi təsəvvür etməyə bərabərdir. Aydındır ki, bu müharibədə qalib olmayacaq. Heç bir ölkə, hətta deyək ki, NATO regionundan və ya Rusiya ərazilərindən uzaqda yerləşən ölkə olsa belə, özünü təhlükəsizlikdə hiss etməyəcək".

Şimali Kipr Türk Respublikasının "Türk Ajansı Kipr" xəbər agentliyinin və "Kıbrıs Türk" qəzetinin informasiyalarında oxucuların diqqətinə çatdırılır ki, Prezident İlham Əliyev müsahibəsində Azərbaycanın Türkiyə ilə təhlükəsizlik sahəsində müttəfiqlik münasibətləridən də danışıb. Türkiyə ilə hərbi əlaqələrin müstəqilliyimizin ilk günlərindən davam etdiyini, rəsmi Ankaranın Azərbaycan Ordusunun modernləşdirilməsində və yüksək standartlara çatmasında böyük rol oynadığını vurğulayıb.

Rumıniyanın qabaqcıl media orqanlarında Prezident İlham Əliyevin müsahibəsindəki fikirləri geniş yayılıb.

"AGERPRES" milli xəbər agentliyi, "digi24.ro", "stirileprotv.ro", "adevarul.ro", "capital.ro", "financialintelligence.ro" portalları, "Prima Pagina", "Ziarul Amprenta" kimi qəzetlər və digər nəşrlər xəbərlərində Prezident İlham Əliyevin müsahibəsində Azərbaycandan Avropaya elektrik enerjisi nəql edəcək sualtı kabelin texniki-iqtisadi əsaslandırılmasının yaxın vaxtlarda tamamlanacağını bildirdiyini qeyd ediblər. "İlkin mərhələdə bu, 4 min meqavatdır, amma Avropa ölkələrinin enerjiyə tələbatını nəzərə alaraq, hətta onların özünün çoxlu investisiya qoymaları baxımından biz bilirik ki, onsuz da bunlara tələbat olacaq", - deyə media resursları dövlətimizin başçısına istinadla vurğulayıblar.

Əlcəzairin "al24news" nəşri Prezident İlham Əliyevin müsahibəsində Fransanın Mayot və Yeni Kaledoniyanın qanunsuz işğalını kəskin tənqid etdiyini bildirib. Portal dövlətimizin başçısının Yeni Kaledoniyada iğtişaşlar zamanı 13 insanın qətlə yetirilməsini, 100-dən çoxunun yaralanmasını, 1000-dən artığının isə həbs olunmasını kəskin şəkildə pislədiyini və bunlara görə Fransa hökumətini günahlandırdığını qeyd edib. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev bunun Makron diktaturasının nəticəsi olduğunu və Yeni Kaledoniyanı dəstəklədiyinə görə rəsmi Parisin Azərbaycanı ittiham etdiyini vurğulayıb.

"Euromedia24" portalı bildirir ki, Prezident İlham Əliyev "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində Rusiya ilə NATO arasında qorxulu müharibə ssenarisinin baş verməməsi üçün müdrikliyin kifayət etdiyini diqqətə çatdırıb. Portal dövlətimizin başçısının bununla bağlı bu fikirlərini sitat gətirib: "Mən düşünürəm, həm Vaşinqtonda, həm Moskvada, eləcə də digər paytaxtlarda siyasi müdriklik kifayət edəcək ki, belə qorxulu ssenari həyata keçməsin".

Bolqarıstanın "Zemya" xəbər portalında dərc olunan "Prezident İlham Əliyev ABŞ-dəki "Sorosçuları" Ermənistana silah göndərməməyə çağırdı" sərlövhəli yazıda, eyni zamanda, "Fokus" xəbər agentliyi müsahibə ilə bağlı materialında dövlətimizin başçısının ABŞ-dəki "Sorosçuları" Ermənistana silah göndərməməyə çağırdığını, bu addımın yeni müharibəyə səbəb ola biləcəyinə işarə etdiyini bildirib.

Qeyd olunub ki, Azərbaycan Prezidenti bununla bağlı bəyan edib: "...erməni sponsorlara, şərti olaraq Vaşinqtondakı sorosçulara bunu dayandırmaq lazım olduğunu çatdırırıq və çatdırmağa davam edəcəyik. Bu, belə davam edərsə, sonradan bizə qarşı heç bir irad tutulmasın".

Saytlar yazır ki, dövlət başçısı, həmçinin Azərbaycanın adekvat tədbirlər görməyə məcbur qaldığını, 2025-ci ildə hərbi büdcənin rekord məbləğ olacağını söyləyib.

Bu ölkənin "Faktı", "Classa" və "NetNews" Prezident İlham Əliyevin Azərbaycan-Türkiyə hərbi, strateji müttəfiqlik əlaqələrinə, habelə Rusiyanın azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinə investisiya yatırması ilə bağlı fikirlərini oxucularına çatdırıb.

Yunanıstanın "EL" portalı isə yazıb ki, Prezident İlham Əliyev müsahibəsində Türkiyənin Azərbaycanda hərbi baza qurmasına ehtiyacın olmadığını bildirib. Azərbaycanın dövlət başçısı bununla bağlı yayılan xəbərlərin "siyasi təxmin" olaraq qiymətləndirib. Vurğulayıb ki, Şuşa Bəyannaməsi iki ölkə arasında qarşılıqlı hərbi dəstəyi təmin edir

Portal həmçinin Azərbaycan Prezidentinin NATO ilə Rusiya arasında müharibə ehtimalı ilə bağlı fikirlərini də yayımlayıb. Dövlətimizin başçısına istinadla qeyd olunub ki, Rusiya ilə NATO arasındakı gərginlik bir çox ölkələrdə narahatlıq doğurur. NATO-nun və Rusiyanın qızğın müharibəyə başlayacağı ssenarini təsəvvür etmək qlobal apokalipsisi təsəvvür etməyə bərabərdir.

Gürcüstan mediası da Prezident İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova müsahibəsində yer alan fikirləri diqqət mərkəzində saxlayıb.

"Qafqazturk.com" dövlətimizin başçısının Azərbaycan-Gürcüstan münasibətlərinə dair bu fikirləri oxucularına çatdırıb: "Gürcüstan bizim üçün çox mühüm tərəfdaş və yaxın dostdur. …Ona görə də orada vəziyyətin sabitliyinin pozulması hər iki ölkə üçün eyni dərəcədə zərərlidir". Xəbərdə qeyd olunub ki, Azərbaycan Prezidenti, həmçinin Fransa Prezidenti Emmanuel Makronun Gürcüstana da əl uzatdığını vurğulayıb.

"İnterpressnews.ge" portalı Prezident İlham Əliyevin Fransa Prezidenti Makronun Gürcüstana da əl uzatmasına münasibət bildirdiyini qeyd edərək yazıb: "Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir. Amma gördüyünüz kimi, yenə də Makronun qulaqları görünür. Adam öz ölkəsində otura bilmir. Mütləq Gürcüstana da əl uzatmalıdır".

"Sputnik-georgia" isə dövlətimizin başçısının Türkiyə ilə əlaqələr, Azərbaycanda Türkiyənin hərbi bazası ilə bağlı suala cavabını oxucularının diqqətinə çatdırıb. Bildirilib ki, Azərbaycan Türkiyə ilə müstəqilliyini bərpa etdiyi ilk illərdən hərbi əməkdaşlıq edir və bu əməkdaşlıq davam edir.

"Biz Parisdə Məryəm Ana kilsəsindəki mərasimdə nəyin şahidi olduq? Papa Fransisk mərasimdən imtina etdi, o, əlbəttə, Makrona bu Olimpiya rüsvayçılığını bağışlamadı. Düzgün də etdi. O, Korsikaya yollandı. Necə deyərlər, sanki müəyyən bir yerindən tutaraq ağrıtmaq üçün". Dövlətimizin başçısının bu fikirləri isə "aktual.ge" portalında yayımlanan məqalədə dərc olunub.

"Aktual.ge" portalı, həmçinin "realnews.ge", "24news.ge" saytları Prezident İlham Əliyevin Azərbaycanın Gürcüstanla dostluq və tərəfdaşlıq münasibətlərinə, bu ölkədəki vəziyyətə dair fikirlərinə geniş yer ayırıb.

Qazaxıstanın "tengrinews" portalı yazır ki, Azərbaycan Prezidenti İlham Əliyev Fransa Prezidenti Makronun Gürcüstandakı nümayişlərə müdaxilə etdiyini açıqlayıb. Dövlət başçısı bununla bağlı qeyd edib: "Yaxşıdır ki, indi şərait artıq sabitləşməyə doğru gedir. Amma gördüyünüz kimi, yenə də Makronun qulaqları görünür. Adam öz ölkəsində otura bilmir. Mütləq Gürcüstana da əl uzatmalıdır". Sayt Prezidentin Gürcüstanda fəaliyyət göstərən və xaricdən maliyyələşən QHT-lərlə bağlı fikirlərinə də geniş yer ayırıb.

"Toppress" saytı isə Azərbaycan Prezidentinin USAID-in fəaliyyətinə dair fikirlərinə toxunub. Sayt dövlətimizin başçısının bu fikirlərini təqdim edib: "Onlar təkidlə kömək etmək istəyirlər. Amma biz, necə deyərlər, yetkin insanlarıq, hər şeyi başa düşürük. Ona görə də bütün bunları qaydaya saldıq. Məsələn, Azərbaycan mediası heç bir xarici mənbədən hətta bir faiz belə maliyyələşə bilməz. Bunu edə bilməz. Nə üçün? Axı biz ABŞ mediasını maliyyələşdirmirik. Düzdür? Nə üçün onlar bizimkiləri maliyyələşdirsin". "Ustinka" portalı isə qeyd edir ki, Prezident İlham Əliyev Azərbaycanın Rusiyadan Qarabağa investisiyaların qəbul edilməsinə hazır olduğunu vurğulayıb. Bildirib ki, ilk investisiya layihəsini Tatarıstan həyata keçirib. " Beləliklə, biz həm investisiyaları gözləyirik, həm də iş icraçılarına şad olardıq", - deyə dövlət başçısı əlavə edib.

Qeyd edək ki, müxtəlif ölkələrin informasiya resursları dövlətimizin başçısının müsahibədə müxtəlif mövzularla bağlı səsləndirdiyi fikirləri yaymaqda davam edir.

*AZƏRTAC*

# MSK bələdiyyə seçkilərində namizədlərin qeydiyyatı prosesinə dair seminar keçirib





**2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının (MSK) maarifləndirmə proqramı çərçivəsində müxtəlif statuslu seçki subyektləri üçün fərqli istiqamətlər üzrə layihələr davam etdirilir.**

AZƏRTAC xəbər verir ki, genişmiqyaslı proqrama əsasən dekabrın 19-da bələdiyyə seçkilərində namizədlərin qeydiyyatı prosesinə dair seminar təşkil olunub. Qeyd etmək lazımdır ki, namizədliyin qeydə alınması üçün təqdim olunan imza vərəqələrində və onlara əlavə edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə dairə seçki komissiyaları nəzdindəki işçi qruplarını əhatə edən bu layihə ənənəvi şəkildə gerçəkləşdirilməklə, onların fəaliyyətinin daha da təkmilləşdirilməsinə mühüm töhfələr verib və sonuncu belə tədbir qısa müddət əvvəl ölkəmizdə Milli Məclisə seçkilər zamanı reallaşdırılıb. Bütün sadalananlar nəzərə alınaraq, budəfəki seminar bələdiyyə seçkilərində namizədlərin irəli sürülməsi və qeydə alınması prosesinin dinamik və intensiv davam etdiyi bir mərhələdə müxtəlif aidiyyəti məsələlərin və təcrübədə ortaya çıxan halların tam praktiki müzakirəsinə həsr olunub.

Seminar Mərkəzi Seçki Komissiyası sədrinin müavini Rövzət Qasımovun açılış nitqi ilə başlayıb. O, çıxışında bir sıra məqamlarla yanaşı, komissiya tərəfindən ardıcıl, sistemli şəkildə həyata keçirilən maarifləndirmə layihələrindən danışıb, bu layihələrin seçkilərin yüksək səviyyədə hazırlanıb, azad, ədalətli və şəffaf keçirilməsindəki əhəmiyyətini xüsusi vurğulayıb. R.Qasımov, həmçinin bələdiyyə seçkilərində vətəndaşların birbaşa Konstitusiya ilə təsbit edilmiş passiv seçki hüquqlarının daha səmərəli təmin olunmasında dairə seçki komissiyaları nəzdində fəaliyyət göstərən işçi qruplarının üzərinə böyük məsuliyyət düşdüyünü xatırladıb, onların öz vəzifə və səlahiyyətlərini yerinə yetirərkən qanunvericiliyin tələblərinə dəqiqliklə əməl etmələrinin zəruriliyini diqqətə çatdırıb.

Tədbirin açılışından sonra gündəliyə uyğun olaraq, komissiya üzvlərinin bələdiyyə seçkilərində passiv seçki hüququnun mənsubiyyəti və onun realizə imkanları, namizədlərin qeydə alınması prosesinin qanunvericilik əsasları və qaydaları, eləcə də işçi qrupunun fəaliyyətinin praktiki aspektləri, əldə olunmuş təcrübə barədə təqdimatları dinlənilib. Əyani vəsaitlərdən də istifadə edilməklə keçirilən təqdimatlarda iştirakçılar mövzularla bağlı ətraflı məlumatlandırılıb.

Seminarın praktiki hissəsi bələdiyyə seçkilərində namizədliyin irəli sürülməsi və qeydə alınmasına dair müxtəlif məsələlər ətrafında geniş müzakirə, sual-cavab sessiyası ilə öz işini davam etdirib.

Media subyektlərinin nümayəndələri tərəfindən geniş işıqlandırılan seminarda namizədliyin qeydə alınması üçün təqdim edilən imza vərəqələrində və onlara əlavə edilmiş sənədlərdə olan məlumatların düzgünlüyünü yoxlamaq məqsədilə bələdiyyə seçkiləri keçirilən 118 seçki dairəsi üzrə dairə seçki komissiyalarının hər birinin nəzdində fəaliyyət göstərən işçi qrupunun rəhbəri iştirak edib.

# *Rövzət QASIMOV:* "Bələdiyyə seçkiləri ilə əlaqədar 350-yə yaxın şəxsin namizədliyi qeydə alınıb"



**Bələdiyyə seçkiləri ilə əlaqədar 6872 nəfərin namizədliyi irəli sürülüb. AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Mərkəzi Seçki Komissiyası (MSK) sədrinin müavini Rövzət Qasımov söyləyib.**

O bildirib ki, namizədliyi irəli sürülən təqribən 3800 nəfər imza vərəqəsi alıb və artıq onlardan 1053-ü imza vərəqələrini dairə seçki komissiyalarına geri qaytarıb. 350-yə yaxın nəfərin isə namizədliyi qeydə alınıb.

Rövzət Qasımov əlavə edib ki, bələdiyyə seçkiləri ilə bağlı müraciət edən iddiaçılardan təqribən 3500-ə yaxını 21-35 yaş aralığındadır. Onlar passiv seçki hüququna malik vətəndaşlarımızı əhatə edir. Bu da o deməkdir ki, gənclərin seçkiyə marağı kifayət qədər yüksəkdir.

# Azərbaycanın qətiyyətli iradəsi

## Prezident İlham Əliyev "Rossiya Seqodnya" İnformasiya Agentliyinə müsahibəsində qlobal əhəmiyyətli problemlərə toxundu

**Azərbaycanın beynəlxalq müstəvidə artan nüfuzu dünya birliyinin ölkəmizə marağını şərtləndirən başlıca amildir. Prezident İlham Əliyevin liderliyi ilə siyasi və iqtisadi sferalarda əldə edilən nailiyyətlər, ikitərəfli və dövlətlərarası platformalarla yanaşı, nüfuzlu xarici media orqanlarının da Azərbaycanın uğurlarını təqdir etməsinin əsas səbəbi rolunda çıxış edir. Bu gün rəsmi Bakı təkcə tarazlaşdırılmış uğurlu xarici siyasət, dünyada çoxlarını təəccübləndirən iqtisadi yüksəliş, 2020-ci ilin Vətən müharibəsindən sonra isə hərbi qüdrət ünvanı deyil, həm də qlobal geosiyasi proseslərin fəal iştirakçısı və həmin proseslərə təsir etmək iqtidarında olan tərəfdaş qismində qəbul edilir.**



Azərbaycan qlobal dünyamızın reallıqlarına ən adekvat şəkildə davranan dövlətlərdəndir. Eyni zamanda respublikamızın uzun illər ərzində beynəlxalq aləmdə qazandığı etibarlı tərəfdaş imici, başqa dövlətlərin Azərbaycana və şəxsən ölkəmizin rəhbərinə yüksək inamı xarici əlaqələrdə mövqelərimizi gücləndirir, yeni-yeni nailiyyətlərə yol açır. Rusiyanın nüfuzlu "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Azərbaycan Prezidenti ilə müsahibəsi də məhz bu marağın növbəti təzahürüdür.

Prezident İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin baş direktoru Dmitri Kiselyova verdiyi müsahibədə beynəlxalq siyasət və qlobal əhəmiyyətli problemlər, onların həlli yolları, dövlətlərarası münasibətlər öz əksini tapmışdır. Suallara ətraflı cavablar Rusiyada Azərbaycan liderinin bu kimi mövzulara dair görüşlərinə verilən önəmin göstəricisidir. Son bir neçə ildə ölkəmizin "orta güc" kimi klassifikasiya edilən təsir imkanlarına malik dövlətlərin sırasına qoşulması, Prezident İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq aktora çevrilməsini şərtləndirən danılmaz faktdır. Dövlətimizin başçısının Rusiya ilə Ukrayna arasında davam edən gərginlik, qonşu ölkələrdə baş verən siyasi proseslər, neokolonializm təzahürləri və qlobal iqlim problemləri kimi mövzulara münasibət bildirməsi Azərbaycanın beynəlxalq əhəmiyyətinin yerləşdiyimiz region və bir qədər geniş coğrafiya - postsovet məkanının çərçivələrini aşdığını nümayiş etdirir.

### Möhkəm təməl üzərində siyasi müttəfiqlik

Azərbaycanın Rusiya ilə münasibətləri bu dövlətin orta statistik vətəndaşını maraqlandıran prioritet məsələdir. Xüsusilə son 2 ildə məlum proseslər fonunda hər bir rusiyalı üçün onları əhatə edən coğrafi məkanda dostları və düşmənləri seçmək, ayırmaq nöqteyi-nəzərdən olduqca vacibdir. Prezident İlham Əliyevin həm siyasi, həm də iqtisadi müstəvidə Azərbaycan-Rusiya münasibətlərinin gündən-günə zənginləşməsinə dair fikirləri dövlətlərarası münasibətlər kontekstində dəyişməz olan sabitlik əlamətidir: "Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə 2022-ci il fevralın 22-də imzalanıb… Regionumuzda və bütövlükdə dünyada vəziyyət əhəmiyyətli dərəcədə dəyişib, lakin bu, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın xarakterinə və formasına təsir etməyib. Mən hesab edirəm ki, belə bir bəyannamənin imzalanması bizim 30 ildən artıq bir müddətdə birlikdə keçdiyimiz, fəal işlədiyimiz, həm iqtisadi-ticari, həm də siyasi sahələrdə əməkdaşlıq potensialını artırdığımız və müxtəlif çətin vəziyyətlərdə bir-birimizi sınadığımız həmin böyük yolun nümayiş etdirilməsidir. Buna görə də hesab edirəm ki, belə bir bəyannamənin imzalanması faktının özü həm Rusiya, həm də Azərbaycan tərəfindən ən mühüm siyasi addımdır". Dövlətimizin başçısı xüsusi vurğuladı ki, bu, qarşılıqlı fəaliyyətin və əməkdaşlığın ən yüksək formasıdır, xüsusən nəzərə alsaq ki, biz həm Qafqazda, həm də Xəzər regionunda qonşu dövlətlərik və bir çox cəhətdən ölkələrimizin xarici siyasət prioritetləri üst-üstə düşür, o zaman belə bir sənəd tarixi hadisədir.

Azərbaycanla Rusiya arasında möhkəm və davamlı siyasi münasibətlərin sabitliyinə təsir göstərən mühüm faktorların sırasında ildən-ilə daha da dərinləşən iqtisadi-ticari əlaqələr durur. Prezident İlham Əliyev hesab edir ki, bu əlaqələrin daha da dərinləşməsinə qarşılıqlı təmasın və ünsiyyət imkanlarının çoxalması öz müsbət təsirini göstərir: "Biz iqtisadi-ticari əməkdaşlıq üçün fəal şəkildə yeni sahələr tapmağa davam edirik, ticarət dövriyyəsi artır, bəlkə də bizim istədiyimiz sürətlə deyil, lakin bununla belə, dinamika mövcuddur. Rusiyalıların Azərbaycana səfərləri baxımından da biz COVID-dən əvvəlki səviyyəyə çıxırıq ki, bu da həm siyasi, həm də sırf insani mühitin maksimum müsbət olduğunu göstərir, çünki bu səfərlər və qarşılıqlı səfərlər insanların özlərini rahat hiss etdikləri istiqamətlərdə həyata keçirilir". Dövlətimizin başçısı əminliklə qeyd etdi ki, bu gün Rusiya və Azərbaycan iki etibarlı tərəfdaşdır, buna nə Azərbaycanda, nə də Rusiyada heç bir şübhə yoxdur.

### Azad edilmiş ərazilərdə iqtisadi əməkdaşlıq

Bakı ilə Moskva arasında iqtisadi sferada yüksələn əməkdaşlığın yeni trendi Rusiya kapitalının Ermənistanın işğalından azad edilmiş torpaqlarımızda həyata keçirilən layihələrdə də təmsil olunmasıdır. Tədqirəlayiq haldır ki, bu, həm mərkəzləşdirilmiş qaydada baş verən prosesdir, həm də Rusiyanın ayrı-ayrı subyektlərinin ciddi maraq göstərdikləri mövzudur. Bu baxımdan, Rusiyanın Tatarıstan bölgəsinin nümayiş etdirdiyi fəallıq xüsusilə nəzərəçarpandır. Xatırladaq ki, dövlət başçısının müsahibə verdiyi ərəfədə Tatarıstan Respublikasının rəisi Rüstəm Minnixanovun Azərbaycana növbəti səfəri reallaşıb. Prezident İlham Əliyev ilk investisiya layihəsinin Tatarıstan tərəfindən həyata keçirildiyini söylədi: "Bu, Cəbrayıl rayonunda Tatarıstanın rəhbəri və mənim tərəfimdən açılmış "KamAZ" xidmət mərkəzidir. Yeri gəlmişkən, bu gün mənim də Tatarıstan rəhbəri ilə görüşüm olacaq. Tatarıstan nümayəndə heyəti Bakıdadır. Yəni bu, ilk investisiya, daha dəqiq desək, xarici investisiyalar üzrə birinci layihənin, həmçinin Rusiyaya məxsus olmasıdır. Beləliklə, biz həm investisiyaları gözləyirik, həm də iş icraçılarına şad olardıq". Prezidentin sözlərinə görə, azad edilmiş ərazilərdə bərpa işlərində mal və xidmətlərin tədarükçüsü qismində iştirak edən bir neçə Rusiya şirkətinin olduğu vurğulanıb. Bu yerlərdə həmçinin rusiyalı iş icraçıları da mövcuddur, amma onların sayı çox deyil. Rusiya şirkətlərinin sayı daha çox ola bilər, çünki bərpa işlərinin miqyası kifayət qədər genişdir və bu, ilk növbədə indi infrastruktur layihələrini, yolları, dəmiryol tunellərini, körpüləri əhatə edir, yəni bu sahədə yaxşı təcrübəsi olan çoxlu sayda Rusiya şirkəti var.

Məsələn, bu yaxınlarda Həştərxan vilayətinin qubernatorunun tapşırığına əsasən, Qubadlıda uşaq bağçasının tikintisinə başlanılıb. Qubernator İqor Babuşkin Qubadlıda olub və tikinti prosesini ziyarət edib. Bu cür diqqət Azərbaycan ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir. Dövlətimizin başçısı müsahibəsində bunu Azərbaycanla Rusiya dostluq əlaqələrinin genişlənməsinin, o cümlədən ölkəmizlə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında uğurlu əməkdaşlığın yaxşı göstəricisi kimi qiymətləndirib.

### Azərbaycanın vasitəçilik potensialı

Azərbaycan Prezidenti və dövlətinin artan nüfuzu, qlobal proseslərə təsir və müdaxilə imkanları baxımından ölkəmizin dünyada baş verən hadisələrdəki yeri, onlara münasibəti Rusiya ictimai rəyi üçün ciddi maraq mövzusudur. Bu baxımdan, müsahibə ərzində verilən suallar arasında Azərbaycan liderinin Rusiya-Ukrayna müharibəsi fonunda Qərb-Moskva gərginliyinə dair mövqeyinin öyrənilməsi istəyi anlaşılandır. Prezident İlham Əliyevin reaksiyası hər zaman olduğu kimi həm tarazlaşdırılmış, həm düşünülmüş oldu, həm də ədalətə əsaslandı: "Mən yenə də ümidvar olduğumu bildirmək istəyirəm ki, işlər NATO ilə Rusiya arasında belə açıq-aşkar qarşıdurmaya gətirib çıxarmayacaq. Birincisi, ona görə ki, hamı bunun bütün dünya, bütün ölkələr və əlbəttə, regionla həmsərhəd olan ölkələr üçün fəlakətli nəticələrini dərk edir. İkincisi, mən yenə də ümid edirəm ki, Birləşmiş Ştatlarda administrasiya dəyişikliyi həm də xarici siyasət istiqamətlərində dəyişiklik olacaq. Cənab Trampın birinci prezidentlik dövründəki təcrübəsi, eləcə də onun və komandasının üzvlərinin seçkiqabağı kampaniyası zamanı və ondan sonra verdikləri bəyanatlar buna ümid etməyə imkan verir. Buna görə də NATO-nun və Rusiyanın qızğın müharibəyə başlayacağı ssenarini təsəvvür etmək qlobal apokalipsisi təsəvvür etməyə bərabərdir".

Daha sonra dövlətimizin başçısı bildirdi ki, bu müharibədə qalib olmayacaq. Heç bir ölkə, hətta deyək ki, NATO regionundan və ya Rusiya ərazilərindən uzaqda yerləşən ölkə olsa belə, özünü təhlükəsizlikdə hiss etməyəcək. "Mən düşünürəm, həm Vaşinqtonda, həm Moskvada, eləcə də digər paytaxtlarda siyasi müdriklik kifayət edəcək ki, belə qorxulu ssenari həyata keçməsin"- Azərbaycan Prezidenti müsahibəsində dedi.

Bu gün qlobal qeyri-sabitlik reallığında Azərbaycanın qarşıdurma tərəfləri arasında sülh və vasitəçilik adası qismində çıxış edə biləcəyinə dair çoxsaylı ehtimallar səslənir. Rəsmi Bakının həm Moskva, həm də Kiyevlə etimada əsaslanan xoş münasibətləri mövcuddur. Bu gerçəklik imkan verir ki, Azərbaycan bu ədavətin səngiməsi, münasibətlərin sivil məcraya dönməsi və insan ömürlərinin xilası prosesində tarixi rol oynasın. Təbii ki, əgər bizə belə bir müraciət edilərsə. Azərbaycan əvvəllər də bu kimi dialoq üçün münbit və əlverişli platforma qismində çıxış edib. Prezident İlham Əliyev müsahibəsində Azərbaycanın bu potensiala malik olmasını təsadüfən vurğulamadı: "Biz bütün öhdəliklərimizə maksimum dərəcədə məsuliyyətlə yanaşırıq və bundan sonra da belə edəcəyik. Düşünürəm ki, Azərbaycan da gərginliyin aradan qaldırılması işinə öz töhfəsini verə bilər... Xarici siyasətinin xüsusiyyətlərinə görə istər Qərbdə, istərsə də Şərqdə Azərbaycan müstəqil xarici siyasət yürüdən tamamilə müstəqil aktor kimi qəbul edilir. Həm də ona görə ki, bu, eyni zamanda həm Rusiyanın, həm də NATO üzvü Türkiyənin müttəfiqi olan yeganə ölkədir. Dünyada ikinci belə ölkə yoxdur. Buna görə də öhdəliklərimizin məntiqi zənciri üzrə irəli getsək, görərik ki, müttəfiqlik öhdəliklərimiz çoxşaxəlidir. Biz isə təbii ki, Yer üzündəki real vəziyyətdən çıxış edəcəyik və bir daha demək istəyirəm ki, bəlkə hansısa mərhələdə Azərbaycanın səyləri tələb olunacaq. Burada Rusiya Ordusunun Baş Qərargah rəisi və NATO Hərbi Komitəsinin rəisi səviyyəsində bir sıra görüşlər keçirilib, eləcə də Birləşmiş Ştatların və Rusiyanın hərbi rəhbərliyi də Bakıda görüşüblər". Azərbaycan Prezidenti müsahibəsində bildirdi ki, bu, təsadüfən seçilməyib. Həm Qərbdə, həm Rusiyada, həm də Şərqdə etibar edilən ölkələr çox deyil. Həm də hərbi-siyasi strukturlarda formal və ya qeyri-formal üzvlüklə məşğul olmayan ölkələr kifayət qədər deyil. Buna görə də əgər belə bir ehtiyac olarsa, gərginliyin aradan qaldırılmasına öz töhfəmizi verməyə hazırıq.

### Dövlətimizin başçısı müsahibəsində Ermənistandan qovulmuş azərbaycanlılardan da danışdı

Bu gün doğma torpaqlarından zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi Azərbaycan dövlətinin qarşısında duran mühüm strateji və mənəvi xarakterli hədəfdir. XX əsrdə mərhələlərlə həyata keçirilmiş məqsədyönlü deportasiyaya beynəlxalq qiymətin verilməsi xalqımızın tələbidir. Ermənilərdən fərqli olaraq, bizim əlimizdə gerçək tarixi sənədlər var. Onları himayə edənlərdən fərqli olaraq, biz yalan dolu kitablar deyil, tarixi ədalətə söykənən elmi əsərlər, araşdırmalar yazırıq. Qanlı erməni diasporundan fərqli olaraq, biz saxtalaşdırılmış mənbələr deyil, müasir reallığa əsaslanırıq: indiki Ermənistan ərazisində əsrlər boyu yaşayan soydaşlarımızın hansı zorakılığa məruz qaldıqlarına dair sənədləşdirilmiş faktlar, videogörüntülər var.

Erməni diasporunun, Azərbaycana münasibətdə qərəzli mövqedə olan bəzi dövlətlər və mərkəzlərdə fəaliyyət göstərən erməni lobbisinin təzyiqi ilə xalqımıza qarşı yürüdülən ikili standartlar siyasəti bu sahədə də davam etdirilir. Xalqımıza məxsusluğu tarixi dəlillərlə sübut edilən, ancaq işğal dövründə saxtalaşdırma əməllərinə məruz qalan, indi isə "erməni irsi" kimi təqdim edilən tarixi abidələrə "araşdırıcı" missiyaların təşkil edilməsi məzmunlu təşəbbüslər irəli sürülür. Halbuki Azərbaycan bu tələbi on illər ərzində etsə də, Qərbin "humanist" dəhlizlərində eşidilməmiş olaraq qalmışdır.

Azərbaycan dövləti soydaşlarımızın XX əsrdə mərhələlərlə hazırkı Ermənistan ərazisində olan vətənindən qovulmasına, məqsədli şəkildə deportasiyasına beynəlxalq hüquqi qiymətin verilməsinə nail olmaq əzmindədir. Dünya birliyi ilə yanaşı, Ermənistan da azərbaycanlıların bu hüququnu tanımalı və reallıqla barışaraq tarixi ədalətin bərqərar olmasına müqavimət göstərməməlidir.

Dövlətimizin başçısı müsahibəsində bildirdi ki, Azərbaycanda Ermənistandan gələnlərin icması var, onlar 1980-ci illərin sonunda - 1990-cı illərin əvvəlində deportasiya olunmuş təxminən 300 min azərbaycanlılardır. Bu icma qayıtmaq, reinteqrasiya üçün onlara belə bir şəraitin yaradılmasına dair Ermənistan rəhbərliyinə rəsmi müraciət edib. "Çünki onların 1990-cı illərin əvvəlində oradan deportasiyası o demək deyil ki, bu insanların qayıtmaq hüququ yoxdur. Ona görə də biz hələ bu günədək Ermənistan rəhbərliyindən azərbaycanlıların öz tarixi torpaqlarına reinteqrasiyası prosesini necə görmələri barədə cavab almamışıq".

Müsahibədə Azərbaycanın nəhəng iqlim sammitinə evsahibliyi barədə də geniş danışıldı, regional təhlükəsizliyə, Qərbin çirkin planlarına münasibət bildirildi, Ermənistanın məqsədli şəkildə silahlandırılması və digər ciddi məsələlərə aydınlıq gətirildi.

Xarici media strukturlarının Azərbaycan Prezidentinin dünyada baş verən proseslərə dair fikirlərinə marağı, dövlətimizin beynəlxalq aləmdəki artan təsir imkanlarının və yüksələn nüfuzunun bariz göstəricisidir. Şübhəsiz ki, Azərbaycanın güclü geosiyasi aktora çevrilməsi və qlobal proseslərdə fəal çıxış etməsi daha intensiv xarakter aldıqca, dünya ictimaiyyətinin ölkəmizə rəğbəti artmaqda davam edəcək. Bu reallıq ərazicə o qədər də böyük olmayan, müasir müstəqillik tarixi cəmi 33 ili əhatə edən dövlətin əldə etdiyi danılmaz uğurudur. Azərbaycanın iqtisadi imkanlarını artırması, hərbi qüdrətini yüksəltməsi və siyasi dəyişikliklərdəki çevikliyi onu deməyə əsas verir ki, qarşıdakı illərdə bu istiqamətdə miqyasca daha böyük uğurlar qazanacağıq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Ermənistan Qərbin yedəyində sürünür

## Müharibə cəhdi ona baha başa gələcək

**"Ermənistan rəsmi dairələrinin Azərbaycan-Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına dair fikirləri əksər hallarda üst-üstə düşmür. Baş nazirin fikirlərini bəzən parlament sədri və ya xarici işlər naziri başqa tərzdə şərh edir. Bu, əlbəttə ki, ölkənin rəhbər şəxsləri arasında vahid fikrin olmamasından, ən əsası isə, Ermənistanın müstəqil siyasət yürüdə bilməməsindən qaynaqlanır".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Deputat bildirib ki, Ermənistan müstəqil siyasət yürüdə bilmir, Qərbin yedəyində sürünür, ilk növbədə Fransanın tapşırıqlarını yerinə yetirir. Bu dövlətdə rəhbər vəzifə daşıyanların əksəriyyəti xarici ölkələrin agentləridir. Avropa, Rusiyayönümlü bu şəxslər Ermənistanın taleyi, sülh müqaviləsinin bağlanmasının əhəmiyyəti, xalqın gələcəyi barədə deyil, öz vəzifələri, ağalarına yarınmaq haqqında daha çox düşünürlər. Məhz buna görə də sülh müqaviləsinin bağlanmasına dair məsələlər ortaya qoyulanda, şərh edildə Ermənistan havadarlarının mövqeyindən çıxış edir. "Paşinyan sülh müqaviləsinin iki maddəsi istisna olmaqla, qalan maddələr üzrə razılığa gəlindiyi barədə bəyanatlar səsləndirir. Xarici işlər naziri isə bütün maddələr üzrə razılıq əldə edildiyini bildirir. Digər tərəfdən qeyd edilir ki, Ermənistan konstitusiyasında dəyişiklik edilməsinə ehtiyac yoxdur. Halbuki Azərbaycan Ermənistan konstitusiyasında dəyişiklik edilməsini - ölkəmizə qarşı ərazi iddialarının aradan qaldırılmasını əsas şərt kimi qarşıya qoyub və yarımçıq sülhə getməyəcəyini dəfələrlə bəyan edib. Ermənistanın rəsmi dairələri isə Azərbaycanın bu çağırışlarını tamamilə başqa istiqamətə yönəldir", - deyə T.Rzayev əlavə edib.



Komitə sədri qeyd edib ki, Ermənistan sülh sazişi imzalamağa hazır olduğunu elan etdiyi halda silahlanmanı genişləndirir, xarici ölkərdən külli sayda silah-sursat alır. Fransanın köməyi və təkidi ilə müharibəyə hazırlaşır. Əgər ortada sülh danışıqları varsa, qarşılıqlı münasibətlərdən, dövlətlərin ərazi bütövlüyünün tanınmasından söhbət gedirsə, silahlanmaya, sərhədə monitorinq qruplarını cəlb etməyə, sərhədçilərin hərəkətini izləməyə nə ehtiyac var? Əlbəttə, Ermənistan bu suallardan qaçır, yalançı sülh danışıqlarını ortaya atmaqla özünə vaxt qazanmaq istəyir. Ancaq bütün bunlar əbəsdir. Prezident İlham Əliyev ötən günlərdə "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoruna müsahibəsində də bildirdi ki Makron hökumətinin Ermənistana tədarük etdiyi silahlar hücum silahlarıdır, öldürücüdür və Azərbaycan üçün praktiki təhlükə yaradır. Ermənistanın silahlanma prosesi sıçrayışla gedir. Bu ölkənin rəsmi dairələri sülh ətrafında ikili oyun oynayırlar. Sürətlə silahlanır, xarici havadarlarına arxalanaraq müharibəyə hazırlaşırlar. Ancaq onlar səhv yoldadırlar, 44 günlük müharibədən, 23 saatlıq antiterror tədbirlərindən hələ də yaxşı nəticə çıxarmayıblar.

Tahir Rzayev bildirib ki, Ermənistanın müharibə cəhdi ona baha başa gələcək. Təcavüzkar dövlət bu barədə bir daha düşünməli, haqq yoluna gəlməlidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İlham Əliyev Ermənistana xəbərdarlıq etdi:

## "Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar"

**Azərbaycan-Ermənistan münasibətlərinin İkinci Qarabağ müharibəsindən sonra normallaşması, bir-birilərinin ərazi bütövlüyünü tanımaqla tərəflər arasında yekun sülh müqaviləsinin imzalanması Cənubi Qafqazda sabitlik və regional inkişaf üçün əsas şərtlərdən biridir. Elə bu səbəbdən Azərbaycan sərhədlərin delimitasiya və demarkasiyası, kommunikasiyaların açılması, yekun sülh müqaviləsinin imzalanması ilə qarşılıqlı əməkdaşlığa start verilməsi üçün Ermənistana müraciət edib və digər zəruri addımlar atıb.**

Belə bir şəraitdə Nikol Paşinyan iqtidarının siyasi iradə nümayiş etdirərək sülh müqaviləsinin imzalanması istiqamətində əməli addımlar atması, Azərbaycanın bu xüsusda təkliflərinə müsbət cavab verməsi Ermənistana daha çox gərəkdir. Amma Azərbaycandan fərqli olaraq Ermənistanın atdığı addımlar onun sülhdən yayındığını aydın göstərir. Yəni İrəvan ona verilən şansı belə dəyərləndirə bilmir. Xüsusilə Qərb Ermənistanı sürətlə silahlandırıb revanşist əhvali-ruhiyyəni qızışdırmaqla Bakı və İrəvan arasında münasibətlərin normallaşmasına mane olur.

Dekabrın 17-də Ümumrusiya Dövlət Televiziya və Radio Yayımı Şirkəti və Rusiyanın "RİA Novosti" Agentliyinə müsahibəsində Prezident İlham Əliyev qeyd edib ki, Ermənistanın silahlanması prosesi sıçrayışla gedir: "Biz bacardığımız qədər orada baş verənləri izləyirik. Ermənistan ərazisinin dərinliyini nəzərə alsaq, texniki baxımdan bu gün bunu etmək o qədər də çətin deyil. Əlbəttə ki, Fransa bu məsələdə liderlik edir. İkinci yerdə Hindistan, üçüncü yerdə isə ABŞ-dir. Fransa və Hindistan Ermənistanı öldürücü silahlarla təmin etdiklərini gizlətmirlər, - hətta bir növ, yəqin ki, bizim acığımıza nümayişkaranə cəsarət göstərirlər, - ABŞ isə bunu etiraf etmir. Halbuki, biz Ermənistanın hava limanlarına enən və oraya silah daşıyan hərbi nəqliyyat təyyarələrini izləmişik".

Ali Baş Komandan Ermənistana və onun havadarlarına bir daha xəbərdarlıq edərək vurğulayıb ki, məğlub ölkə və ona dəstək verənlər İkinci Qarabağ müharibəsindən keçən dörd il ərzində "dəmir yumruğ"un qətiyyətini, gücünü əyani şəkildə görüblər. Azərbaycan Ordusunun qəhrəman oğulları həm Vətən müharibəsi, həm də savaşdan sonrakı dövrdə dəfələrlə bu torpaqların əsl sahiblərinin kim olduqlarını göstəriblər. Ona görə də Azərbaycan heç kimə imkan verməz ki, ərazisində kimsə "at oynatsın": "Onlar İkinci Qarabağ müharibəsinin və 2023-cü ilin sentyabrında keçirilən antiterror əməliyyatının nəticələrini unutmamalıdırlar. Həmçinin başa düşməlidirlər ki, Makron rejiminin, eləcə də ABŞ Dövlət Departamentinin maksimum dəstəyinə baxmayaraq, burada, bu yerdə bizə qarşı növbəti təxribat planlaşdırsalar, onlara heç kim kömək etməyəcək. Axı Makron 2020-ci və ya 2023-cü ildə onlara necə kömək etdi, onları dəstəklədi, bəli, əlindən, yəqin ki, başqa hansı yerindən tutdu, bilmirəm. Bax, bu qədər. Biz onun nəyə qadir olduğunu çox yaxşı bilirik".

Sülh müqaviləsini imzalamayacağı təqdirdə qarşıdakı dövrdə Ermənistanı daha böyük problemlər gözləyir. Azərbaycan həm iqtisadi, həm hərbi, həm də demoqrafik cəhətdən Ermənistanı üstələməkdə davam edir. Görülən bütün tədbirlərə baxmayaraq, Ermənistanda əhalinin sayı sürətlə azalmaqda davam edir, xaricə köçənlər durmadan artır.

Bir sözlə, Ermənistandakı durum onu deməyə əsas verir ki, hazırda məğlub ölkə acınacaqlı durumdadır. İqtisadi cəhətdən tənəzzülə uğrayan Ermənistan müharibədə ordusunun da darmadağın olması ilə tamamilə çöküb. Buna baxmayaraq, Ermənistan hakimiyyəti Qərbdəki bəzi siyasi dairələrə sığınıb sərsəm fikirlər səsləndirir.

Bütün bunlara baxmayaraq, Prezident İlham Əliyev seçim üçün Ermənistanın siyasi rəhbərliyinə növbəti dəfə şans verir. İrəvanın təcrid vəziyyətdə qalaraq inkişaf etməsi mümkünsüzdür və ötən zaman bunu çox aydın göstərib. Bütün baş verənlərə baxmayaraq, Azərbaycan istənilən halda sülh müqaviləsinin imzalanmasına nail olacaq. Bu, kimsənin müqavimət göstərə bilməyəcəyi qarşısıalınmaz prosesdir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# 2025-ci ilin dövlət büdcəsi dayanıqlı maliyyə təminatı yaradacaq

**"Milli Məclisin 16 dekabr tarixdə keçirilən plenar iclasında 2025-ci ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələri üçüncü oxunuşda müzakirə edilərək qəbul olundu. Ölkəmizin 2025-ci il və sonrakı üç ili əhatə edən ortamüddətli dövr üzrə büdcə siyasətinin istiqamət və hədəfləri qarşıda duran bir sıra çağırışlar nəzərə alınmaqla tərtib edilib".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Zaur Şükürov deyib. Deputat bildirib ki, bir sıra dövlət qurumlarında struktur dəyişikliklərinin baş verməsi, dövlət və icmal büdcələrindən maliyyələşən subyektlərin fəaliyyəti ilə bağlı Prezident İlham Əliyev tərəfindən hökumətə müvafiq icra tapşırıqlarının verilməsi, həmçinin müzakirələr zamanı deputatların bir sıra təkliflər irəli sürməsi səbəbindən 2025-ci ilin dövlət büdcəsinin ilkin layihəsinə müəyyən dəyişikliklərin edilməsi zərurəti yaranmışdı. Əlavə gəlir potensialının səfərbər edilməsi məqsədilə bir sıra publik hüquqi şəxslərin xərclərinin dövlət büdcəsi hesabına deyil, öz gəlirləri hesabına təmin edilməsi nəticəsində təqribən 159 milyon manat vəsaitin bu təyinat üzrə sərbəstləşdirilməsi və bu vəsaitin tam həcmdə ölkəmizin müdafiə və milli təhlükəsizliyinin daha da gücləndirilməsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə yönəldilməsi nəzərdə tutulub. "Bununla müdafiə və milli təhlükəsizlik xərclərinin dövlət büdcəsindəki ümumi məbləği 8 milyard 555 milyon manata çatdırılıb. Eyni zamanda büdcə təşkilatlarında malların və xidmətlərin alınması üzrə xərclərin optimallaşdırılması yolu ilə əlavə 36 milyon manat vəsait sərbəstləşdirilərək, ölkə rəhbərinin tapşırığı ilə siyasi partiyalara maliyyə yardımının ayrılması üçün ilkin proqnozlaşdırılan vəsaitin 1,0 milyon manat artırılması, 2025-ci ildə Yaponiyanın Osaka şəhərində keçiriləcək Ümumdünya Sərgisi - Expo-2025-də ölkəmizin təmsil olunması xərcləri də daxil olmaqla dövlət büdcəsində beynəlxalq fəaliyyət üzrə xərclərin 24 milyon manat artırılması, ölkəmizin ixrac və investisiya potensialının təbliği ilə bağlı xərclərin maliyyələşdirilməsi üçün 10,0 milyon manat ayrılması planlaşdırılır", - deyə o əlavə edib.

Z.Şükürov qeyd edib ki, ilkin variantla müqayisədə dövlət büdcəsinin gəlir və xərcləri büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaların və ona müvafiq olaraq büdcədənkənar xərclərin artırılması hesabına 40 milyon manat çoxalıb. Nəticədə 2025-ci ildə büdcə gəlirlərinin 38 milyard 356 milyon manat, xərclərinin 41 milyard 407,6 milyon manat, büdcə kəsirinin isə 3 milyard 51,6 milyon manat olacağı gözlənilir. 2025-ci ildə büdcə xərclərinin təxminən 41 faizinin sosialyönümlü sahələrə yönəldilməsi nəzərdə tutulur ki, bu da hökumətin növbəti ildə də əhalinin sosial rifahını diqqətdə saxladığını deməyə əsas verir.

Deputat bildirib ki, növbəti il və ortamüddətli dövr üçün büdcə siyasətində Qarabağ və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası və Böyük qayıdışın təmin edilməsi əsas məqsədlərdən biri olaraq müəyyən edilib: "Hazırda işğaldan azad olunmuş ərazilərimizin bərpası Azərbaycan dövlətinin vəsaiti hesabına həyata keçirilməkdədir. Bu ərazilərə Böyük qayıdışın təmin edilməsi, şəhər və kəndlərin yenidən qurulması və bərpası, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədilə növbəti ilin dövlət büdcəsindən 4 milyard manat vəsait ayrılması planlaşdırılır. Prezident İlham Əliyev yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin 23 sentyabr tarixdə keçirilən ilk iclasında, 26 sentyabr tarixdə iqtisadi məsələlərə həsr olunmuş müşavirədə, həmçinin digər çıxışları zamanı səsləndirdiyi mükəmməl rəhbər prinsiplər ölkəmizin sosial-iqtisadi və xarici siyasətinin daha çevik şəkildə formalaşdırılması, iqtisadiyyatımızın bundan sonra daha da şaxələndirilməsi və dayanıqlı inkişaf modelinin təkmilləşdirilməsi xüsusunda vacib əhəmiyyət kəsb edir".

Zaur Şükürov vurğulayıb ki, bu baxımdan Prezident İlham Əliyevin müəyyənləşdirdiyi əsas prioritetlərin - hərbi potensialımızın gücləndirilməsi, milli təhlükəsizliyimizin təmin edilməsi, dövlət sərhədlərinin qorunması, hərbi sənaye kompleksinin inkişafı, sosial məsələlərin, Qarabağın və Şərqi Zəngəzurun bərpasının diqqətdə saxlanılması xüsusilə önəmlidir. Əminliklə demək olar ki, müdafiə qabiliyyətimizin gücləndirilməsinin, Qarabağ və Şərqi Zəngəzurun bərpasının, əhalinin sosial rifahının yüksəldilməsinin prioritet təşkil edəcəyi 2025-ci ilin dövlət büdcəsi ölkə rəhbəri tərəfindən qarşıya qoyulmuş vəzifələrin gerçəkləşdirilməsi üçün etibarlı və dayanıqlı maliyyə təminatı yaradacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Xarici siyasət milli mənafeyimizə xidmət edir

**Hazırda dünyada baş verən siyasi proseslər qlobal səviyyədə narahatlıq doğurur. Belə ki, Qərb və Şərq bloku arasında başlanan siyasi qarşıdurma özünün pik həddinə çatmaq üzrədir. İndiki gərginlik o səviyyəyə çatıb ki, bir çox dövlət başçıları, siyasətçilər, hərbi mütəxəssislər Üçüncü Dünya müharibəsinin başlandığını deyirlər.**

Yaranmış vəziyyət hər bir dövlətdən öz mövqeyini müəyyənləşdirməyi tələb edir. Xüsusilə Qərb blokunun özü kimi düşünməyənlərə qarşı müxtəlif vasitələrlə təsir göstərmək cəhdlərinin qəbul edilməsidir. 44 günlük Vətən müharibəsindən sonra Qərbin belə haqsız hücumlarına ən çox məruz qalan ölkələrdən biri də Azərbaycandır. Ölkəmizin atdığı bütün addımlar beynəlxalq hüquq və normalara uyğun olsa da, hər vəchlə Azərbaycanı günahkar çıxarmaq istəyirlər. Biz torpaqlarımız 30 il erməni işğalı altında qalanda Qərbin ikili standartlarının şahidi olmuşuq. Tarixi qələbəmizdən sonra belə bir münasibət daha qabarıq şəkildə özünü büruzə verdi.

Ölkəmizin apardığı xarici siyasətin ana xətti beynəlxalq hüquq və normalara riayət etməklə milli mənafeyini qorumaqdır. Prezident İlham Əliyev həmişə Qərb dövlətlərinin ikili standartlardan yanaşma siyasətini tənqid edərək onları ədalətli olmağa dəvət edib. Bunun əvəzində ölkəmizə qarşı müxtəlif məkrli planların qurulduğunun şahidi oluruq. Ancaq bizə qarşı olan bütün təhdidlərə rəğmən Azərbaycan tutduğu doğru yoldan çəkinmir və öz prinsipial mövqeyində qalmaqda davam edir.

Torpaqlarımız düşmən işğalından azad olunduqdan sonra ölkəmiz daha sərbəst xarici siyasət aparmaq imkanı qazanıb. Belə ki, bir çox qlobal məsələlərdə ölkəmiz subyektiv deyil, aktor kimi çıxış edir. Xüsusilə Orta dəhlizdə və "Şimal-Cənub" marşrutunda həlledici rol oynayır. İndi ticarətin ənənəvi marşrutlarında yaranan problemlərdən sonra dünya ölkəmizə ümid yeri kimi baxır. Ölkəmizə qarşı ədalətsiz qərar və qətnamələr qəbul edən Avropa strukturları və dövlətləri ölkəmizin bu sahədəki aparıcı rolunu inkar edə bilmirlər.

Prezident İlham Əliyevin apardığı xarici siyasətin iki mühüm istiqaməti var. Birincisi, yaxşı əlaqələrimiz olan dövlətlərlə münasibətləri üst səviyyəyə çıxarmaqdır. İkincisi, yeni tərəfdaşlar tapıb onlarla milli mənafeyimizə uyğun əməkdaşlıq qurmaqdır. Son dövrlər ölkəmizin bu sahədə apardığı siyasətə və dünyanın müxtəlif regionlarımızdakı dövlətlərlə bağlanan müqavilələrə diqqət yetirdikdə görürük ki, doğru yoldayıq.

İndiki halda Cənubi Qafqaz dünyanın ən önəmli regionuna çevrilib. Belə ki, bir-biri ilə rəqabət aparan Qərb və Şərq blokları üçün yerləşdiyimiz coğrafiya mühüm əhəmiyyət kəsb edir. Ona görə ki, indi dünya ticarətinin iki əsas marşrutu Cənubi Qafqazdan keçir. Regionumuzda söz sahibi olan əsas ölkə isə Azərbaycandır. Qərb bölgəmizdə yerləşib söz sahibi olmaq üçün Ermənistanı tərəfdaş seçib. İndi onlara məlum olub ki, bu, yanlış siyasətdir, ancaq "kor tutduğunu buraxmaz" prinsipindən də əl çəkə bilmirlər. Şərq blokunun əsas ölkələri olan Rusiya və Çin bölgədə kimin söz sahibi olduğunu düzgün müəyyən edərək Azərbaycanı Cənubi Qafqazda özünə tərəfdaş seçib. Artıq Qərb regionumuzda uduzduğunun fərqindədir. Buna görə də hərdən ölkəmizə qarşı müsbət bəyanatlar səsləndirməklə münasibətləri yumşaltmağa çalışır.

Prezident İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinin Baş direktoru Dmitri Kiselyova verdiyi müsahibəsində ölkəmizin xarici siyasətindən bəhs edib, qlobal səviyyədə baş verən hadisələrə münasibətini bildirib. Dövlətimizin başçısı həmişə olduğu kimi, bu müsahibəsində də ölkəmizin milli maraqlarını önə çəkib. Xüsusilə Ermənistanla Azərbaycan arasında baş verən siyasi prosesləri şərh edib, sülh müqaviləsinin indiyədək imzalanmamasının səbəblərini açıqlayıb. Bu, vacib bir məsələdir. Ermənilər tez-tez sülh müqaviləsini imzalamağa hazır olduğunu bəyan edərək dünya ictimaiyyətini çaşdırmaq istəyirlər. Məqsədləri Azərbaycanı sülhə mane olan tərəf kimi göstərməkdir.

Prezident İlham Əliyev Ermənistanla sülh müqaviləsinin imzalanması üçün ölkəmizin prinsipinin mütləq yerinə yetirilməsinin əsas şərt olduğunu bildirərək demişdir: "Erməni tərəfinin həyata keçirməli olduğu daha iki məqam var. Birincisi, öz konstitusiyasını dəyişməkdir. Çünki konstitusiyada Azərbaycana ərazi iddialarının yer aldığı müstəqillik bəyannaməsinə istinad var, burada keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistanın bir hissəsi elan olunur. Ona görə də konstitusiyanın dəyişdirilməsi bizim istəyimiz deyil, sadəcə, obyektiv şərtdir. Bizim ikinci şərtimiz ATƏT-in Minsk qrupunun ləğvidir. Bu məsələ konsensusla həll edildiyinə görə, formal olaraq bunu Ermənistanın razılığı olmadan etmək mümkün deyil. Hərçənd ATƏT-in Minsk qrupu artıq çoxdandır fəaliyyətsizdir, amma formal olaraq mövcuddur və bizim məsələmiz ondan ibarətdir ki, əgər Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi olaraq tanıyıbsa, Minsk qrupu isə Qarabağ məsələsinin həlli üçün yaradılıbsa, onda o nəyə lazımdır? Yəni Ermənistanın onun ləğv edilməsini, ATƏT-in Minsk qrupunun ləğv edilməsi üçün bizimlə birlikdə ATƏT-ə müraciət etməyi istəməməsi onu göstərir ki, revanşistlərin planları kifayət qədər ciddidir".

Dövlət başçısı verdiyi müsahibədə Rusiya-Azərbaycan münasibətlərinin yaxşı olduğunu bildirib. Vurğulayıb ki, iki ölkə arasında münasibətlər müttəfiqlik xarakteri daşıyır. Dövlət başçısı bildirib ki, Rusiya ilə Azərbaycan iki etibarlı tərəfdaş kimi siyasi-iqtisadi əlaqələrini davam etdirirlər. Sözsüz ki, Prezident İlham Əliyevin şimal qonşumuzla yaratdığı isti münasibətlər ölkəmizin milli maraqlarına cavab verir.

Prezident İlham Əliyev Qərbin ikili standartlarını tənqid edərək demişdir ki, bizim yerimiz türk dünyasındadır. Buna görə də Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının qlobal güc səviyyəsinə çatması üçün ən çox səy göstərən dövlət başçısıdır. Mədəni birlik yaratmaqdan başlanan bu siyasət indi Türk Dövlətləri Təşkilatının siyasi və iqtisadi birliyinə çevrilib. Belə olanda bizim Qərbin yalançı və şirnikləndirici təkliflərinə ehtiyacımız yoxdur.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Hərbi cinayətkarlar cəzalarını alacaqlar

**Tarixi ədalət bərpa olundu. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti təxribatları nəticəsində başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində qəhrəman Azərbaycan Ordusu işğalçı ölkənin silahlı qüvvələrini məğlub etdi. Otuz ilə yaxın Ermənistanın işğalı altında qalmış Qarabağ və Şərqi Zəngəzur azad edildi.**











2023-cü ilin sentyabrında həyata keçirilən lokal xarakterli antiterror əməliyyatı nəticəsində isə Azərbaycanın suverenliyi tam təmin olundu, üçrəngli, ay-ulduzlu bayrağımız ölkəmizin bütün ərazilərində dalğalandırıldı.

Həmin il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldan Prezident İlham Əliyev xalqımıza müraciətində bildirdi ki, antiterror əməliyyatı qaçılmaz idi: "Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın".

Dövlətimizin başçısı İlham Əliyevin "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunda bəyan etdiyi kimi: "Əgər bizim bütün fəaliyyətimizin xronologiyasını izləsəniz, hətta İkinci Qarabağ müharibəsinin başlanmasına qədər getsəniz, siz bizim haqlı olduğumuzun məntiqini və güclü arqumentini görəcəksiniz... Biz hər şeyi düzgün etmişik".

Antiterror tədbirləri nəticəsində Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağdakı qondarma rejimin başçıları olmuş Arkadi Qukasyan, Bako Saakyan, Arayik Harutyunyan, habelə "sabiq xarici işlər naziri" David Babayan, "parlament sədri" David İşxanyan, "generallar" Lyova Mnatsakanyan, David Manukyan və "keçmiş dövlət naziri" Ruben Vardanyan qandallanaraq Bakıya gətirildilər. Onların ayrı-ayrılıqda törətdikləri cinayət əməllərinə görə istintaq prosesi başladı. Xalqımıza qarşı ağır cinayətlər törədən bu hərbi cinayətkarlar məhkəmə qarşısına çıxdılar.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan Respublikasının ərazilərində yaradılmış qondarma Dağlıq Qarabağ Respublikası və onun qanunsuz silahlı birləşmələri tərəfindən Azərbaycan Respublikasına qarşı törədilmiş qanunsuz əməllərə dair cinayət işi artıq məhkəməyə göndərilib. Belə ki, Cinayət işi üzrə ittiham aktı Azərbaycan Respublikasının baş prokuroru tərəfindən 2024-cü il dekabrın 16-da təsdiq edilərək baxılması üçün aidiyyəti üzrə Bakı Hərbi Məhkəməsinə göndərilib.

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan Respublikası və xalqına qarşı törədilən təcavüz aktı, işğal, soyqırımı, sülh və insanlıq əleyhinə digər cinayətlər, müharibə cinayətləri, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi və digər çoxsaylı cinayətlərin törədilməsi faktları ilə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğunun İstintaq idarəsində cinayət işinin istintaqı aparılıb. Bu il mayın 2-də baş prokurorun qərarı ilə 1987-ci ilin oktyabr ayından 2024-cü il aprelin 22-dək törədilmiş cinayətlərin bir qismi ilə bağlı Baş Prokurorluq və respublikanın ayrı-ayrı istintaq qurumlarında 1389 nəfərin cinayət işi bir icraatda birləşdirilib və Azərbaycan Respublikasının Baş Prokurorluğunun rəhbərlik etdiyi, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi və Hərbi Prokurorluğun müstəntiqlərindən ibarət tərkibdə istintaq olunub.

Toplanılmış mötəbər sübutlar əsasında ümumilikdə 2548 epizod üzrə Ermənistan respublikası silahlı qüvvələri və qanunsuz silahlı birləşmələr tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər - Qukasyan (Ğukasyan) Arkadi Arşaviri (Arşaviroviç), Harutyunyan Arayik Vladimiri (Vladimiroviç), Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Babayan Davit Klimi (Klimoviç), Mnatsakanyan Lyova Henrixi, Manukyan Davit Azati, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurqen Homerosi, Balayan Levon Romiki, Babayan Madat Arakeli (Arakeloviç), Beqlaryan Vasili İvani və Qazaryan Erik Robertiyə cinayətkar birlikdə iştirak etdiyi dövrlərə uyğun olaraq Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücumetmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə yenidən təqsirləndirilən şəxs qismində cəlb olunub, hər birinin müdafiə, bildiyi dilindən istifadə etmək və digər prosessual hüquqları təmin edilib. Təqsirləndirilən şəxslər vəkillə təmin olunub. Habelə, istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmə qərarları ilə barələrində həbs qətimkan tədbiri seçilib.

İbtidai istintaqın gedişində, həm də ibtidai istintaq tamamlandıqdan sonra təqsirləndirilən şəxslər tərəfindən verilmiş vəsatət və şikayətlərə cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılaraq müvafiq qərarlar qəbul edilib, iş üzrə təqsirləndirilən şəxslərə və cinayət prosesinin digər iştirakçılarına ibtidai istintaqın qurtarması barədə məlumat verilib, onlar cinayət işinin bütün materialları ilə tanış edilib. Eyni zamanda çoxsaylı cinayətlər törətməkdə ittiham olunan digər şəxslər barəsində cinayət işi ayrıca icraata ayrılaraq ibtidai istintaq davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu həmin istintaq işi ilə əlaqədar qeyd olunan epizodlar üzrə şübhəli bilinən, eləcə də şahid qismində bir çox şəxslərin Ermənistan Respublikasının ərazisində olmasına ciddi əsasları rəhbər tutaraq, Ermənistan Respublikasının aidiyyəti orqanlarını əməkdaşlığa dəvət edir.

İndi qanun qarşısında cavab verən erməni hərbi cinayətkarlar 1989-cu ildən 2023-cü il sentyabrın 20-dək Azərbaycana qarşı ağır cinayətlər törədiblər. Onların müharibə cinayəti törətməsinə dair faktlar və sübutlar kifayət qədərdir. Prezident İlham Əliyevin "İtkin düşmüş şəxslər probleminin həlli: ailələrin həqiqəti bilmək hüququnun müdafiəsi" mövzusunda beynəlxalq konfransın iştirakçılarına ünvanladığı məktubunda bildirildiyi kimi: "Açıq mənbələrdə və internet resurslarında Birinci Qarabağ müharibəsində Ermənistan tərəfindən azərbaycanlılara qarşı törədilmiş insanlığa sığmayan əməlləri sübut edən kifayət qədər foto və videolar mövcuddur. Müharibə cinayətləri və bəşəriyyətə qarşı cinayətlər törətmiş bəzi şəxslər bu gün Azərbaycanın ədalət mühakiməsi qarşısında cavab versə də, Ermənistanda buna görə hələ bir nəfər belə məsuliyyətə cəlb olunmamış, əksinə, onlar qəhrəmanlaşdırılmışdır".

Ancaq sonunda hökmən haqq yerini tutur, ədalət zəfər çalır. Otuzillik işğal dövründə Ermənistanın işğalına göz yummaqla buna haqq qazandıran, bu gün də məkrli əqidəsini dəyişməyən, hərbi cinayətkarları müdafiə etməklə onların törətdiyi əməllərin məsuliyyətini bölüşən dairələr də bunu unutmamalıdırlar. Bakıda müttəhim kürsüsündə oturan erməni hərbi cinayətkarlar ədalət mühakiməsi qarşısında cavab verəcək və layiqli cəzalarını alacaqlar. Hələ bu, son deyil. Xalqımıza qarşı ağır hərbi cinayətlər törədən digər canilər də ədalət mühakiməsi qarşısında cavab verəcəklər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Mən yəhudiyəm, mən qarabağlıyam, mən azərbaycanlıyam



## *Milix YEVDAYEV:* "Bizi Azərbaycandan ayırmaq mümkün deyil, biz nəinki dostuq, qardaşıq, biz Azərbaycanın ayrılmaz hissəsiyik"

### ◆ Tolerantlıq ünvanı

**"Azadlığından sonra ilk dəfə Qarabağa gedəndə yerlə yeksan olan bir məkan gördüm. Talanmış və yalnız quruca divarları qalmış evlər, dağıdılmış məzarlıqlar, dini ocaqlar, məhv edilmiş təbiət, düşmənin vandallığı insanı dəhşətə gətirirdi. Ancaq indi o diyarlardakı möhtəşəm quruculuq işlərinə baxanda düşünürsən ki, Azərbaycanda yaşayan türk, yəhudi, ləzgi, udi, avar, talış... fərqi yoxdur, bütün xalqlar sözün əsl mənasında öz qızıl əsrlərini yaşayırlar. İndi xalqımız üzüağ, gözü gülər, başıdik və qürurludur. Azərbaycanda yaşayan bütün xalqların nümayəndələri, o cümlədən də yəhudiəsilli azərbaycanlı olaraq mən Qarabağ zəfəri ilə fəxr edirəm"...**





### Quba və Qırmızı qəsəbə...

O, Qubada Qudyalçayın sol sahilində salınmış və dünyada dağ yəhudilərinin kompakt yaşadığı yeganə yer olan Qırmızı qəsəbədə yəhudiəsilli ailədə dünyaya göz açıb. Elə ömrünün ən şirin anlarla, ən xoş xatirələrlə bol dövrü də məhz "Qafqaz Yerusəlimi" adlandırılan bu qəsəbə ilə bağlıdır. Qırmızı qəsəbədə böyüyüb boya-başa çatıb, məktəbə yollanıb. İndi də böyük hörmətlə andığı savadlı, tələbkar və zəhmətkeş müəllimlərindən hərfləri, rəqəmləri, yazmağı, oxumağı öyrənib. Azərbaycan klassik şairlərinin - Xaqaninin, Nizaminin, Füzulinin... vurğunu olub, poeziyaya könül verib, ara-sıra özü də duyğularını misralara düzməyə başlayıb...

Onun Qırmızı qəsəbədə keçirdiyi uşaqlıq, yeniyetməlik illəri ilə bağlı ən yaddaqalan anları isə, heç şübhəsiz, əziz bayramlarının - Roş-Ha-Şana, Yom-Kipur, Pesax, Sukkot, Şavuotın... keçirildiyi günlərlə bağlıdır.

"Yadımdadır, bayramlarda dədəmin (atamıza dədə deyərdik) əlindən tutub qəsəbədəki sinaqoqa gedərdim. Böyüklərimizin orada şam yandırmasına, dualar etməsinə, "Tövrat" oxumasına maraqla baxardım.

Bir köhnə odun sobamız vardı, anam bayram günlərində həmişə orada südlü, qozlu, pendirli çörəklər, şirin kökələr bişirərdi... İndiyə qədər də həmin dadda, ətirdə çörək, kökə yeməmişəm. Bəlkə də onlara anamın əllərinin ətri dəydiyi üçün mənə o qədər ləzzətli gəlirdi, bilmirəm..."

Qubanın Qırmızı qəsəbəsindəki ata ocağının istiliyini, doğma hənirini ömrünün bu 78 illik çağında da dünənki kimi xatırlayan, uşaqlıq, yeniyetməlik, gənclik günləri, atalı-analı çağları üçün burnunun ucu göynəyən Dağ Yəhudiləri Dini İcmasının rəhbəri, "Şöhrət" və "Şərəf" ordenli Milix Yevdayevdir "Tolerantlıq ünvanı" rubrikamızın qonağı. Milix müəllimlə birlikdə onun Qırmızı qəsəbədən başlayan ömür yoluna xatirələr cığırıyla qısa səyahət etdik, ölkəmizdə min illərdir var olan dini dözümlülük, multikultural mühitdən söz açdıq, respublikamızın yəhudiəsilli vətəndaşı ilə birlikdə Azərbaycanın Qarabağ zəfərindən qürurla bəhs etdik. Bir haşiyəyə də çıxım ki, söhbətimiz Milix müəllimin dediyi həm Azərbaycan şairlərinin, həm də öz yazdığı şeirlərin müşayiəti ilə keçdi...

### "Çörək ağacının oğlu"



Əsrlərdir Yevdayevlər ailəsinin Azərbaycanda yaşadığını və bu torpağa dərin köklərlə bağlandıqlarını vurğulayan Milix Yevdayev söylədi ki, buna görə də hər zaman İsraili tarixi, Azərbaycanı isə ana vətənləri sayırlar.

- Dədəm İlxanan Aqarunoviç Yevdayev 1941-1945-ci illər müharibəsində 5 il ərzində III Ukrayna Cəbhəsində Mozdokdan Avstriyanın mərkəzi Vyanaya qədər döyüş yolu keçmişdi. 1945-ci ildə isə o, vətənə qayıdaraq düz 40 il Qırmızı qəsəbədə və Qubada çörəkbişirən işləyib. Həmin illər bütün ölkədə vəziyyət çətin idi. Sonradan böyüklərimizdən eşitmişdim ki, dədəm pulsuz çörək almağa gələnləri də heç zaman əliboş geri qaytarmayıb. Görünür, elə bu səbəbdən qəsəbədə çox az adam onu öz adı ilə çağırar, əksəriyyət dədəmə "çörək ağacı" deyərdi. Bugünün özündə də Qırmızı qəsəbəyə və Qubaya gedəndə o dövrün yaşlı insanları məni görən kimi deyirlər ki, "çörək ağacının oğlu" gəldi"... Bu ad mənim üçün dünyanın ən təmtəraqlı titullarından da əzizdir...

Dədəm yəhudiəsilli Batsion Asafovna Aqababayeva (Yevdayeva) ilə ailə qurub və onlar birlikdə 60 il ömür sürüblər, 6 övlad böyüdüblər. Dədəmin aman-zaman bir qardaşı olub. O, 1946-cı ildə 34 yaşında vəfat edib. Buna görə dədəm əmimin dörd övladını da bizimlə birlikdə böyüdüb. Ana tərəfimin kökü isə indiki İranın Gilan vilayətindən olub. Anamın babasının babası qardaş-bacısı ilə birgə XVII əsrdən Qırmızı qəsəbəyə köçüb. Kompakt yaşamaq yəhudilərə xasdır. Buna görə onların burada yaşadıqları məhəllənin adı "Gilan" adlandırılıb. Həmin vaxt bu qəsəbə Yəhudi qəsəbəsi adlanırmış. 1920-ci ildə Qırmızı Ordu Azərbaycanı tutduqdan sonra qəsəbənin adını çevirib Qırmızı qəsəbə qoyublar.

### Nağıl kimi dünya



Uşaqlıq dövrü ilə bağlı ən xırda detalları da xatırladığını deyən Milix Yevdayev söyləyir ki, o zaman indiki kimi firavanlıq yox idi. Atası çörəkçi olduğu üçün evdə aclıq sarıdan korluq çəkməsələr də, geyim-kecimləri haqqında bunu demək olmazdı.

- Gündüzlər evdə süfrə açılmazdı. Dərsdən gələndə bir tikə pendir-çörək atışdırardıq. Axşamlar isə mütləq evdə süfrə salınardı, amma evimizdə belə bir qayda var idi ki, dədəm evdə olmasa idi, qazanın ağzı açılmazdı... Bu, ailənin böyüyünə hörmətin ifadəsi idi...

Dədəm çox çətinliklə də olsa, zəhməti ilə əmimin dörd qızını böyüdüb, onların toy-düyünlərini edib.

Məktəbi bitirənə qədər qəsəbənin 1 nömrəli tam orta məktəbində oxumuşam. Ravinoviç soyadlı ibtidai sinif müəllimim qəsəbəmizin ravviniydi. Onlar nəsillikcə ravvin idilər. O, düz 54 il həmin məktəbdə dərs dedi. O qədər tələbkar müəllim idi ki... Xatırlayıram ki, hüsnxət dərsində hərfləri düz yazmayanda, zoğal çubuğu var idi, onunla sağ əlimizə vurardı ki, düz yazın. Həmin zoğal çubuğunun "qorxusu"ndan sinifdə hamının xətti "inci" kimi olardı. Hərdən şuluqluq edəndə bizə qulaqburması da verərdi. Amma heç kim inciməz, şikayət etməzdi. İnanın ki, onun dediyi dərs sonrakı həyatım üçün bünövrə oldu. İndi də ilk müəllimlərimi müqəddəs insanlar kimi xatırlayıram və onlardan sonra müəllim məfhumu mənim üçün müqəddəs şəxsə çevrilib.

Ümumiyyətlə, orta məktəbdə bütün müəllimlərimiz seçilmiş şəxslər idilər. Bizi tənbeh də edirdilər, amma əsas o idi ki, hamımızı ürəkdən, öz övladları kimi sevir, biliklərini bizə aşılayırdılar, öyrədirdilər. Azərbaycan dili və ədəbiyyatı müəllimlərimiz Şifro Yaqubova və Yaqub Yaqubov qardaş-bacı idilər. VII sinfə qədər bizə bacı, sonra qardaşı dərs demişdi. Onlar bizə ədəbiyyatı elə sevdirdilər ki, hətta buna görə məndə ədəbiyyata, xüsusilə poeziyaya həvəs yarandı. İndiyə qədər də poeziyanı sevirəm. Görürsünüz, stolumun üstündə şairlərimizin şeir kitabları var. Gündəlik heç olmazsa Azərbaycan ədəbiyyatından 50 səhifə poeziya mütaliə edirəm. Azərbaycanın klassik şairlərini, eyni zamanda Səməd Vurğunu, Rəsul Rzanı, Tofiq Bayramı, Nəriman Həsənzadəni və başqalarını mütaliə etməyi çox sevirəm. Şair Nəriman Həsənzadə ilə yaxın dostam. Hərdən özüm də cızma-qara edirəm...

Bilirsiniz, indi də ötən günlərin gözəl xatirələri ilə yaşayıram. İnsan illər ötdükcə xatirələrə bağlanır və o xatirələr də bir nağıla çevrilir. O nağılı isə heç kəsə vermək istəmirsən. Çünki o nağıl sənindir.

*Nağıl danışardı nənəm gecələr,*
*Nağılla dolardı sinəm gecələr.*
*Nağıllı günlərim qayıdan deyil,*
*Qayıdıb yanğımı soyudan deyil,*
*Nağıl kimi gəlir, mənə bu dünya.*

### Vətən yolu

Milix Yevdayev danışdı ki, Politexnik İnstitutunun Texnologiya fakültəsini bitirəndən sonra onu Moskvadan çox uzaqda olmayan bir qəsəbədə işləməyə göndərirlər. Ancaq o, Moskvada Yüngül Sənaye Nazirliyinə gedib həmin yerdə işləmək istəmədiyini bildirir. Bu dəfə isə Milix müəllim işləmək üçün məcburən şaxtası iliklərə işləyən Sibir vilayətinə məxsus Ulyanov şəhərini seçməli olur.

- Səhəri gün ora getmək üçün nazirliyə sənədlərimi götürməyə gəldim. Payız aylarıydı deyə hava soyuq və çiskinliydi. Mən isə nazik pencəkdə idim. Orada olan 60 yaşlarında bir qadın halıma baxıb dedi ki, bala, belə niyə geyinmisən? Bilirsən ki, hara gedirsən? Bu vəziyyətdə orada donarsan. Cavab verdim ki, nəyim varsa əynimdədir və ora getməkdən başqa seçimim yoxdur. Qadın dedi ki, yaşadığın yerə getmək istəyirsənsə, sabah gəl, əgər nazir məktuba qol çəksə, səni Azərbaycana göndərərik. Elə də oldu. Mənə yaşadığım yerdə işlə təmin olunmaq üçün icazə verildi.

Qayıdıb Azərbaycana gəldim və 1 nömrəli ayaqqabı fabrikində işə düzəldim. Orada işlədiyim bir il müddətində vəzifəm nəzarətçidən sexin texnoloquna qədər, maaşım isə 68 manatdan 140 manata yüksəldi.

O zaman yüngül sənaye nazirinin müavini olan Tahir Qafarov vaxtilə diplom rəhbərim olmuşdu, eyni zamanda diplom müdafiəsində müdafiə komitəsinin sədri idi. Onun həm diplom işimdən, həm də müdafiə zamanı çıxışımdan xoşu gəlmişdi deyə bir dəfə mənə təklif etdi ki, nazirliyə yanına işləməyə gəlim. Qəbul etdim və bir aydan sonra nazirlikdə işləməyə köçürüldüm. Beləliklə, 1972-ci ildən Yüngül Sənaye Nazirliyi bağlanana qədər orada işlədim, mühəndislikdən şöbə rəisinə qədər yüksəldim və elə oradan da təqaüdə çıxdım.

Onu da deyim ki, nazirlikdə işlədiyim dövrdə Belarus Xalq Təsərrüfatı İnstitutunda da təhsil aldım. Təqaüdə çıxdıqdan sonra isə Dağ Yəhudiləri Dini İcmasına sədrlik etməyim məsləhət görüldü və qəbul etdim. Artıq 10 ildən çoxdur bu vəzifəni icra edirəm.

Dağ Yəhudiləri Dini İcmasının sədri söylədi ki, Azərbaycanda yəhudi xalqının yaşayıb inkişaf etməsi üçün digər dövlətlərdən də yaxşı şərait var.

- Sinaqoqa gəlmisiniz və gördünüz ki, qapılarımız taybatay açıqdır, amma Avropada, Fransada gedib bir sinaqoqa sərbəst şəkildə girə bilməzsən. Hər 10 addımdan bir bu məkanları avtomatlı, silahlı əsgərlər qoruyur. Biz isə bütün dini ayinlərimizi sərbəst yerinə yetiririk. Azərbaycan Prezidenti İlham Əliyev hər bir vətəndaşın prezidenti olduğunu təsdiqləyir. Biz bunun əməldə icrasının tam mənası ilə şahidi oluruq. Yəhudiəsilli vətəndaşlar Azərbaycan xalqının istifadə etdiyi bütün imtiyazlardan sərbəst yararlanırlar. Bu sinaqoqu dövlət tikib bizə hədiyyə verib. Möhtərəm Prezident İlham Əliyev hər il icmamıza maliyyə yardımı ayırır, bayramlarımızda bizi təbrik edir. Dövlət tərəfindən Bakıda sinaqoqun yanında bizə torpaq sahəsi ayrılıb və hazırda orada 4 mərtəbəli dini-mədəni mərkəz tikilir.

Paytaxtımızda mühüm küçələrdən biri Milli Qəhrəman Albert Aqarunovun adını daşıyır. Həmin küçədə Albertin şərəfinə möhtəşəm heykəl ucaldılıb. Belə bir nümunə heç bir ölkədə yoxdur.



Bütün bunlara görə dövlətimizin başçısı İlham Əliyevə şeir həsr etmişəm və həmin şeirimi ilk dəfə məhz cənab Prezidentin özünə oxumuşam.

*Alqış söyləyirik, Prezident, sizə,*
*gözəl bir sinaqoq bəxş etdiz bizə.*
*Doğmasız, əzizsiz hər birimizə,*
*dərin minnətdarıq, Prezident, sizə.*

*Odlar yurdumuzun mətin oğlusan,*
*Heydər məktəbinin davamçısısan,*
*Vətənə, xalqına arxa-dayaqsan,*
*dərin minnətdarıq, Prezident, sizə.*

*Xalqların yaşayır indi dinc, rahat,*
*Yaşayış yüksəlir, hər gün, hər saat.*
*Xalqın üçün daim yaşa, qur, yarat,*
*dərin minnətdarıq, Prezident, sizə.*

*Hər eldən, obadan sizə var salam,*
*hamının qəlbində sizədir inam.*
*Humanist prezident, mehriban insan,*
*dərin minnətdarıq, Prezident, sizə.*

Məhz Azərbaycan xalqının yüksək mədəniyyəti ölkəmizdə tolerantlığın yaranmasında məhək daşıdır. Tolerantlıq və multikultural mühit elə bir məfhumdur ki, o, sehrli çubuq vasitəsilə yarana bilməz. İnsanların şüurunda, həyat tərzində, qəlbində xalqa, millətə, ölkəyə, əhatəsinə sevgi olmasa, bu mühitdən danışmaq mümkün deyil.



Bir neçə il əvvəl Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Fransada multikulturalizmlə bağlı keçirilən bir konfransa getmişdik. Orada Parisin ravvini Rav Xaym çıxışı zamanı söylədi ki, etiraf etməyə məcburuq ki, biz Fransada küçədə fransız, evdə isə yəhudiyik. Bu söz məni tutdu. Söz veriləndə dedim ki, Rav Xaym, sizdən fərqli olaraq biz Azərbaycanda küçədə də yəhudiyik, evdə də...

O vaxt birinci xanım Mehriban Əliyeva konfrans iştirakçılarını Azərbaycana dəvət etdi ki, gəlib ölkəmizdə olan multikultural mühiti öz gözləri ilə görsünlər.

Rəhmətlik Ulu Öndər Heydər Əliyev deyirdi: "Tolerantlıq xalqın yüksək mədəniyyətinin təzahürüdür".

Balığı sudan ayırdınmı, candan ayrılar. Biz yəhudilərin də Azərbaycana və Azərbaycan xalqına, ana yurda eşqimiz var. O eşq gəldi-gedər deyil. Fikir vermisinizsə, dünyanın harasında olursaq olaq, soruşanda fəxrlə deyirik ki, azərbaycanlıyıq.

*Babəklərin gur səsində,*
*Koroğlular nərəsində,*
*Tarixlərin səhifəsində*
*qızıl hərflə yazılasıyıq,*
*biz azəri balasıyıq.*

Həm Birinci, həm İkinci Qarabağ müharibəsində yəhudi övladları da cəsarətlə vuruşublar. Albert Aqarunovun qəhrəmanlığının özü tarixi epopeyadır. Bütün bunlar yəhudilərin Azərbaycana olan bağlılığının bariz göstəriciləridir. Bizi Azərbaycandan ayırmaq mümkün deyil. Biz nəinki dostuq, qardaşıq, Azərbaycanın ayrılmaz bir hissəsiyik. Biz dil açandan iki dildə danışırıq, həm Azərbaycan, həm də yəhudi dilində.

### Okeanın o tayında erməni təəssübkeşlərini təkbaşına susdurdu

Hələ Vətən müharibəsinə qədərki dövrdə özünün də ölkəmizin milli maraqlarını dünyanın əksər yerlərində, o cümlədən ABŞ-də, hansı ki, erməni lobbisi burada çox güclüdür, müdafiə etdiyini deyən Milix Yevdayev vurğulayır ki, heç zaman haqq sözünü deməkdən çəkinməyib və bu gün də eyni mövqeni sərgiləyir:

- ABŞ-nin Kaliforniya ştatında 1 milyona yaxın sayı olan erməni diasporu yaşayır. Onlar 2015-ci ildə Kaliforniya Senatına qətnamə vermişdilər ki, bu ştat erməni separatçılarının yaratdığı dırnaqarası Dağlıq Qarabağı tanısın. Los-Ancelesə ezam olunaraq Senatda bu qətnaməyə qarşı çıxış etdim. Həm mənə, həm də erməni çıxışçıya hərəmizə 5 dəqiqə vaxt ayırmışdılar. Hansı dildə danışacağımı soruşanda dedim ki, ingilis dilini bilirəm, amma doğma Azərbaycan dilində danışacağam. Dedilər ki, o zaman sənə 5, tərcüməçiyə 5 dəqiqə vaxt veririk, eyni zamanda erməni çıxışçının vaxtını 10 dəqiqə artırırıq. Orada altı nəfər erməni deputat var idi, onlardan biri isə Bakı ermənisi idi. Onlar mənə sual etdilər ki, azərbaycanlı deyilsiniz, amma bu necə olur ki, 17 min kilometr uzaqdan gəlib, Azərbaycanı müdafiə edirsiniz? Dedim ki, bəli, yəhudiəsilliyəm, amma Azərbaycan vətəndaşıyam. İsrail tarixi, Azərbaycan isə doğma vətənimizdir. Siz indi bu qətnamə ilə müharibəni qızışdırırsınız, lakin o müharibədə nə siz, nə də sizin övladlarınız vuruşmayacaq. Savaşanlar yenə azərbaycanlılar və Azərbaycanda yaşayan xalqların övladları olacaq.

İndi eyni sualı özünüzə qaytarıram ki, bəs sizin nə marağınız var ki, 1000 kilometrlərlə uzaqdan Azərbaycanı hədələyirsiniz? Burada olanlardan bir nəfər durub desin ki, Qarabağı görüb. Heç kəs görməyib. Oradakı əsl vəziyyətdən də xəbəriniz yoxdur. Ancaq müharibəni qızışdırırsınız. İstəyim odur ki, müharibə olmasın, nə erməni, nə azərbaycanlı analar ağlamasın...

Səhəri gün onların qəzetlərinin birində çap olunan məqalədə yazılmışdı: "Bakıdan olan bir nəfər yəhudi kamikadze bir milyonluq erməni diasporu ilə döyüşə gəlib..."

1987-ci ilin noyabrına qədər işimlə əlaqədar demək olar ki, ildə iki-üç dəfə Qarabağ bölgəsinə ezamiyyətə gedirdim, Xankəndidə çox olurdum. Burada yaşayanların necə zəhmətkeş, qayda-qanuna riayət edən insanlar olduqlarına şəxsən şahid idim. Həm azərbaycanlılar, həm ermənilərlə görüşürdüm, dəvət edirdilər, qonaqları olurdum, toylarında iştirak edirdim. Yəni mehribançılıq var idi...

Qarabağda hadisələrin bu cür faciəvi hala gəlib çıxmasına xaricdən, Ermənistandan gələn ermənilər səbəb oldular. Aranı qızışdırdılar və 1988-ci ilin fevralında hadisələr başladı. Azərbaycanlılara qarşı soyqırımları, qətliamlar törədildi, vətəndaşlarımız yurdlarından didərgin salındı, torpaqlarımız işğal altına düşdü.

### "Onda bildim ki, qayıdır Vətən"

- Vətən müharibəsinin üçüncü günü - sentyabrın 30-da artıq cəbhə bölgəsində idim. Düşmənin döyüş meydanından uzaqda yaşayan rayonlarımıza yağdırdığı bombaları gözlərimlə gördüm. Ancaq bu bombardmanlara baxmayaraq, heç kəs yurdunu tərk etmirdi. Ümumiyyətlə, xalqımız çox böyük vətənpərvərlik hissi yaşayırdı, ruh yüksəkliyi içərisində idi. Bu da əminlik yaradırdı ki, Vətən müharibəsində Azərbaycanın yüz, iki yüz minlik yox, on milyonluq ordusu düşmənlə savaşırdı. Eyni zamanda da Qarabağın xilaskarı möhtərəm Prezidentimiz İlham Əliyev Vətən müharibəsi günlərində informasiya savaşı apararaq beynəlxalq ictimaiyyətə Azərbaycan həqiqətlərini çatdırırdı. Həmin zaman beynəlxalq KİV-ə 30-dan çox müsahibə verən və qərəzli jurnalistləri yerində oturdan Müzəffər Sərkərdəmiz dünyaya sübut etdi ki, Azərbaycan və Azərbaycan Prezidenti kimdir.




44 günlük savaş boyu Prezidentimizin sərgilədiyi qətiyyətli siyasəti görəndə tam əmin oldum ki, çox tezliklə torpaqlarımız azad olunacaq.

*Səsində Koroğlu nərəsin gördüm,*
*Gözündə Tanrının nurunu gördüm,*
*Dizində Koroğlu təpəri gördüm,*
*Onda bildim ki, qayıdır Vətən.*

İki yüz il boyu ermənilərin şərinə düşən Azərbaycan xalqı çox zülm gördü, zillət çəkdi. Amma sınmadı, sonda haqqı, ədaləti bərpa etdi, ərazi bütövlüyümüz, suverenliyimiz təmin olundu. Bu dünyada hər şeyin sahibi olmaq olar, amma xoş günü qazanmaq lazımdır. Qalib Liderimiz İlham Əliyev bu ölkədə yaşayan milliyyətindən, dilindən, dinindən asılı olmayaraq, bütün xalqları xoş günlərin yiyəsi, başıuca, qürurlu etdi...

İndən sonra isə xalq olaraq üzərimizə düşən vəzifə ölkəmizin milli maraqlarını göz bəbəyimiz kimi qorumaqdır.

*Bu yazı vasitəsilə Milix Yevdayevin 78 illik ömür yolunun timsalında Azərbaycanda doğulan, bu torpağa ürəkdən bağlı olan dağ yəhudilərinin ölkəmizdəki yaşam tərzinə ötəri işıq tutmağa, əsrlərdir Odlar diyarında kök salaraq yaşayan bu insanların Azərbaycanda min illərdir var olan tolerantlıq mühitində xalqımızla necə qaynayıb-qarışdıqlarını göstərməyə çalışdıq. Ruhi saflığın hökm sürdüyü sinaqoqda Milix Yevdayevlə müsahibəmiz zamanı nədən danışsaq da, elə söhbətimiz hərlənib-fırlanıb Azərbaycan xalqının tarixindən, keçmişindən süzülərək bu günə qədər gələn və milli-mənəvi dəyərləri arasında başlıca yeri tutan tolerantlığın üstünə yön aldı... Tolerantlığın elə həm də azərbaycançılıq olduğunun danılmaz gerçəkliyi vurğulandı...*

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Dördüncü Azərbaycan Karyera İnkişaf Forumu olub






**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin təşkilatçılığı ilə ölkəmizdə dördüncü Azərbaycan Karyera İnkişaf Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, "Bu günün təcrübəsindən sabahın çağırışlarına!" devizi ilə təşkil olunan forumun məqsədi karyera inkişafı üzrə ölkədə və dünyada olan uğurlu nəticələr, qlobal trendlər və müasir yanaşmalar, təhsildə effektiv öyrənmə və öyrətmə mexanizmlərinin qurulması üçün əsas meyarlar, əmək bazarında tələb olunan bacarıqların əhəmiyyəti və inkişafı yollarını müzakirə etmək olub.

Forumun açılışında çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycanda həyata keçirilən dövlət siyasətinin mərkəzində vətəndaş rifahının dayandığını, hər bir ölkədə insan rifahında ən önəmli faktorun məşğulluğun təminatı olduğunu qeyd edib. Nazir məşğulluğun təminatı prosesində əsas istiqamətlərdən birinin insan resurslarının daim güclənən milli iqtisadiyyata, daim dəyişən əmək bazarının tələblərinə uyğun olaraq inkişaf etdirilməsi olduğunu bildirib.

Dövlət proqramlarında layiqli əməyin, məşğulluğun təminatının mühüm yer tutduğu, bu sahədə atılan addımlar diqqətə çatdırılıb. 2018-2024-cü illərdə minimum əməkhaqqında 2,7 dəfə, orta aylıq əməkhaqqında təqribən 2 dəfə, əməkhaqqı fondunda 3 dəfə, son 6 illik dövrdə əmək müqavilələrinin sayında 609 min artım olduğu qeyd edilib. 1,8 milyon vətəndaşa məşğulluq xidmətlərinin göstərildiyi, onlardan 600 mindən çox vətəndaşın işlə təmin edildiyi, 36 min şəxsin peşə hazırlığına cəlb olunduğu, ildə 120-130 min nəfər yuxarı sinif şagirdinə peşəyönümü xidmətlərin göstərildiyi vurğulanıb.

Özünüməşğulluq proqramı çərçivəsində 93 min vətəndaş üçün kiçik təsərrüfatların yaradıldığı, aktiv məşğulluq proqramlarının daim genişləndirilməsi və sayının artırılmasının əsas prioritetlərdən birini təşkil etdiyi diqqətə çatdırılıb. İşğaldan azad edilən ərazilərimizə köç etmiş sakinlərin layiqli əməyinin, məşğulluğunun təminatı işləri qeyd olunaraq, layiqli əməyin, məşğulluğun təminatı prosesində hazırlıqlı, səriştəli, əmək bazarının tələblərinə uyğun bilik və bacarıqlara malik insan resurslarının yaradılmasının mühüm amil olduğu bildirilib.

Əmək və məşğulluq sahəsində xidmətlərin elektronlaşdırılmasının həmin xidmətlərin vətəndaşlar üçün əlçatanlığının artırılmasına imkan yaratdığı diqqətə çatdırılıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 160 xidmətindən 145-dən çox xidmətin və ya 90 faizdən çoxunun rəqəmsallaşdırıldığı qeyd edilib. Əmək müqavilələrinin "Əmək və Məşğulluq" altsistemi platformasında e-qaydada imzalanması prosesindən bəhs olunub, nazirliyin elektron layihələrinin bir çox beynəlxalq mükafatlara layiq görüldüyü bildirilib.

Nazir forumun işinə uğurlar arzulayıb, bu tədbirin müsbət nəticələr verəcəyinə əminliyini ifadə edib.

Azərbaycan Karyera İnkişaf Forumunun hesabat videosu yayımlanıb.

Sonra forumun rəsmi panel sessiyası başlayıb. Agentliyin İdarə Heyətinin sədri Sadiq Əliyevin moderatoru olduğu paneldə spikerlər - əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, gənclər və idman naziri Fərid Qayıbov, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov əmək bazarının hazırkı vəziyyəti, təhsildə effektiv öyrənmə mexanizmləri və inkişaf yolları ilə bağlı çıxışlar edib, sualları cavablandırıblar.

Forumda "Təhsildən karyeraya: Gələcəyin innovativ həlləri", "İnnovasiya, əməkdaşlıq və qlobal mobillik" və "İnsan kapitalının inkişafı və təşkilati mədəniyyət" adlı panellər üzrə yerli və xarici spikerlərin iştirakı ilə müzakirələr də keçirilib.

# "Qərbi Azərbaycan torpaqlarının tarixi və mədəni irsi" fənn proqramının təqdimatı keçirilib

**Azərbaycan Dillər Universitetində "Qərbi Azərbaycan torpaqlarının tarixi və mədəni irsi" adlı (magistratura pilləsi üçün) fənn proqramının təqdimatı keçirilib. Proqramı Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının əməkdaşları Xatirə Hacıyeva, Namiq Kərimov və Ramin Quliyev hazırlayıblar.**



Tədbirdə öncə Dövlət himni səsləndirilib. Qərbi Azərbaycanla bağlı hazırlanan videoçarx izlənilib. ADU-nun rektoru akademik Kamal Abdulla tədbir iştirakçılarını salamlayıb, təqdimatın əhəmiyyətindən danışıb, Qərbi Azərbaycanla bağlı hazırlanan elmi vəsaitlər, nəşrlər və proqramların böyük önəm kəsb etdiyini qeyd edərək deyib: "Bu gün Azərbaycan böyük tarixi missiyanı uğurla davam etdirməkdədir. Qərbi Azərbaycana qayıdış və tarixi torpaqlarımıza yenidən qovuşmaq hər birimiz üçün vacib işdir. Bu mənada hazırlanan dərs vəsaitləri, elmi nəşrlər, fənn proqramları öz aktuallığı ilə seçilir. Bu mənada "Həqiqətin onomastikası" kitabını qeyd etmək istərdim. Gərgin tədqiqat işlərinin bəhrəsi olan bu kitab erməni vandalizminin və erməni saxtakarlığının ən bariz nümunələrindən birinə - tarixi Azərbaycan torpaqlarında, indiki Ermənistan Respublikası ərazisində əsrlər boyu yaşamış azərbaycanlıların izlərinin silinməsi üçün bizə məxsus 1600-ə yaxın toponim, hidronim, oronimlərin kütləvi şəkildə dəyişdirilməsi və saxtalaşdırılması, bir çox yaşayış məntəqələrinin isə məqsədli şəkildə yer üzündən tamamilə silinməsi faktlarına həsr olunub. Azərbaycan Dillər Universitetində Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının hazırladığı "Qərbi Azərbaycan torpaqlarının tarixi və mədəni irsi" adlı fənn proqramı da Qərbi Azərbaycanla bağlı görülən işin növbəti bariz nümunəsidir".

Qərbi Azərbaycan İcmasının sədri, filologiya üzrə fəlsəfə doktoru, dosent Əziz Ələkbərli tədbirin əhəmiyyətindən söz açıb. Qeyd edib ki, Qərbi Azərbaycana qayıdış bu gün Azərbaycan xalqının ümummilli məsələlərindən biridir, ata-baba torpaqlarına qayıdış soydaşlarımızın ən ümdə amalıdır: "Qərbi Azərbaycana qayıdış hər birimiz üçün xüsusi məna kəsb edir. Xalqımız əsrlər boyu tarixi torpaqlarında yaşamaq, öz hüquqlarını qorumaq üçün böyük fədakarlıq göstərsə də, müxtəlif dövrlərdə amansız sınaqlara, yurd itkisinə məruz qalmışdır. XX əsrin sonu - XXI əsrin əvvəllərində qonşuluğa və bəşəri normalara zidd olaraq Ermənistan düşmən qüvvələrin himayəsi altında Azərbaycan torpaqlarının 20 faizini ələ keçirmiş və 30 il işğal altında saxlamışdır".

Daha sonra çıxış edənlər Milli Məclisin deputatı Ceyhun Məmmədov, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Qərbi Azərbaycan şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Cəbi Bəhramov, ADU-nun Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Xatirə Hacıyeva, kafedranın dosenti, tarix üzrə fəlsəfə doktoru Namiq Kərimov, kafedranın baş müəllimi Ramin Quliyev məruzələrlə çıxış ediblər.

Tədbir gələcək elmi əməkdaşlıq və silsilə tədbirlərin keçirilməsi ətrafında müzakirələrlə davam edib.

***"Azərbaycan"***

# İtaliyanın hərbi nümayəndə heyəti ölkəmizə səfər edib

**Azərbaycan və İtaliya Müdafiə nazirlikləri arasında imzalanan plana əsasən, İtaliya Respublikasının hərbi-mülki əməkdaşlıq (CIMIC) üzrə hərbi ekspertləri ölkəmizə səfər ediblər.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsində İtaliya nümayəndə heyəti ilə görüş keçirilib.



Qonaqlara müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarı ilə təsdiq edilmiş Müdafiə Nazirliyinin Kommunikasiya Strategiyası barədə brifinq təqdim olunub. Eyni zamanda Azərbaycan Ordusunun Qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsi, eləcə də sonrakı əməliyyatlarda informasiya təminatı və dezinformasiya ilə mübarizə tədbirləri haqqında ətraflı məlumat verilib.

İtaliyalı hərbi ekspertlər tərəfindən hərbi-mülki əməkdaşlığa dair brifinqlər təqdim edildikdən sonra bu sahədə qabaqcıl təcrübənin öyrənilməsi məsələləri müzakirə edilib, qarşılıqlı maraq doğuran suallar cavablandırılıb.

## *Qərbi Azərbaycan İcması:*

# Fransa səfirinin açıqlaması ksenofob mahiyyət daşıyır

**"Son günlər bəzi Qərb ölkələrinin daim əllərində bayraq etdikləri "söz azadlığı", "fikir müxtəlifliyi"nə nə qədər dözülməz münasibət bəsləmələrinin bir daha şahidi oluruq. Fransanın Azərbaycandakı səfiri tez-tez Azərbaycana qarşı "dahiyanə" tvitlər yazan Ermənistandakı səfir həmkarından geri qalmamaq niyyətinə düşmüş, lakin onun da tviti həmkarında olduğu kimi, çox uğursuz alınmışdır".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qərbi Azərbaycan İcmasının bəyanatında yer alıb.

Bəyanatda həmçinin deyilir: "Üstəlik, səfirin açıqlaması ksenofob mahiyyət daşıyır və bu mənada, Cozef Borelin "Avropa bağdır, qalan dünya isə cəngəllik" məzmunlu irqçi tezisinin davamıdır. Bütün bunlar Fransa diplomatiyasının iflasının, düşdüyü acınacaqlı vəziyyətin daha bir bariz nümunəsidir".

# "Bu təzyiqlərin əsl səbəbi Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsidir"

**"ABŞ-nin Azərbaycandakı səfirliyinin ölkəmizin daxili işlərinə qarışan və böhtan dolu bəyanatını sərt şəkildə qınayırıq. Azərbaycana qarşı şər kampaniyasını ölkəmizdə guya söz azadlığı sahəsində olan problemlərin olması ilə izah etməyə cəhd edən ABŞ səfirliyinin diqqətinə çatdırmaq istərdik ki, bu təzyiqlərin əsl səbəbi Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsidir".**

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında qeyd olunub.

Bəyanatda deyilir: "ABŞ-nin hazırkı administrasiyası azərbaycanlılara qarşı etnik və dini əsaslarla ayrı-seçkilik siyasəti aparmaqla, ölkələrin ərazi bütövlüyü və suverenliyinə selektiv yanaşmaqla, Ermənistanın deportasiya, etnik təmizləmə, təcavüz və işğal siyasətinə dəstək verməklə insan hüquqlarından danışmaq haqqını itirmişdir. Biz Qərbi Azərbaycan İcması olaraq bu ədalətsiz yanaşmanı, ayrı-seçkiliyi daim hiss edirik.

Bundan əlavə, ABŞ səfirliyinin özlərinə gəldikdə nəinki azacıq tənqidə, hətta adi suala belə aqressiv ritorika ilə cavab verməsi onların yeri gəldi-gəlmədi pafosla danışdıqları "söz azadlığı"na, "fikir müxtəlifliyi"nə olan namərdliyini göstərir.

Biz ABŞ-nin hazırkı administrasiyasından ölkəmizin daxili işlərinə müdaxiləsinə, xalqımıza qarşı ayrı-seçkiliyinə və insan hüquqlarından siyasi məqsədlər üçün sui-istifadəsinə son verməyi tələb edirik".

# Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərin sayı azalıb

**2024-cü ilin yanvar-noyabr ayları ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.**

Bu barədə AZƏRTAC-a Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupundan məlumat verilib.

Cari ilin yanvar-noyabr ayları ərzində hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 8549 cinayət faktı aşkarlanıb. Onlardan 2837-si narkotik vasitələrin qanunsuz satışı, 5478-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 228-i narkotik tərkibli bitkilərin qanunsuz əkilib becərilməsi, 6-sı isə digər cinayətlərlə bağlı olub.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 6 ton 403 kiloqram 647,445 qram narkotik vasitələrin və psixotrop maddələrin 524 kiloqram 59,659 qramını heroin, 5 ton 313 kiloqram 809,136 qramını marixuana, 164 kiloqram 849,07 qramını tiryək, 38 kiloqram 852,443 qramını həşiş, 205 kiloqram 385,123 qramını psixotrop maddələr, 156 kiloqram 692,014 qramını digər narkotik vasitələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 38 min 807 ədəd metadon, 15 min 392 ədəd çətənə kolu, 429 qram və 240 ədəd həb (güclü təsir edən maddə), 10 qram prekursor qanunsuz dövriyyədən götürülüb.

Hesabat dövründə Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 1439,6 hektar sahədən 2.864.953 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilib.

Qanunsuz dövriyyədən çıxarılmış 6 ton 403 kiloqram 647,445 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 154 milyon 579 min AZN qiymətləndirilir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 6693 nəfər cəlb edilib, onlardan 16-18 yaşadək 2 nəfər,18-25 yaşadək 498 nəfər, 26-29 yaşadək 1012 nəfər, 30 yaş və ondan yuxarı isə 5181 nəfər təşkil edir. Həmin şəxslərdən 6497-si kişi, 196-sı qadın olub. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 59 xarici ölkə vətəndaşından 25-i İran, 10-u Rusiya, 13-ü Türkiyə, 7-si Gürcüstan, 1-i Özbəkistan, 2-si Ukrayna, 1-i Birləşmiş Ərəb Əmirlikləri vətəndaşıdır. Xarici ölkə vətəndaşlarından ümumilikdə 212 kiloqram 424,217 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə götürülüb.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 235 fakt aşkar edilib, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 2 ton 406 kiloqram 149,481 qram narkotik vasitə və psixotrop maddə, 38807 ədəd metadon həbi, 1710 ədəd və 44 qram güclü təsir edən maddə çıxarılıb.

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 313-ü qrup halında törədilib. Həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 2 ton 471 kiloqram 706,851 qram narkotik vasitə və psixotrop maddə, 13220 ədəd metadon həbi və 213,4 qram güclü təsir edən maddə müsadirə olunub.

2888 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilib və onlardan 1 ton 895 kiloqram 31,5 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə edilib.

Ötən ilin yanvar-noyabr ayları ilə müqayisədə 2024-cü ilin müvafiq dövründə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkar edilən faktların sayı 1209, narkotiklərin qanunsuz satışı ilə bağlı faktların sayı 321, narkotiklərin satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 798, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı 66, digər növ cinayət faktlarının sayı 24, həmçinin qaçaqmalçılıqla bağlı cinayətlərin sayı 31 fakt, qanunsuz dövriyyədən çıxarılmış narkotik vasitələrin çəkisi 315 kiloqram 383,968 qram, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı isə 1073 nəfər azalıb. Bununla yanaşı, qrup halında olan cinayətlərin sayı 7 fakt artıb.

2023-cü ilin 11 ayı ilə müqayisədə 2024-cü ilin müvafiq dövründə qanunsuz dövriyyədən çıxarılmış güclü təsirə malik narkotik vasitələrin, o cümlədən heroinin çəkisi 1 ton 362 kiloqram 590,155 qram (72,2 faiz), tiryəkin çəkisi 100 kiloqram 304,898 qram (37,8 faiz), həşişin çəkisi 14 kiloqram 607,199 qram (27,3 faiz), kokainin çəkisi 750,831 qram (100 faiz), psixotrop maddələrin çəkisi 202 kiloqram 566,206 qram (49,7 faiz) azalıb.

Təhlil göstərir ki, qeyd olunan xarici ölkə mənşəli narkotik vasitələrin təxminən 95 faizdən çoxu qaçaqmalçılıq və digər qanunsuz yollarla ölkəyə gətirilib.

Müsadirə edilmiş müxtəlif növ narkotik vasitələrin 5 ton 313 kiloqram 809,136 qramını (82,9 faiz) marixuana təşkil edib. Onun da 4 ton 638 kiloqram 315,436 qramı (87,2 faiz) tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş xarici ölkə mənşəli olub. 675 kiloqram 493,7 qram (12,7 faiz) isə iqlim şəraitinə uyğun olaraq ölkə ərazisində, istixanalarda, zirzəmilərdə, meşə ovalıqlarında və çay yataqlarında qanunsuz kultivasiya edilib.

Dövlət Komissiyasının işçi qrupunun təşkilatçılığı ilə bu il aprelin 16-17-də Müsadirə edilmiş narkotik vasitələri, psixotrop maddələri və onların prekursorlarını Məhvetmə Komissiyası tərəfindən 1741 məhkəmə hökmü ilə barəsində məhvetmə qərarı qəbul edilmiş 3 ton 430 kiloqram müxtəlif növ narkotik vasitə və psixotrop maddə, 60189 ədəd həb metadon, 58773 ədəd narkotik xassəli çətənə bitkisi, həmçinin 3477 ədəd həb, 19341 ədəd kapsul, 24 flakon, 4 ampula, 81,446 qram güclü təsir edən maddə, eyni zamanda iyulun 22-də Dövlət Sərhəd və Dövlət Təhlükəsizliyi xidmətlərində saxlanılan 17 cinayət işi üzrə barəsində məhvetmə qərarı qəbul edilmiş 248 kiloqram 293,151 qram müxtəlif növ narkotik vasitələr yandırma üsulu ilə məhv olunub.

Həmçinin 43 rayon və şəhərdə qanunvericiliyə uyğun olaraq 1990 hökm və qərar üzrə az və xeyli miqdarda müsadirə edilmiş müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr, o cümlədən çətənə bitkisi rayon və şəhər komissiyaları tərəfindən yandırma yolu ilə məhv edilib.

Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 82278 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilmiş 2840 nəfərdən 1792 nəfərinin istifadəçi olması müəyyən olunub və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilib.

2023/2024-cü illərin yanvar-noyabr ayları ərzində ölkə üzrə narkotiklərlə əlaqəli aşkar olunan faktlar və qanunsuz dövriyyədən götürülən narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları barədə müqayisəli məlumat

| | 2023-cü il yanvar-noyabr | 2024-cü il yanvar-noyabr | Fakt | %-lə |
|---|---|---|---|---|
| Cəmi | 9758 | 8549 | -1209 | -12,4 |
| Satış | 3158 | 2837 | -321 | -10,2 |
| Saxlama | 6276 | 5478 | -798 | -12,7 |
| Əkin | 294 | 228 | -66 | -22,5 |
| Digərləri | 30 | 6 | -24 | -80 |

Götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının miqdarı

| | 2023-cü il yanvar-noyabr | 2024-cü il yanvar-noyabr | Fərq | %-lə |
|---|---|---|---|---|
| Cəmi | 6 ton 719 kq 031,413 qr | 6 ton 403 kq 647,445 qr | -315 kq 383,968 qr | -4,7 |
| Marixuana | 3 ton 961 kq 758,574 qr | 5 ton 313 kq 809,136 qr | +1 ton 352 kq 050,562 qr | +34,1 |
| Həşiş | 53 kq 459,642 qr | 38 kq 852,443 qr | -14 kq 607,199 qr | -27,3 |
| Tiryək | 265 kq 153,968 qr | 164 kq 849,07 qr | -100 kq 304,898 qr | -37,8 |
| Heroin | 1 ton 886 kq 649,814 qr | 524 kq 059,659 qr | -1 ton 362 kq 590,155 qr | -72,2 |
| Kokain | 750,831 qr | - | -750,831 qr | -100 |
| Psixotrop maddələr | 407 kq 951,329 qr | 205 kq 385,123 qr | -202 kq 566,206 qr | -49,7 |
| Digər narkotik vasitələr | 143 kq 307,255 qr | 156 kq 692,014 qr | +13 kq 384,759 qr | +9,3 |

Hazırda metadonla əvəzedici müalicə proqramı üzrə 3 məntəqədə (Respublika Narkoloji Mərkəzində 328, QİÇS-lə Mübarizə Mərkəzində 378, Sumqayıt Narkoloji Mərkəzində 143 nəfər) 849 xəstə müalicə alır.

Respublika QİÇS-lə Mübarizə Mərkəzinin verdiyi məlumata əsasən, ölkədə narkomanların İnsanın İmmunçatışmazlığı Virusuna yeni yoluxma hadisələrinin sayında azalma müşahidə olunur. Cari ilin noyabr ayının sonuna kimi İİV-ə yoluxmuş Azərbaycan vətəndaşları arasında 70 nəfəri (6,6 faiz) inyekson narkotik istifadəçiləri olub.

Cari ilin yanvar-noyabr ayları ərzində "802" qaynar xətt telefon zəng xidmətinə 1601 vətəndaş müraciəti daxil olub ki, onların 146-sı narkotik vasitələrin qanunsuz dövriyyəsi, 110-u narkotik asılılıqdan müalicə, 1345-i isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olub. Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 256 məktub ünvanlanıb.

802 qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılıb və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilib.

Hesabat dövründə Dövlət Komissiyasının işçi qrupunun təşkilatçılığı ilə aidiyyəti dövlət qurumlarını cəlb etməklə ümumilikdə 155 tədbir (75 maarifləndirici və təşkilati tədbir, 66 təlim, 6 sosial layihə, 2 intellektual müsabiqə, 1 marafon və televiziya kanalında 5 verilişdə iştirak) təşkil edilib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Tacikistan-Azərbaycan ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiyanın 7-ci iclası keçirilib



**Tacikistan Respublikasının Düşənbə şəhərində Azərbaycan Respublikası və Tacikistan Respublikası arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiyanın 7-ci iclası keçirilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev və Tacikistanın iqtisadi inkişaf və ticarət naziri Zavki Zavkizoda çıxış ediblər.

Sonra Azərbaycanın iqtisadiyyat nazirinin müavini Rövnəq Abdullayev, mədəniyyət nazirinin müavini Səadət Yusifova, gənclər və idman nazirinin müavini Fərhad Hacıyev və Dövlət Turizm Agentliyi sədrinin müşaviri Kənan Quluzadənin çıxışları dinlənilib.

İclas protokolunun imzalanmasından sonra Azərbaycan nümayəndə heyəti ilə Tacikistanın Baş naziri Kohir Rəsulzoda, xarici işlər naziri Sirojiddin Muhriddin və Tacikistan Hökuməti yanında Ətraf Mühitin Mühafizəsi Komitəsinin sədri Bahodur Sheralizoda arasında görüşlər keçirilib.

## Ötən illərlə müqayisədə əmək müqaviləsinin sayında artım qeydə alınıb



**"Ölkəmizdə əmək bazarının tənzimlənməsində müasir üsullar tətbiq edilir. Məhz bunun nəticəsidir ki, ötən illərlə müqayisədə əmək müqaviləsinin sayında 609 min artım əldə edilib. Bunun 80 faizi özəl sektorun payına düşür, yəni özəl sektorlarda 500 mindən çox əmək müqaviləsi imzalanıb".**

Bu sözləri Karyera İnkişaf Forumunda əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

Nazir qeyd edib ki, dövlət siyasətinin prioriteti Azərbaycan vətəndaşının rifahıdır: "Sosial iqtisadi islahat paketləri çərçivəsində əməkhaqqı fondunun artması istiqamətində uğurlar əldə edilib. Eyni zamanda 600 mindən çox vətəndaş işə düzəlib, 93 min ailə özünüməşğulluq proqramı ilə təmin olunub. Bu proqramların daha da artırılması hədəflənir".

Əmək bazarının tənzimlənməsində müasir üsulların tətbiq edildiyini bildirən S.Babayev insan resurslarının dəyişən dünyada inkişaf etməsinin şərt olduğunu deyib: "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 145 elektron xidmət həyata keçirilir. Ötən dövr ərzində xidmətlər bir çox beynəlxalq mükafatlara layiq görülüb".

◆ **2024-cü ilin yadigarları**

# Palçıq Vulkanları Turizm Kompleksi



**Yola salmağa hazırlaşdığımız 2024-cü il Azərbaycanda bir çox yeni sənaye müəssisələrinin, sosial infrastrukturların, xidmət obyektlərinin yaranma tarixi kimi də yadda qalacaq. Başqa sözlə, bu il sosial-iqtisadi həyatın elə bir sahəsi olmadı ki, orada mühüm yeniliklər baş verməsin. Əlbəttə, turizm sektoru da istisna təşkil etmədi.**

Bu il iyunun 13-də Prezident İlham Əliyev Abşeron rayonu ərazisində Palçıq Vulkanları Turizm Kompleksinin açılışında iştirak etdi. Palçıq vulkanları təbiətin maraqlı hadisəsidir. Odur ki, belə bir kompleksin yaradılması təqdirəlayiq haldır.

Palçıq vulkanları dünyanın bir çox yerlərində mövcuddur. Azərbaycan isə palçıq vulkanlarının nadir və klassik inkişaf regionu kimi tanınır. Belə ki, Yer kürəsində məlum olan 2 mindən artıq palçıq vulkanının 350-dən çoxu Azərbaycanın şərqində və Xəzər akvatoriyasında yerləşir. Palçıq vulkanları əsasən Abşeron yarımadası, Bakı ətrafındakı adalar qrupu, Şamaxı, Qobustan və cənub-şərqi Şirvanda yayılıb.

Sözügedən Palçıq Vulkanları Turizm Kompleksi də Bakıdan 59 kilometr cənub-qərbdə, Qobustan qəsəbəsindən təxminən 17 kilometr şimal-qərbdə, Şamaxı istiqamətinə gedən əsas yolun üstündə dəniz səviyyəsindən 235 metr hündürlükdə yerləşən ərazidə yaradılıb. Bura "Qılınc" palçıq vulkanlarının ərazisi kimi tanınır. Ərazinin turizm imkanları qiymətləndirildikdən sonra burada turizm kompleksinin yaradılması qərara alınıb. Beləliklə, "Regionların 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində növbəti turizm infrastrukturunun yaradılması layihəsi uğurla icra olunub. Kompleksin təməli 2021-ci il aprelin 22-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə qoyulub.

Kompleks 12 hektar ərazidə tikilib. Burada inzibati bina inşa olunub. Yaradılan yeni turizm infrastrukturu yerli əhali, xüsusilə ətraf ərazilərdə məskunlaşmış insanlar üçün onlarla yeni iş yerinin açılmasına imkan verib.

Belə bir kompleksin açılması Azərbaycanda turizm sektorunun böyük potensiala malik olduğunu bir daha göstərir. Həm də turizmin əksər növlərinin inkişafı üçün imkan var. Dövlətin qeyri-neft sektorunun bu sahəsinə də xüsusi diqqət ayırması, nəticədə uğurlara nail olunması turizmin getdikcə daha çox inkişaf edəcəyindən xəbər verir.

Bəs konkret olaraq Palçıq Vulkanları Turizm Kompleksinə gələn ziyarətçilər, qonaqlar nə görəcəklər? Burada onlar üçün İnformasiya Mərkəzi fəaliyyət göstərir. Mərkəz sərgi zalından və emalatxanadan ibarətdir. Mərkəzdə palçıq vulkanlarının xüsusiyyətləri, təbii və müalicəvi özəllikləri haqqında məlumat əldə etmək, palçıq vulkanının maketi ilə tanış olmaq mümkündür. Burada, eləcə də ölkəmizin hər yerindən toplanmış 80-ə yaxın nadir mineral nümayiş etdirilir. Sərgidə mineral nümunələrinin adı, kimyəvi tərkibi və götürüldüyü yatağa dair məlumatlar da yer alır. Emalatxanada isə dulusçuluq və neftlə rəsmlərin çəkilməsi üzrə master-klaslar təşkil edilir.

Kompleksdə "Qılınc" palçıq vulkanını yaxından izləmək olar. Bu vulkanlar bir sırada düzülmüş 8 sopkadan (təpə) ibarətdir. Sopka brekçiyası (iri qrunt süxurları) böyük bir sahəni əhatə edərək şimal-şərqə qədər uzanan iki zolaq əmələ gətirib. 20 hektar sahəyə yayılan brekçiyanın uzunluğu 300-500 metrdir. Bu zolaqların eni isə bəzi yerlərdə 50 metrə çatır. Ümumilikdə ölkəmizdəki vulkanların 60 faizi aktiv sayılsa da, elmi mənbələrdə "Qılınc" vulkanının güclü püskürmələri barədə məlumata rast gəlinmir.

Kompleksdə Təbiət tarixi sərgi zalı da eksponatlarının zənginliyi ilə böyük maraq doğurur. Burada Azərbaycan və dünya faunasına aid vəhşi və ev heyvanlarının skeletləri, ölkəmizin təbiətinə aid olan həşəratlar, suda-quruda yaşayanlar və sürünənlər sərgilənir. Nümayiş etdirilən bütün heyvan skeletləri və canlılar orijinal eksponatlardır. Bu eksponatlar bioetika normalarına uyğun olaraq hazırlanıb və bioloji ölümdən sonra Azərbaycan mütəxəssisləri tərəfindən onilliklər ərzində müxtəlif yerlərdən toplanmış heyvan skeletlərindən ibarətdir. Bu sərgiyə baxanlar ölkəmizin faunasının nə qədər zəngin olduğunu görürlər. O da təqdirəlayiq haldır ki, uşaqların və məktəblilərin ətraf aləmə maraqlarını artırmaq və onlarda heyvan skeletləri barədə təəssürat yaratmaq məqsədilə divarlarda müxtəlif heyvanların şəkilləri və illüstrasiyaları sərgilənir. Burada eləcə də milli parklarımızda dövlət mühafizəsinə götürülmüş bir sıra heyvanların, o cümlədən bəbir, bezoar keçisi, ceyran, Xəzər suitisinin arealları haqqında məlumat verilir.

110 nəfərlik restoran, turistlərin vulkanları izləməsi üçün piyada yolu, müşahidə nöqtəsi və meydança... Bütün bunlar turistlərin rahatlığı üçün yaradılıb.

Bütün bu deyilənlər də təsdiq edir ki, Palçıq Vulkanları Turizm Kompleksi adının 2024-cü ilin ən önəmli yadigarları sırasına yazılmasına layiqdir.

*Flora SADIQLI, "Azərbaycan"*

## İşğaldan azad olunmuş ərazilərə köçürülən sakinlərdən 4 minədək şəxsin məşğulluğu təmin edilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərə köçürülmüş sakinlərin aktiv məşğulluq proqramları ilə əhatə olunması tədbirlərini davam etdirir.**

Həmin sakinlərdən artıq 4 minədək şəxsin məşğulluğu təmin olunub. Eyni zamanda sakinlər üçün peşə hazırlığı kurslarının təşkili işləri aparılır. Artıq 125 sakin işəgötürənlərlə birgə təşkil olunan peşə hazırlığı kurslarına cəlb edilib.

Doğma yurdlarına qayıdan vətəndaşlardan 145 sakin üçün isə özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar da yaradılıb.

İşğaldan azad edilmiş ərazilərdə əmək yarmarkalarının təşkili də davam etdirilir. Cari ildə həmin ərazilərdə daha 6 yarmarka keçirilib.

## Yaxın zamanlarda kosmik turistlərin də sayı artacaq

**"Yaxın zamanlarda təkcə kosmik texnologiyaların deyil, həmçinin astronavtlarla bərabər kosmik turistlərin də sayı artacaq".**

Bunu Azərbaycan Respublikasının Kosmik Agentliyinin ("Azərkosmos") İdarə Heyətinin sədri Saməddin Əsədov "Kosmik tibbin əsasları" mövzusunda təlimin açılışında bildirib.

"Əminəm ki, növbəti onillikdə kosmosa yollanan insanların sayı dəfələrlə artacaq. Bu baxımdan kosmik tibbin daha geniş təhlil və tədqiq olunması vacibdir. Azərbaycan 2008-ci ildən etibarən kosmik sahənin təhlilinə başlayıb. Bu gün ölkəmiz üç istiqamətdə geniş fəaliyyət göstərir. Artıq Azərbaycan dünya səviyyəsində kosmik sahədə aktiv rol oynayan ölkə kimi tanınır", - deyə S.Əsədov deyib.

# Azərbaycan günəşli ölkədir

## Bu günəş indi həm də təmiz enerji mənbəyidir

**Azərbaycanın bərpaolunan enerji sahəsində böyük planları var. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində "yaşıl enerji" ixracını həyata keçirmək üçün ölkəmizdə daxili tələbatdan çox "yaşıl elektrik enerjisi" istehsalı nəzərdə tutulur. Bu istehsalda günəş enerjisi əsas yer tutur.**



Yerdən 150 milyon kilometr məsafədə yerləşən Günəşin Yer səthinə düşən enerjisinin miqdarı dünyada olan bütün neft, təbii qaz, daş kömür və digər yanacaq ehtiyatlarından qat-qat çoxdur. Bu gün Günəş enerjisinin 0,0125 faizini səmərəli istifadə etməklə dünyaya lazım olan enerjinin bütün ehtiyaclarını tam ödəmək mümkündür. Günəş enerjisinin istifadəsinin üstünlüyü bir də ondadır ki, günəş qurğuları işləyən zaman "parnik effekti" yaranmır, havanın çirklənməsi baş vermir, istilik aşağı atmosfer qatlarına yayılmır.

Sual yarana bilər ki, hazırda qış fəslidir. Soyuq havalar Günəş-elektrik stansiyalarının (GES) fəaliyyətinə təsir etmirmi? Belə yanlış təsəvvürlərin əksinə olaraq mütəxəssislər deyirlər ki, Günəş panelləri qışda da effektiv işləyir. Gündüz saatlarının qısalmasına və səmada Günəşin bucağının aşağı düşməsinə baxmayaraq, Günəş panelləri hətta buludlu və qarlı günlərdə də əhəmiyyətli elektrik enerjisi istehsal edə bilir. Onların performansını müəyyən edən əsas amil ətraf mühitin temperaturu deyil, Günəş işığının mövcudluğudur.

Yerləşdiyi coğrafi əraziyə görə Azərbaycan Günəş enerjisi ilə zəngindir. Qalır ondan səmərəli istifadə etmək. Məsələn, bizdə binaların hər birinin üzərində Günəş panelləri yerləşdirmək mümkündür. Mütəxəssislərin fikrincə, deyək ki, ölkə üzrə 1 milyon sosial və ya ictimai əhəmiyyətli binanın üzərində belə panellər quraşdırmaqla hər birindən 10 kilovat elektrik enerjisinin alınması ümumilikdə təxminən 1000 meqavat elektrik enerjisinin əldə edilməsi demək olardı. Bu da bir ildə təxminən 1 milyard kubmetr təbii qaza qənaət deməkdir.

Azərbaycanın təbii iqlim şəraiti günəş enerjisindən istifadə etməklə elektrik və istilik enerjisinin istehsalını artırmağa geniş imkanlar açır. Belə ki, Azərbaycanda günəş şüalanmasının davamlılığı 2400-3200 saata qədər müşahidə olunur. Alternativ və bərpaolunan enerji mənbələri hesabına quraşdırılacaq yeni generasiya güclərində günəş enerjisinin xüsusi çəkisi 73 faiz (günəş-istilik 58, günəş-elektrik 15 faiz) təşkil edir. Bir sözlə, ölkəmizdə Günəş enerjisinin iqtisadi potensialı yüksək qiymətləndirilir.

2022-ci il martın 15-də təməli qoyulan "Qaradağ" Günəş-Elektrik Stansiyası MDB məkanında ən böyük analoji qurğudur. Bu böyüklüyündə stansiyanın inşası dövlət siyasətinin artıq bərpaolunan enerjiyə istiqamət götürməsinin təsdiqidir. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin inşa etdiyi stansiya 230 MVt gücündədir. Ölkəmizdə xarici investisiya cəlb edilməklə tikilən sənaye miqyaslı bu GES 550 hektar ərazini əhatə edir. Stansiyada 570 min Günəş paneli quraşdırılıb. GES-in şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib.

İllərdir planetin başına bəla olan ekoloji fəlakət dünya alimlərini, dövlət və hökumət başçılarını narahat edir. Bunu əvvəlcədən görən Ulu Öndər Heydər Əliyev hələ neçə illər öncə demişdir: "Təbiətin ölkəmizə bəxş etdiyi zəngin sərvətlərə xüsusi qayğı ilə yanaşmaq, belə misilsiz xəzinələri bəşəriyyətin gələcəyi naminə qorumaq üzərimizə düşən başlıca vəzifələrdəndir". Ulu Öndərin uzaqgörənliyi, Prezident İlham Əliyevin iqtisadi siyasəti nəticəsində hələ 10 il əvvəl Suraxanı Günəş-Elektrik Stansiyası istismara verilib. 7 hektarlıq ərazini əhatə edən stansiya Heydər Əliyev adına Beynəlxalq Hava Limanından 3 kilometr cənubda yerləşir. 2015-ci ildə isə Babək rayonunun Xal-xal kəndi ərazisində Naxçıvan GES təmiz enerji verməyə başlayıb.

Hələ bu ilin aprelində Berlinə səfər edən Prezident İlham Əliyev Almaniya kansleri Olaf Şoltsla görüşərkən demişdi ki, 2027-ci ilin sonuna qədər Azərbaycanda 9 günəş və külək elektrik stansiyası istismara veriləcək. Onların enerji potensialı 2 qiqavata bərabər olacaq. 2030-cu ilə qədər isə əlavə 10 külək və Günəş-elektrik stansiyası tikiləcək ki, onların da potensialı 5 qiqavata çatacaq. Azərbaycanın Avropaya "yaşıl enerji"ni ixrac etmək üçün fəal çalışdığını vurğulayan dövlətimizin başçısı demişdir: "Hesab edirəm ki, təbii qaz təchizatçısı olan Azərbaycan Avropa üçün "yaşıl enerji" təchizatçısı da olacaq".

*Züleyxa ƏLİYEVA, "Azərbaycan"*

## Şəkər ixracından əldə edilən gəlir məlum olub

**Bu ilin yanvar-noyabr aylarında Azərbaycandan 36 milyon 936 min ABŞ dolları dəyərində 47 885 ton şəkər və şəkərdən qənnadı məmulatları ixrac olunub.**

Bu barədə Trend Dövlət Gömrük Komitəsindən məlumat əldə edib.

Məlumata görə, bu, ötən ilin eyni dövrünə nisbətən dəyər ifadəsində 12 milyon 130 min ABŞ dolları (55,1 faiz) çox, həcm ifadəsində isə 16 693 ton (53,5 faiz) çoxdur.

11 ayda şəkər və şəkərdən qənnadı məmulatları ixracı ölkənin ümumi ixracının 1,39 faizini təşkil edib.

Eyni zamanda cari ilin ilk 11 ayında Azərbaycanda 218 milyon 370 min ABŞ dolları dəyərində şəkər və şəkərdən qənnadı məmulatları idxal olunub ki, bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6 milyon 170 min ABŞ dolları (2,7faiz) azdır.

11 ayda şəkər və şəkərdən qənnadı məmulatları idxalı ölkənin ümumi idxalının 1,16 faizini təşkil edib.

## Alüminium istehsalı və idxalı artıb

**Bu ilin yanvar-noyabr aylarında Azərbaycanda 57 624,2 ton alüminium məmulatları istehsal edilib. Bu barədə Trend Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.**

Məlumata görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 18 976,6 ton (49,1faiz) çoxdur. Cari ilin dekabrın 1-i vəziyyətinə ölkədə hazır məhsul ehtiyatı 2 954,3 ton təşkil edib.

Dövlət Gömrük Komitəsinin məlumatına görə, bu ilin ilk 11 ayında Azərbaycanda 182 milyon 689 min ABŞ dolları dəyərində 67 712 ton alüminium və ondan hazırlanan məmulatlar ixrac olunub. Bu, ötən ilin eyni dövrünə nisbətən dəyər ifadəsində 2 milyon 669 min ABŞ dolları (1,5 faiz) çox, həcm ifadəsində isə 945 ton (1,3 faiz) azdır.

11 ayda ayda alüminium və ondan hazırlanan məmulatların ixracı ölkənin ümumi ixracının 0,75 faizini təşkil edib.

# Almaniyada iqtisadi böhrana siyasi xaos da əlavə olundu

## Ölkədə seçkiqabağı situasiya gərginləşir

**Almaniyada seçki kampaniyası demək olar ki, kansler Olaf Şoltsun "işıqfor koalisiyasının" dağıldığı gün başlayıb. Bu proses dekabrın 16-da Bundestaqın kanslerə etimad göstərməkdən imtina etməsindən sonra növbədənkənar seçkilərə yol açıb. Bir gün sonra Almaniyanın əsas siyasi partiyaları seçicilərə öz seçki proqramlarını təklif ediblər.**






Bundestaqda təmsil olunan yeddi partiyadan (CDU/CSU bloku, SPD, Yaşıllar, FDP, AfD, Sol Partiya və SSV) yalnız ilk dördünün gələcəkdə siyasi cəhətdən Almaniya hökumətinin bu və ya digər birləşmədə real iştirakçısı olmaq şansı var.

Müdafiə siyasətində və Rusiyanın Ukraynaya qarşı müharibəsinə münasibətdə dörd tərəfin mövqeləri bir-birinə yaxındır. Onların hamısı Bundesverə xərclərin artırılmasının və Rusiyanın hücumunu dəf etmək üçün Ukraynaya hərbi yardımın davam etdirilməsinin tərəfdarıdır.

Eyni zamanda CDU/CSU blokundan kanslerliyə namizəd Fridrix Merts də Olaf Şolts kimi hesab edir ki, Almaniya heç bir halda bu müharibəyə cəlb edilməməlidir. Fərq bu məqsədə çatmaq yollarındadır. Məsələn, Şolts Berlin Kiyevə alman silahlarını Rusiya ərazisinin dərinliklərində vurmağa icazə verərsə və ya Ukraynanı TAURUS qanadlı raketləri ilə təchiz etməyə başlayarsa, Rusiya ilə münaqişənin kəskinləşməsindən ehtiyatlanır. Merts isə hesab edir ki, Kreml yalnız gücü başa düşür: "Güc aqressiyanı dəf edir, zəiflik isə təcavüzə dəvətdir".

Həm Merts, həm də "yaşıllar"ın kanslerliyə namizədi Robert Habek Almaniya hökumətinin başçısı vəzifəsinə seçilərsə, Berlinin mövqeyinə yenidən baxacaqlarını və Kiyevi uzunmənzilli TAURUS qanadlı raketləri ilə təchiz edəcəklərini vəd verirlər. Amma alman liberalları dəfələrlə bu cür tədarüklərin lehinə çıxış ediblər. Bu tələb FDP-nin seçki proqramında da var.

Təbii ki, siyasi partiyaların seçki kampaniyasının diqqət mərkəzində ölkədəki iqtisadi böhran və ondan çıxış yolları da var. Burada bir tərəfdən, sosial demokratlar və "yaşıllar"ın, digər tərəfdən isə, mühafizəkarlar və liberalların yanaşmalarını diametral şəkildə əks hesab etmək olar.

Sosial demokratlar və "yaşıllar" əmindirlər ki, yalnız dövlət iqtisadiyyatı durğunluq və tənəzzüldən çıxara bilər. Bundan əlavə, daxili tələbi artırmaq üçün SPD minimum əməkhaqqını saatda 15 avroya qədər artırmaq, o cümlədən ərzaq üçün ƏDV-ni 7 faizdən 5 faizə endirmək, fərdi mənzil bazarında kirayə haqqının artımı limitini qeyri-müəyyən etmək, yaşlı insanlara qayğı qiymətlərini dondurmaq, pensiyaların kəsilməsinin qarşısını almaq və gənc ailələr üçün müavinətlər tətbiq etmək niyyətindədir.

Büdcə imkanlarının ciddi şəkildə məhdud olduğunu nəzərə alaraq, sosial demokratlar Almaniya Konstitusiyasına daxil edilmiş və dövlət borcunun artımını cilovlamaq üçün nəzərdə tutulmuş "borc əyləci"ni faktiki olaraq ləğv etmək istəyirlər. "Yaşıllar" da bu qaydanı ləğv etməklə yanaşı, həm də alman "milyarderləri"nə (Almaniyada 249 nəfər belə insan var) və onların miraslarına vergilərinin artırılmasını, aşağı və orta gəlirlilərə isə ekoloji cəhətdən neytral enerjiyə keçid nəticəsində yaranan artan xərcləri kompensasiya etmək üçün xəzinədən "iqlim pulu" - əlavə ödəniş olunmasını tələb edirlər.

Əslində, sosial demokratlar və "yaşıllar"ın seçki proqramları iki partiyanın hökumət koalisiyasının dağılmasından əvvəl həyata keçirməyə çalışdıqları, lakin üçüncü tərəfdaş - liberal FDP-nin müqaviməti ilə üzləşdikləri siyasətin davamıdır.

CDU/CSU blokundan olan mühafizəkarlar gələcək hökumətə Fridrix Merts başçılıq edəcəyi təqdirdə ictimai-siyasi və iqtisadi kursu kökündən dəyişəcəklərinə söz verirlər. Başlanğıc üçün, Olaf Şoltsun "işıqfor"unun təşəbbüsü ilə qəbul edilmiş bəzi qanunları ləğv etməyi planlaşdırırlar. Bunlar, marixuananın leqallaşdırılması, mənzillərin isidilməsinin bərpaolunan enerji mənbələrinə keçirilməsi, Almaniya vətəndaşlığını əldə edərkən ikinci vətəndaşlığı saxlamaq hüququ və digərləridir.

Amma indiki hökumətin siyasətindən əsas fərq büdcə intizamına və vergi alətlərinə kökündən fərqli yanaşmadır. CDU/CSU da FDP kimi almanların gələcək nəsillərinin ödəməli olacağı dövlət borcunu artırmağı qəbuledilməz hesab edir.

Mühafizəkarlar vergiləri sahibkarlar üçün maksimum 25 faizə endirmək, gəliri ildə 80 min avrodan çox olan (hazırda 67 min avro təşkil edir) şəxslərdən isə maksimal vergi (42 faiz) tutmaq niyyətindədirlər. CDU/CSU əmindir ki, vergi yükünün azaldılması iqtisadi artıma təkan verəcək və bu da öz növbəsində büdcəyə vergi daxilolmalarının artmasına səbəb olacaq.

FDP daha da radikal vergi güzəştləri təklif edir. Sosial demokratlar və "yaşıllar"ın təşəbbüsü ilə yoxsullar və işsizlər üçün tətbiq edilən, habelə Ukraynadan olan qaçqınların da aldıqları "vətəndaşlar üçün pul" (Bürgergeld) adlanan səxavətli sosial müavinətlərə liberallar və mühafizəkarlar skeptik yanaşırlar.

CDU/CSU və FDP Almaniyanın sosial yardım sistemində köklü islahatlar keçirməyi planlaşdırır, müavinətlərin azaldılmasına imkan verir və əmək qabiliyyətli insanları başqa şəhərə köçürməyi tələb etsələr belə, vakansiyaları tutmağa məcbur edir. Bundan imtina edənlər isə müavinətlərdən tamamilə məhrum olacaqlar.

Mühafizəkarların və liberalların fikrincə, qeyri-qanuni immiqrasiya mövzusuna oxşar yanaşma nəticəsində büdcəyə əhəmiyyətli qənaət ediləcək. Hər iki tərəf qaçqın axınının məhdudlaşdırılması üçün sərt tədbirlər görməyə söz verir ki, bu da büdcə yükünün azalmasına səbəb olacaq.

"Yaşıllar" isə tamamilə fərqli mövqedədir. Onlar, məsələn, üçüncü ölkələrdə (yəni Aİ-dən kənarda) sığınacaq axtaran şəxslərin müraciətlərinə baxılması prosedurunun həyata keçirilməsinə qarşı çıxırlar, baxmayaraq ki, belə bir imkan artıq Aİ ölkələri tərəfindən təsdiq edilmiş miqrasiya kompromisində öz əksini tapıb.

Siyasi qeyri-sabitlik və iqtisadi böhran hazırkı Almaniyanın xüsusiyyətləridir. Bir vaxtlar lokomotiv adlanan ölkə, bu gün cırıltılı arabaya bənzəyir və 2024-cü ilin sonunda məyusedici nəticələr göstərir. Maliyyə sisteminin zəifliyi xroniki xarakter alıb. Bu barədə Almaniyanın İqtisadi Tədqiqatlar İnstitutu məlumat yayıb. Onlar qeyd ediblər ki, ölkədə biznes mühiti indeksi 2020-ci ilin may ayından bəri ən aşağı səviyyəyə düşüb.

Bu göstərici bazarda mövcud vəziyyətin qiymətləndirilməsini əks etdirir və təxminən on minlərlə müəssisənin sorğusu əsasında hesablanır. Onlar 2025-ci illə bağlı da son dərəcə bədbindirlər.

Almaniya iqtisadiyyatı ciddi böhran yaşayır. Ötən ay inflyasiya yenidən sürətləndi. Bu fonda Federal Bankın ekspertləri ÜDM-in azalacağını proqnozlaşdırıblar.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycanlı keçmiş atlet Türkiyə millisinin baş məşqçisi təyin olunub

**Azərbaycan əsilli keçmiş idmançı Ramil Quliyev Türkiyənin atletika üzrə gənclərdən ibarət millisinin baş məşqçisi təyin olunub.**




Bu barədə AZƏRTAC-a 34 yaşlı keçmiş atletin özü məlumat verib. R.Quliyev Türkiyə Atletika Federasiyasının bu vəzifəni ona həvalə etdiyini bildirib. Lakin müqavilənin detalları hələlik bəlli deyil.

Titullu idmançı ötən ay peşəkar karyerasını başa vurub.

Qeyd edək ki, Ramil Quliyev Türkiyə millisinin heyətində dünya və Avropa çempionu olub.

# Avropanın daha bir məşhur klubu "Qarabağ"ın hücumçusu ilə danışıqlara başlayıb

**"Qarabağ"ın futbolçusu Olavio Juninyo daha bir klubun maraq dairəsinə düşüb.**




AZƏRTAC AS nəşrinə istinadən xəbər verir ki, İspaniya "Sevilya"sı ilə yanaşı, Serbiyanın "Srvena Zvezda" komandası da braziliyalı hücumçunu transfer etmək istəyir.

Məşhur klubun 28 yaşlı forvardla danışıqlara başladığı iddia olunub.

Qeyd edək ki, "Qarabağ" daha əvvəl "Sevilya"nın Juninyo üçün göndərdiyi ilk təklifi qəbul etməyib.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Dünyanın ən çətin dilləri

Hazırda dünyada 6000-dən çox dil var, lakin onların çoxu məhv olmaq üzrədir. UNESCO-nun məlumatına görə, 2500-dən çox dil yox olmaq təhlükəsi qarşısındadır.

Mövcud dillərin hər birinin özünəməxsus qaydaları var. Onların bəzilərini öyrənmək olduqca asan olsa da, bəziləri çox qəlizdir. Bununla bağlı araşdırma aparan dilçilik üzrə mütəxəssislər öyrənilməsi ən çətin 10 dili müəyyən ediblər. Belə qənaətə gəlinib ki, ən mürəkkəb dillərdən biri ərəblərə məxsusdur. Dünyanın 25-dən çox ölkəsinin rəsmi dili olan ərəb dili, təxminən 310 milyon insanın ana dilidir. Yaxın Şərq və Şimali Afrikada geniş yayılmış bu dil həm də islam dünyasında dini əhəmiyyətə malikdir. Dildə sağdan sola yazılmış əlifbadan istifadə olunur və hərflər sözdəki mövqeyindən asılı olaraq, müxtəlif formalar alır. Ərəb dilinin qrammatik quruluşu da mürəkkəbdir. Bura feli birləşmələr, qadın-kişi fərqləri və geniş lüğət daxildir. Ərəbcədə kiçik hərflər yoxdur, sözlər sətirdən-sətrə keçmir. Bundan əlavə, dialektlər arasında da böyük fərqlər var. Məsələn, Misir ərəbi ilə Mərakeş ərəbi arasında əhəmiyyətli dil fərqlərinə rast gəlinir.

Çinin rəsmi dili olan Mandarin bu siyahıda ikinci yerdədir. 1,3 milyard insanın danışdığı bu ümumi dil Çinlə yanaşı, Tayvan və Sinqapur kimi ölkələrdə də rəsmi dil kimi istifadə olunur. Mandarin Çin dilinin ləhcəsi olsa da, standart bir forma kimi təhsildə və rəsmi ünsiyyətdə geniş şəkildə qəbul edilib. Dil tonal quruluşa malikdir və düzgün intonasiya sözün mənasının müəyyən edilməsində həlledici rol oynayır. Mandarin dilində dörd əsas ton olduğu üçün eyni heca müxtəlif intonasiyalarla tamamilə fərqli mənalar verir. Yazı sistemi minlərlə simvoldan ibarət loqo-qrafik quruluşa malikdir və hər simvol fərqli məna daşıyır. Bu simvollar fonetik olmadığı üçün əzbərləməyi tələb edir və öyrənmə prosesini çətinləşdirir.

Koreya dili həm Şimali, həm də Cənubi Koreyanın rəsmi dili olaraq Koreya yarımadasında 77 milyon insan tərəfindən istifadə edilir. Dil müasir Asiyanın ən müntəzəm və məntiqli əlifbalarından biri olan Hanqul dilində yazılıb. Hanqul elə qurulub ki, hər hərf dilin anatomik tələffüzünü təmsil etsin. Bu xüsusiyyət digər yazı sistemləri ilə müqayisədə öyrənmə prosesini daha əlçatan edir. Koreya dili lüğətinin çox hissəsini Çin mənşəli sözlərdən götürüb və yapon dili ilə qrammatik oxşarlıqlara malikdir. İnsanın yaşı, sosial mövqeyi və statusu cümlə quruluşunu və işlədilən ifadələri müəyyən edir.

Mürəkkəb dillərdən biri olan yapon dili Yaponiyanın rəsmi dilidir və bu dildə təxminən 128 milyon insan danışır. Dilin çətinliyi üç fərqli yazı sistemindən irəli gəlir: Kanci, Hiraqana və Katakana. Kanci Çin simvollarından ibarətdir. Hər bir işarə çox fərqli oxunuşa malik olduğu üçün öyrənmədə çətinlik yaradır. Hiraqana yapon mənşəli sözləri yazmaq üçün istifadə olunur və həmçinin Kancinin tələffüzünü göstərməyə kömək edir. Katakana xarici mənşəli sözlərə, elmi terminlərə və xüsusi vurğuya əsaslanır. Yapon dilinin qrammatikası subyekt-obyekt-feil (SOV) strukturunu izləyir və fəxri ifadələrə böyük diqqət yetirir. İstifadə olunan dil danışanın sosial mövqeyindən, yaşından və danışdığı şəxsdən asılı olaraq dəyişir. Bu dil öyrənənlər üçün əlavə təbəqə yaradır.

Rus dili dünyada təxminən 150 milyon insanın ana dili, 260 milyon insanın isə ikinci dil kimi danışdığı dildir. Bu dil Rusiyadan başqa, Belarus, Qazaxıstan və Qırğızıstan kimi ölkələrdə də rəsmi statusa malikdir. Birləşmiş Millətlər Təşkilatının altı rəsmi dilindən biri olan rus dili beynəlxalq diplomatiya, biznes və elmdə böyük əhəmiyyət kəsb edir. Kiril əlifbasından istifadə edilən rus dilinin olduqca mürəkkəb qrammatikası var. Altı hal sistemi isimlərin cümlədəki funksiyalarına uyğun olaraq forma dəyişməsini tələb edir. Bu dilin əsas çətinliyi vurğunun sərbəst olmasındadır. Məsələn, Azərbaycan dilində vurğu həmişə sözün sonuna düşür. Rus dilində isə vurğu sözün əvvəlində, ortasında, yaxud sonunda ola bilər. Bir çox sözdə vurğudan asılı olaraq, məna da dəyişir. Rus dilində bəzi sözlər eyni səslənə, lakin müxtəlif mənalara sahib ola bilər. Dili həmçinin məna yükünə birbaşa təsir göstərən punktuasiya qaydalarının həddən artıq çox olması da çətinləşdirir.

Macarıstanın rəsmi dili olan macar dilində dünyada, təxminən 14 milyon insan danışır. Avropa İttifaqının rəsmi dillərindən olan macar dili Ural dil ailəsinə aiddir və digər Avropa dillərindən əhəmiyyətli dərəcədə fərqlənir. Bu, dil öyrənmə prosesini həm çətin, həm də unikal edir. Macar dilinin çətinliyi bir neçə əsas elementdən qaynaqlanır. Hər şeydən əvvəl, dilin aglütinativ quruluşu sözlərin müxtəlif prefiks və şəkilçilərlə məna qazanmasına şərait yaradır. Hər bir şəkilçi sözün məna və ya qrammatik quruluşuna yeni xüsusiyyət əlavə edir. Qrammatika baxımından kifayət qədər mürəkkəb olan macar dilində ismin 18 halı var. Dildə bir-birinin ardınca gələn sait səslər çoxdur və bu, tələffüzü mürəkkəbləşdirir.

Tələffüz baxımından ən çətin dillərdən biri olan island dilidir. Bu dili tam öyrənmək qeyri-mümkündür, çünki fonetikanı yalnız dilin daşıyıcıları düzgün ötürə bilirlər. Dildə mürəkkəb qrammatik strukturlar və dörd hallı üç cins var, bu da öyrənməyi çətinləşdirir. İsland dili digər Skandinaviya dillərinə nisbətən daha az dəyişikliyə məruz qalıb və hələ də Orta əsr linqvistik xüsusiyyətlərini saxlayır.

Dünyanın ən qədim dillərindən hesab edilən yunan dili 13 zəngin tarix və mədəniyyətin açarıdır. Yunan dilində üç cins, çoxlu hallar və mürəkkəb qrammatik quruluş var, bu da onun öyrənilməsini çətinləşdirir. Bundan əlavə, yunan əlifbası ingilis dilində danışanlar üçün yeni öyrənmə prosesi tələb edir.

Fars dili Orta Asiya və Yaxın Şərqdə, xüsusən də İranda danışılan dildir və dünyada təxminən 62 milyon insan ana dili kimi bu dildən istifadə edir. Fars dilində qrammatik cəhətdən işlənmiş zamanlar və mürəkkəb fel bağlamaları yoxdur, lakin dil zəngin ədəbi ənənəyə və geniş lüğətə malikdir. O, Yaxın Şərqin mədəni və tarixi irsinə dərindən nəzər salmaq imkanı verir.

Fonetik quruluşu ilə nisbətən asan görünən türk dili, mövzu-obyekt-feil quruluşu və aglütinativ qrammatikası ilə çətin dillərdən biridir. O, Türkiyə və Şimali Kipr Türk Cümhuriyyətinin rəsmi dilidir, təxminən 75 milyon insan tərəfindən danışılır.

Ana dilindən başqa, bir neçə dildə danışmaq günümüzdə olduqca önəmlidir. Xarici dil öyrənmək sosial, mədəni, peşə və iqtisadi baxımdan vacibdir. Üstəlik, müasir dövrün rəqabətli strukturu öyrənilməli olan dillərin sayını artırıb. Mütəxəssislər bildirirlər ki, yeni dil öyrənmək nə qədər çətin və yorucu olsa da, buna nail olmaq mümkündür. Sürətli irəliləyiş əldə etmək üçün müəyyən edilmiş üsullardan müntəzəm və ardıcıl istifadə etməklə istənilən dildə qısa müddətdə sərbəst danışmaq olar.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***




BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4233**
**Sifariş 2901**

**Qiyməti 60 qəpik**